**Elxan Elatlı**

# PƏNCƏRƏDƏ GÖRÜNƏN KÖLGƏ

**detektiv roman**

PƏNCƏRƏDƏ GORUNƏN KÖLGƏ

« Pəncərədə görünən kölgə» sevilən yazıçı Elxan Elatlmın detektiv janrında yazdığı dörd hekayə və iki povestdən sonra ilk romanıdır. Bu maraqlı və təsirli əsərdən başlayaraq, müəllif dünya detektivində heç kəsə bənzəməyən özünəməxsus üslubunu yaratmışdır. Romanda Azərbaycanın bir kənd rayonunda baş vermiş müəmmalı cinayətlərin sirrinin açılmasından söhbət getsə də, burada anaya və övlada məhəbbətin, halallığın, mənəvi təmizliyin təbliği də xüsusi yer tutur. Bu baxımdan roman yeniyetmə və

gənclərin tərbiyəsində müsbət rol oynamağa qadirdir.

Elxan Elatlı. Pəncərədə görünən kölgə



downloaded from KitabYurdu.org

Bakı, Qanun Nəşriyyatı, 2015,

Korrektor: Ceyran Abbasova Qanun Nəşriyyatı

Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76 Te.n.: (+99412) 431-16-62; 431-38-18 Mobil: (+994 55) 212 42 37 e-mail: info@qanun.az www.qanun.az

www.fb.com/Qanunpublishing www.instagram.com/Qanunpublishing ISBN 978-9952-36-060-8

Qanun Nəşriyyatı, 2015 © © E.Elatlı, 2015

***ekitabı hazırladı: book_lover***



downloaded from KitabYurdu.org

# Proloq

Bu hadisə Azərbaycanın mərkəzdən uzaq rayonlarının birində baş verib. Həmin rayonun prokuroru olan dostum hadisə barədə mənə danışsa da, bu barədə yazmağı, xüsusilə də onun öz adını çəkməyimi məsləhət bilmədi. Ona görə də çox düşünməli oldum. Nəhayət, bu kədərli əhvalatı olduğu kimi sizlərə çatdırmağı qərara aldım.

Həmin gün... Günəşin batmağına az qalırdı. Kiçik şəhərin kənarındakı köhnə qəbiristanlıqda, buranın daimi sakinləri olan gözə görünməz ruhlardan başqa, bir canlı adam da dolaşırdı.

Sarışın saçları pərişan halda çiyinlərinə tökülmüş bu gənc qadın, ətrafa boylanan ürkək nəzərlərindən ölülər şəhərciyində azmış adama oxşayırdı. Heç şübhəsiz ki, o, hansısa ölünün əbədi mənzilini soraqlayırdı.

Burada bircə dəfə olmuşdu. On dörd il əvvəl, sevimli nənəsi buraya köçdüyü gün. Ondan sonra imkanı olmamışdı gəlib nənəsinə baş çəkməyə. Ona görə də yadına sala bilmirdi onun son mənzilinin yerini.

Hələ qəbri tapmamış qəbiristanlığın anlaşılmaz vahiməsi ürəyinə dolmuşdu. Buranın qəmli havasının yaratdığı qəhər boğazına tıxanıb qalmışdı. Mavi gözləri yavaş-yavaş dolur, duzlu göz yaşları gözlərinin içini göynədirdi.



downloaded from KitabYurdu.org

Birdən nəzərləri başqa qəbirlərdən bir az aralı, qəribsəmiş bir baş daşının üzərindəki yazıya sataşdı: «Ruhiyyə Ziyadxan qızı. 1915- 1991». Gözlərinə yığılıb dolmuş acı göz yaşları buna bənd imiş kimi qaynayıb axmağa başladı.

İrəli yeriyib qəbrin qarşısında dizi üstə çökdü. Başını sinə daşının üstünə qoyub onu qucaqladı. Dağılan saçlan qəbrin üstünə yayıldı. Bir müddət beləcə qalıb göz yaşlan ilə qəbir daşını islatdı. Sonra dikəlib baş daşıyla, canlı insanla danışırmış kimi, danışmağa başladı:

- Gəlmişəm, ay nənə! Tanıdın məni? Bilirəm, sənə baş çəkmədiyim üçün incimisən məndən. Haqqın var, ay nənə, haqqın var! Ancaq onu bil ki, unutmamışam heç vaxt səni. Uşaqlar

başımı qarışdırsa da, iş-güc başımdan aşsa da hər gün yadıma düşmüsən!

Yadmdadı, nənə, məni yanında otuzdurub başımı sığallayırdın, nəsihət verirdin. Deyirdin xoşbəxt olacaq mənim balam! Yadmdadı?.. Ancaq heç xoşbəxt ola bilmədim, ay nənə! Xoşbəxt ola bilmədim... Anlamıram, baş aça bilmirəm ki, mənə nə olub... Mən nə üçün başqaları kimi ola bilmirəm? Dərd-sər heç vaxt yaxamı buraxmır, ay nənə! Elə bil yadam bu dünyada hamı üçün! Heç kəs başa düşmək istəmir məni. Nə sənin oğlun, nə də gəlinin qulaq asmaq istəmir mənə. Sənə qurban olum ay nənə, sən niyə öldün axı?!.



downloaded from KitabYurdu.org

Yenə də qaynar göz yaşlan yanaqları ilə üzüaşağı süzülməyə başladı: - Gəlmək istəyirəm yanma, ay nənə! Həmişəlik gəlmək istəyirəm. Küsmüşəm daha hamıdan!

Üzünü doğma məzara sürtüb, bir xeyli beləcə dayandı. Sonra yuxudan ayılıbmış kimi, qəfildən ayağa qalxıb parlaqlığını itirməkdə olan səmaya baxdı. Axşamın düşməyinə bir şey qalmamışdı. Ətrafa boylanıb, özünü qəbiristanlıqda tək görəndə üşürgələndi. Əyilib sonuncu dəfə qəbri öpdü və qəbirlərin arası ilə sürətlə irəliləməyə başladı.

O, şəhərə tərəf yox, tamamilə əks istiqamətdə gedirdi. Bir azdan qəbiristanlığı arxada qoyub ətrafa boylandı. Axtardığını tapıbmış kimi, sağa dönərək tikanlı çöllərlə getməyə başladı. İndi şəhər onun sağ tərəfində qalmışdı. Ancaq heç şəhərə tərəf baxmırdı. Tikanlar çılpaq qıçlarını cızıb qanatsa da, heç nəyə fikir vermir, elə hey irəliləyirdi...

Qarşıdan iyirmi yaşlarında, anq bir oğlan gəlirdi. Bir əlində vedrə və tilov tutmuşdu. Yanından keçəndə dönüb bir anlığa onun üzünə baxdı. Oğlanın ona diqqət yetirdiyini görüb üzünü döndərdi və yoluna davam etdi. Birdən nə düşündüsə, addımlarını yavaşıtdı. Əgər həmin anda geriyə dönsəydi, oğlanın ayaq saxlayıb təəccüblə ona baxdığını görərdi.

Ancaq o, geriyə baxmadı və yenidən addımlarını sürətləndirib irəliyə doğru getdi.



downloaded from KitabYurdu.org

Onun getdiyi bu yolun qurtarmağına cəmi beş-on addım qalmışdı...

## I HİSSƏ

Mehdixan kişi, adəti üzrə, səhər tezdən ayağa qalxmış, kəndi gəzib icra nümayəndəliyinə baş çəkərək, səhər yeməyini yemək üçün evə qayıtmışdı. O, yaşadığı Göydağ və qonşu Dərəçay kəndlərinin icra nümayəndəsi işləyirdi. Çoxdan işlədiyi bu işdə kənd camaatının hörmətini qazanmışdı. Elə rayon mərkəzində də ağsaqqal kimi tanmırdı. Bir qədər zəhmli, ancaq xeyirxah, əliaçıq, qonaqpərvər bir kişi idi.

Dünən onun həyətində gözəl bir məclis qurulmuşdu. Nəvəsi İlhamın on yaşının tamam olmasını qeyd etmişdilər. Qızı Fədayə, nəvəsi İlham və qızının əri Nemət Bakıdan bu münasibətlə gəlmişdilər. Nemət Sabirli jurnalist idi. Nüfuzlu bir qəzetdə şöbə müdiri işləyirdi. Mehdixan kişinin arzusu ilə oğlunun ad gününü qayınatasının kəndində keçirməyə razı olmuşdu. Onlar tək gəlməmişdilər. Nemət üzbəüz mənzildə tənha yaşayan qonşusu, istefada olan polis polkovniki Qanbay Qasımlmı və dostu, cinayət- axtarış polisi, kapitan Mahir Talıbovu da özü ilə gətirmişdi. İstəmişdi ki, onlar həm ad günündə iştirak etsinlər, həm də bir-iki gün istirahət edib, Göydağın təmiz havasından udsunlar.



downloaded from KitabYurdu.org

Qanbay Qasımlı qırx yaşlarında, bir qədər arıq, ağıllı gözləri, nazik sərt qaşları sifətinə xüsusi ifadə verən qaşqabaqlı bir adam idi.

Mahir Talıbov isə otuz yaşında, orta boylu, qaraşın, qaynar təbiətli bir gənc idi. İdmanla məşğul olmağı, uzun-uzadı söhbət etməyi, dostlarla gəzintini xoşlayırdı. Bakıda, rayon polis şöbələrinin birində cinayət-axtarış bölməsində işləyirdi və heç də pis işçi hesab olunmurdu. Rəhbərlik onun həddən artıq zirəkliyini, başladığı işi başa çatdırmaq üçün sona qədər, hər vasitədən istifadə edərək çarpışmasını nəzərə alıb bəzi ərköyün hərəkətlərinə göz yumurdu. Qayınatasının böyük vəzifədə işləməsi də bu məsələdə öz təsirini göstərirdi. Mahirin iş əsnasında başına çox qəribə və maraqlı hadisələr gəlmişdi ki, onlardan bir neçəsi, xüsusilə sizə

danışacağım bu kiçik əhvalat şöbə əməkdaşlarının dilindən düşmürdü.

... Onun işlədiyi bölmə bir cinayətkar qrupun izinə düşmüşdü. Mahirə bu qrupun üzvü olan gənc bir qızı izləmək tapşırılmışdı. Həmin gün qız bulvarda, dəniz gəzintisi üçün bilet verən kassanın yanında bir kişi ilə görüşməli idi. O, Azneft meydanından keçib bulvara girdi və arxayın addımlarla görüş yerinə doğru irəliləməyə başladı. Əyninə qara şalvar, mavi, qolsuz köynək geymiş, gözünə qara eynək taxmışdı. Çiynindən qara rəngli çanta sallanırdı. Dalınca



downloaded from KitabYurdu.org

düşmüş oğlandan isə xəbəri yox idi. Əyninə cins şalvar və damalı köynək geymiş

Mahir əllərini ciblərinə qoyub, saqqız çeynəyə- çeynəyə qızın arxasınca gəlirdi.

Bu zaman Mahirin cib telefonu səsləndi. Zəng vuran rəisi idi. Qızın həmin anda harada olduğu ilə maraqlandı. Və bunu öyrənən kimi, qəribə göstəriş verdi:

- Nəyin bahasına olursa olsun, qızı, heç olmazsa, on dəqiqə gecikdir! Həmin kişi görüş yerində həbs olunacaq. Qız bunu görməməlidir! Onu şübhələndirmədən ləngitməyə çalış!

Mahir telefonu qapayıb cibinə qoydu və nə edəcəyini fikirləşməyə başladı. Qız görüş yerinə yaxınlaşırdı. Bir azdan gec olacaqdı. Nəsə etmək lazım idi. Birdən addımlarını sürətləndirib qıza yaxınlaşdı:

- Gözəl qız, ağlımı başımdan almısınız, xahiş edirəm, qaytarın onu!

Qız arxaya çevrilib:

- Sənin ağlın var idi yəni? - deyə soruşdu və yolundan qalmadı.

Mahir cəld onun qabağını kəsdi:

- Ağlım olmasaydı, bu cür gözəlliyi görməzdim. Gəlin, tanış olaq!



downloaded from KitabYurdu.org

- Çəkilin! - qız onu yolundan itələyib sürətini artırdı.

Çarəsi kəsilən Mahir birdən nə düşündüsə, qızın çantasını qapıb əks tərəfə qaçmağa başladı. Qız dəli kimi qışqırıb onun dalınca düşdü. Mahirə də elə bu lazım idi. Ətrafdakı adamların məzəmmət və nifrət dolu baxışlarını vecinə də almadan bulvar boyu qaçırdı.

- Dayan, oğru köpək oğlu!

Mahirdən çox da geri qalmayan qız qışqırıb onu söyürdü.

- Tutun onu!

Bir cavan oğlan Mahiri tutub saxlamaq istədi. Ancaq, alınmadı. Mahir onu itələyib qaçışını davam etdirdi. Qız da arxasınca qaçırdı. Azneftə yaxınlaşanda, qabaqdan gələn üç nəfər polis patrulu Mahiri tutub saxladı. Çantanı əlindən alıb, təngnəfəs gəlib yetişən qıza qaytardılar və onu bir az söhbətə tutub buraxdılar. Mahiri isə maşına basıb polis bölməsinə apardılar.

Onun tapşırıq yerinə yetirdiyinə heç cür inanmırdılar. Yalnız, Mahir öz rəisinə zəng vurandan və rəis işə qarışandan sonra onu azad etdilər.

Rəisin kapitan Talıbova təşəkkür etməkdən başqa əlacı qalmadı. Əməliyyat müvəffəqiyyətlə baş tutmuşdu...

Polkovnik Qasımlı ilə Mahir Talıbovun əsas xasiyyətləri uyğun gəlməsə də və dünən tanış olmalanna baxmayaraq tez



downloaded from KitabYurdu.org

dil tapmışdılar. Hər ikisinin şahmata olan böyük marağı onlan yaxınlaşdırmışdı.

Mehdixan kişi həyətə girəndə, əziz qonaqlarının evin qarşısına qoyulmuş uzun stolun arxasında oturub şahmat oynadıqlarını gördü. Gəlini Nuridə samovara od salırdı. Nemətgil, deyəsən, hələ yatırdılar. Ev sahibi qonaqlara salam verib, tövlənin qabağında toyuqlara dən verən arvadının yanma getdi.

- Uşaqlar qalxmayıb hələ?

- Fədayə qalxmışdı. Nemətgil də durar bu saat. - Dilbər xala cavab verdi.

- Nəvənin dünənki məclisi xoşuna gəldi? - Mehdixan kişi mehribanlıqla soruşdu.

- Hə... Çox yaxşı keçdi. Ancaq axşam yaman pis yuxu görmüşəm. Allah axırın xeyir eləsin!

- Nə yuxu, ay arvad?! - Mehdixan kişi təəccüblə soruşdu.

- Lap qatma-qarışıq yuxu idi. Yaxşı yadımda qalmadı.

- Fikir vermə! Get qızlara de, süfrəni tez hazırlasınlar. Qonaqlar acdır, yəqin.

Dilbər xala bir söz deməyib, evə çıxdı. Süfrə hazır olan kimi qonaqlar şahmatı yığışdırıb kənara qoydular. Ev sahibi, Nemət və oğlu gəlib süfrə arxasında əyləşdilər.



downloaded from KitabYurdu.org

- Elməddin harada qaldı? - Mehdixan kişi stəkanlara çay süzən Nuridədən soruşdu.

- Meşədən qayıtmayıb hələ. - Nuridə cavab verdi. - Siz çayınızı için, o da bu saat gələr.

Elməddin ailənin yeganə oğlu idi. Otuz yaşı olmazdı. Kəndi iki tərəfdən əhatə edən böyük meşənin meşəbəyisi işləyirdi. Hər gün, səhər tezdən, yerindən qalxıb öz ərazisini gəzir, yalnız bundan sonra gəlib səhər yeməyini yeyirdi.

On dəqiqə keçmiş darvaza açıldı. Çiynində beşaçılan tüfəng olan Elməddin, onun ardınca da sarı rəngli bir ov tulası həyətə daxil oldu. Gənc meşəbəyi qonaqlara salam verib, tüfəngi çiynindən çıxardı və Nuridəyə uzatdı. Sonra isə iti özündən uzaqlaşdırdı:

- Alabaş, get yerinə!

İt onun əmrinə tabe olub, həyətin aşağısına doğru qaçdı.

- Niyə gecikirsən? - atası Elməddini məzəmmət edib süfrəyə əl uzatdı. - Hə, başlayın, görək!

Elməddin əl-üzünü yuyub quruladı və gəlib süfrənin arxasında oturdu:

- Əhlimanın oğlu qoyunları örüşə qatmaq istəyəndə nədənsə ürküblərmiş. Hamısı qaçıb meşəyə dağılmışdı. Uşağa yazığım gəldi. Ona bir az kömək elədim.

- Hamısını qaytara bildiniz? - atası soruşdu.



downloaded from KitabYurdu.org

- Hə! Başqa uşaqlar da kömək elədilər. Yazıq Cavid az qalırdı ağlasın. Deyirdi, atam şəhərə gedib, qayıdıb görsə ki, qoyunlardan itən var, məni döyəcək.

- Qoyunun ürkməyi yaman olur. Bir də gördün, dəli kimi ürküb kənddən çıxdı. Gedib özlərini qayadan da tullaya bilərlər. - Mehdixan kişi qonaqlara izahat verdi.

- Elə ona görə də ona qoyun deyirlər! - Mahir gülümsəyib fikrini bildirdi və bal tökülmüş nəlbəkini qabağına çəkdi.

- Yeyin, təmiz baldır! - ev sahibi balı təriflədi.

- Burada hər şey təmizdir. Havası da, yeməyi də! - Qasımlı dedi və balı çörəyin üstünə yaxan Mahirə baxdı.

Qanbay Qasımlı elə bil dünəndən bəri dəyişmişdi. Bunun səbəbini kəndin təmiz havası ilə də izah etmək olardı. Başağnları kəsilmiş, əhvalı yaxşılaşmışdı. Odur ki, Mahir səhər yeməyindən sonra kəndin ətrafında bir az gəzməyi təklif edən kimi razılaşdı.

Onlar küçələrdən keçib kəndi arxada qoydular və Dərəçaya gedən cığıra düşdülər. Bir az getmişdilər ki, qarşılarına enli bir tala çıxdı.

Bu taladan ətrafa gözəl mənzərə açılırdı. Uzaqda Dərəçay kəndi görünürdü.

Üç nəfər idilər. Elməddinin həyətdə işi olduğu üçün onlara qoşula bilməmişdi. Ancaq Nemət özü buralan pis tanımırdı.



downloaded from KitabYurdu.org

Fədayə ilə evlənəndən sonra hər il yayda, bir həftəliyə də olsa, bu kəndə dincəlməyə gəlmişdi.

- Qayınatangil cənnətdə yaşayırlarmış ki?! - Mahir üzünü Nemətə tutdu.

- Elədir. - Nemət təsdiq etdi. - Ancaq özləri bunu hiss eləmirlər.

- Çox nahaq!

Qonşu kənddən gələn cığırla qonaqlann dayandığı talaya doğru iyirmi - iyirmi beş yaşlı gənc bir oğlan qalxırdı. O, gəlib talaya çatdı. Nəfəsini dərmək üçün dayanıb qonaqlara baxdı. Neməti tanıyıb onlara yaxınlaşdı.

- Sizi xoş gördük, Nemət müəllim! Nə vaxt gəlmisiniz?

Nemət salamı alıb onunla görüşsə də, bu arıq, kürən oğlanı bir az gec tanıdı.

- Mahmudun qardaşısan?

- Hə! Ağayaram. Yadınızdadırsa, keçən yay bizi Elməddin tanış eləmişdi. - O, Qasımlı və Mahirlə də əl tutdu.

- Xatırladım... - Nemət başını tərpətdi. - Eviniz də yadıma düşdü. Darvazanızın qabağında görüşmüşdük.

- Düzdür. Ancaq indi orada yaşamıram. - Ağayar əllərini təmizləyirmiş kimi, şalvarının dalma sürtdü. - Kəndin yuxarı



downloaded from KitabYurdu.org

başında ev tikib köçmüşəm. Həmin gördüyün evdə Mahmud tək olur.

Əslində, heç də, Ağayann dediyi kimi deyildi. Ata-anaları xəstəlikdən vaxtsız vəfat edəndən sonra Mahmud bacı-qardaşma atalıq etmişdi. Əvvəl bacısını gəlin köçürmüş, sonra isə kiçik qardaşı Ağayan öz arzusu ilə evləndirmişdi. İndi Ağayann iki uşağı da var idi. Mahmud isə, otuz yaşının olmasına baxmayaraq, hələ evlənməmişdi. Deyilənə görə, sevdiyi qız başqasına ərə getdiyi üçün, həm də bacı-qardaşının işlərinə başı qarışdığı üçün gecikmişdi.

Mahmud Ağayan evləndirəndən bir il sonra onun arvadının bəzi xasiyyətlərini görüb, düşünmüşdü ki, özü evlənəndən sonra iki ailə bir həyətdə yaşaya bilməyəcək. Elə Ağayann özü ilə də yola getmək çətin idi. Uşaqlıqdan ərköyün böyüdüyü üçün istədiyini etməyə özünü həmişə haqlı bilirdi.

Bunlan düşünən Mahmud kəndin yuxan başında yer götürdü və qolunu çırmayıb Ağayar üçün birmərtəbəli ev tikdi. Həmin evə özü də köçə bilərdi. Ancaq düşündü ki, Ağayar ata yurdunun qədrini bilən olmayacaq və nə vaxtsa evi həyətqanşıq sata bilər. Odur ki, onu razı salıb

təzə evə köçürtdü. Ev əşyalarından, mal-qaradan, necə lazımdırsa, kiçik qardaşının payını ayırdı.

Ağayar əvvəllər təzə evə və təzə həyətə xüsusi maraq göstərdi. Ancaq sonra başa düşdü ki, təzə həyətdə meyvə ağacları əkib



downloaded from KitabYurdu.org

yetişdirmək uzun vaxt tələb edəcək. Atadan qalma həyətdə isə artıq bol məhsul verən meyvə ağacları var idi. Düzdür, Mahmud həyətdə yetişən meyvələrdən öz paylarını aparmağa bacı-qardaşma icazə vermiş¬di. Ancaq yenə də bu və digər məsələlərə görə Ağayar peşman olmağa başlamışdı və bunu artıq bir neçə dəfə Mahmuda çatdırmışdı.

- Yoldaşlarınızdır? - Ağayar başı ilə qonaqları göstərdi.

- Hə! - Nemət bilərəkdən belə cavab verdi.

- Jurnalist dostlarımdır.

- Lap yaxşı! Allah başınızı uca eləsin. Oxumuş adamlar bizim fəxrimizdir.

Qasımlı onlara qulaq asmırdı. Uzaqlarda görünən gözəl mənzərələrə tamaşa edirdi. Ya bəlkə də tamam başqa düşüncələrə dalmışdı?.. Bunu onun sifətindən oxumaq müşkül məsələ idi. Qollarını sinəsində çarpazlayıb iti gözlərini çox uzaqlara dikmişdi. Mahir isə Ağayargilin söhbətinə qulaq assa da, təbiət mənzərələrinə göz yetirdiyi və bu görüntülərdən ləzzət aldığı açıq hiss olunurdu. Qibtə hissi ilə başını bulayıb Ağayara dedi:

- Xoşbəxt adamsınız ki, belə yerdə yaşayırsınız!

- Yox əşi! - Ağayar başını bulayıb, Mahirə etiraz etdi. - Burada çörək yoxdur. Çörək də ki olmadı, gözəlliyin kimə nə xeyri var?



downloaded from KitabYurdu.org

- Bəs nə işlə məşğul olursunuz burada? - Mahir maraqla sual verdi.

- Meşədən ağac kəsib gətirirlər, sonra isə onu doğrayıb şəhər camaatına satırlar. Bir də kimin həyətində bar verən ağac varsa, onun meyvəsini satır. O da ki, şəxsən mənim həyətimdə yoxdur. - Birdən yadına qəfil nə isə düşmüş kimi əvvəl Nemətə, sonra isə yenə Mahirə baxıb soruşdu: - Yeri gəlmişkən, siz jurnalistsiniz, yəqin ki, qanunları da yaxşı bilirsiniz. Ata

öləndən sonra onun yurdu kiçik oğluna çatmalıdı, ya yox?

Mahir başını buladı:

- Mən, şəxsən, elə qanun eşitməmişəm. Ancaq Qanbay müəllim bu barədə daha məlumatlı olar.

Qasımlı adını eşidib onlara tərəf döndü və intizarla cavab gözləyən Ağayan süzüb dilləndi:

- Deyəsən, siz dediniz ki, burada çörək yoxdur? Ancaq səhv etmirəmsə, siz artıq çörək qazanmağın çox asan üsulunu tapmısınız!

Ağayar, nədənsə, özünü itirdi:

- Yox... Mən demək istəyirəm ki, böyük qardaşım ata evində yaşayır. Amma ora əslində mənim olmalıdır.

- Əlbəttə, siz təzə həyətdə yaşayırsınız və orada bar verən meyvə ağacları yoxdur. Sizin isə onları əkib barını gözləməyə



downloaded from KitabYurdu.org

səbriniz yoxdur. İstəyirsiniz ki, əkdiyiniz tez bar versin və yüksək qazanc götürəsiniz.

Ağayar nə isə mızıldadı. Qırmızı, çilli sifəti bir az da qızardı. Nemət təəccüblə Qasımlıya baxdı və söhbəti yoluna qoymaq üçün dilləndi:

- Əslində, ata-ananm vəsiyyəti yoxdursa, ev də, həyət də sizin aranızda bölünməlidir. Ya da ki, bütün övladlann yazılı razılığı ilə mülk övladlardan birinə qalmalıdır.

- Mən heç bir razılıq-zad verməmişəm! - Ağayar elə xoruzlandı ki, elə bil onu mülkdən məhrum edən Nemət idi.

- Bilirsən, əzizim, - Mahir əlini onun çiyninə qoydu. - Biz buraya mal-mülk bölməyə gəlməmişik. Jurnalist adamlanq. Gəlmişik bir az istirahət edək, sonra da gedib məqaləmizi yazaq.

Bunu deyib gizlicə Nemətə göz vurdu.

- Sağ olun! Allah işinizi avand eləsin! - deyib, Ağayar onlardan aralandı və sürətlə kəndə doğru qalxmağa başladı.

Mahir onun arxasınca baxıb başını buladı:

- Bunun başı xarab imiş ki!?

- Siz onun əlindən gələn qoxunu hiss etdiniz? - Qasımlı soruşdu.

- Nə qoxu? - Nemət təəccübləndi.



downloaded from KitabYurdu.org

- Hə. Qəribə iy gəlirdi ondan... - Mahir fikrini bildirdi. - Çürümüş torpaq iyi ot iyinə qarışmışdı, elə bil...

Polkovnik, qəribə tərzdə, başını yellədi. Bilmək olmadı ki, Mahirin fikrini təsdiq edir, yoxsa inkar. Ancaq nədənsə, yoldaşları buna elə bir əhəmiyyət vermədilər.

Nemət yaxındakı iri kolun kölgəsində, yaşıl otlann üstündə oturdu.

- Bunun qardaşı Mahmud yaxşı bənnadır. Həm də savadlı, qabiliyyətli oğlandır. Bu ona heç oxşamır...

Mahirlə Qasımlı da gəlib Nemətin yanında oturdular. Ayaqlan altında qalan geniş sahələrə tamaşa edib ordan-burdan xeyli söhbət etdilər. Söhbətin bir başı hərdən gedib Bakıya çıxırdısa da, sanki onun istisindən, tozundan, səs- küyündən qaçıb yenə də gözləri önündə açılmış gözəl mənzərənin başına hərlənirdi. Kəndin təbii gözəlliklərindən, daha çox, bir yazı-pozu adamı kimi təbiətin vurğunu olan jurnalist Nemət, bir də polisdə işləməyinə baxmayaraq, romantik qəlb sahibi olan Mahir danışırdı. Hərdən onlara elə gəlirdi ki, polkovnik Qasımlı təbiətdən heç bir zövq almır. Ancaq, yanılırdılar. Qasımlı da gözləri qarşısında dayanmış gözəllikdən zövq almağı, mənən qidalanmağı bacarırdı. Ancaq yanındakılardan onun böyük bir fərqli xüsusiyyəti var idi ki, bu da onun daxili hisslərini həmişə gizlətməsi idi. Onun nə düşündüyünü heç kəs üzündən anlaya bilmirdi...



downloaded from KitabYurdu.org

Nemət ayağa qalxıb əli ilə üst-başma yapışmış otları təmizlədi.

- Gedək evə! İndi Dilbər xala bizə görə narahatdır.

- Düzdür. Gedək bir az şahmat oynayaq. - Mahir bunu deyib Qasımlıya baxdı.

Ayağa qalxıb, sanki bir daha görməyəcəklər kimi, uzaq mənzərələrə nəzər yetirdilər. Sonra dönüb, yavaş-yavaş kəndə doğru qalxmağa başladılar. Kəndə girəndə, küçələrdə tək-tək rast gəldikləri adamlar salam verib keçirdilər. Bu kənddə adət belə idi. Tanımadıqları adama da küçədə salam verirdilər.

Mahmudun həyətinin darvazası taybatay açıq idi. Mahmud küçəyə tökülmüş mişar daşlanndan seçib həyətə apanrdı. Üst-başı daş tozuna bulaşmışdı. Eeməti görən kimi irəli yeriyib onunla görüşdü.

- Üzünü görək, ay Nemət müəllim! - Sonra o birilərə də əl verdi. - Xoş gəlmisiniz! Gedək evə, qonağım olun!

- Sağ ol! Başqa bir vaxt qonağın olarıq,

Allah qoysa! - Nemət onu dostlanna təqdim etdi. - Haqqında danışdığım usta Mahmud, bax budur!

Mahmud orta boylu, qarayanız, sağlam görkəmli bir adam idi. Gündən yanmış üzü və qabarlı əlləri zəhmətkeşliyinə dəlalət edirdi.

- Uşaq necədir? - deyə Nemətdən soruşdu.



downloaded from KitabYurdu.org

- Çox sağ ol, yaxşıdır! Nə tikirsən belə?

- Hamam tikmək istəyirəm.

Mahmud əli ilə evin qarşısındakı yarımçıq tikilini göstərdi. Açıq darvazadan həyətin çox hissəsi aydın görünürdü. Hamam olacaq tikilinin divarları, demək olar ki, yanya qədər qalxmışdı.

- Tikərsən, Allah qoysa! - Nemət həyətə boylandı. - Köməkçin yoxdur, deyəsən?

- Köməkçiyə nə ehtiyac? Xırda işdir. Günortadan sonra qurtaracam, - deyən Mahmud əl-ayağa düşdü: - Əşi, küçədə niyə da¬yanmışıq, mən ölüm, gəlin, keçin həyətə! Çay için, nərd oynayın. O vaxta qədər mən də yaxşı bir toyuq qızardım sizin üçün. Daha nahann da vaxtıdır.

- Çox sağ ol! Başqa bir vaxt! Sən işindən qalma!

Mahmuddan aralanıb yollanna düzəldilər. Həmin həyətlə üzbəüz həyətin darvazası qarşısında on-on iki yaşlı, sarışın bir qız uşağı dayanmışdı. Əynində əzik-üzük, köhnə don olan, saçları səliqəsiz halda çiyinlərinə dağılmış bu qız sonsuz maraq və yaşma yaraşmayan bir kədərlə yad adamlara baxırdı...

Onlar həyətə girəndə tanımadıqları bir nəfər evin qarşısına qoyulmuş uzun stolun arxasında oturub, Mehdixan kişi ilə çay içirdi. Bu, Mahmudun evi ilə üzbəüz evdə yaşayan Əhliman



downloaded from KitabYurdu.org

idi. Qırxa yaxın yaşı olardı. Boylu-buxunlu, enlikürək, qara bığları sifətinə xüsusi zəhm verən bir kişi idi. İxtisasca zootexnik olsa da, indi meşədən ağac kəsib satmaqla, mal-qara saxlamaqla məşğul olan bu adam bir gün də işsiz dayana bilmirdi. Əlləri elə iri idi ki, armudu stəkan barmaqlan arasında oyuncaq kimi görünürdü.

Nemətgil salam verib stolun arxasına keçdilər. Mahir o saat stolun üstündəki şahmat taxtasını açıb Qasımlı ilə özünün qarşısına qoydu və fiqurları düzməyə başladı.

Ev sahibi geriyə qanrılıb gəlinini səslədi:

- Ay qız, çay gətir!

Sonra isə üzünü Əhlimana tutub soruşdu:

- Bir əməlli başa sal görüm, Səfayə evdən nə vaxt çıxıb? Niyə gedib evdən?

Əhliman yad qonaqlara ani nəzər salıb başını yellədi və danışmağa başladı:

- Dünən, yəni, ayın 18-də səhər tezdən evdən çıxıb. Həyətdən necə çıxmağını görməmişəm. Xəbərim olmayıb. Ancaq Sabirdən öyrənmişəm ki, kənddən onun maşını ilə çıxıb. Sabir ondan soruşub ki, bu gün qayıdacaqsan? Deyib ki, yox! Axşam evə qayıtmadığı üçün, bu gün səhər tezdən durub şəhərə getdim. Atasıgildən soruşdum. Dedilər ki, günortaya kimi onlarda olub. Deyib ki, geri qayıtmayacam. Atası, guya



downloaded from KitabYurdu.org

ona acıqlanıb, nəsihət verib. Səfayə də atasının evindən küsüb çıxıb. Haraya getdiyini

bilməyiblər. Bakıya - qardaşıgilə zəng vurdular. Oraya da getməyib.

Mehdixan kişi başını buladı:

- Ay oğul, bircə ay bundan qabaq barışdırmışam sizi. Onda da küsüb getmişdi. Axı söz verdin ki, daha yola gedəcəksiniz. Uşaq deyilsiz axı?! Gül kimi balalarınız var. Yenə neyləmisən ki, bu bədbəxt qız başını götürüb gedib?

Nuridə gəlib qonaqlar üçün çay süzdü. Əhlimana da təklif edəndə o, əli ilə stəkanı qapadı.

- Bəsdi, bacı, çox sağ olun, içmirəm, - dedi və üzünü yenə ev sahibinə tutdu:

- Mehdixan dayı, sənə qurban olum, sən özün bilirsən ki, mən zəhmətkeş adamam. Bir dəqiqə bekar dayanmıram. Allah sənin də köməyin olsun, imkan yaratmısan, göz yumursan, meşədən ağac kəsib satıram. Üstəlik, həyətdə-bacada işləyirəm, evi dolandırıram.

- Bunlar hamısı doğrudur. - İcra nümayəndəsi Əhlimanın sözlərini təsdiq etdi. - Ancaq söhbət dolanmaqdan, mehribançılıqdan gedir. Olmaz ki, bir-birinizi başa düşəsiniz?

- Ağsaqqal, başına dönüm, məgər mən istəmirəm bunu? - Əhliman əlini sinəsinə vurdu. - Mən də insanam. Ancaq, qulaq



downloaded from KitabYurdu.org

as, gör nəyin üstündə küsüb gedib! Srağagün mal növbəm idi. Axşamüstü növbədən qayıdanda görürəm ki, həyətdə paltar yuyur. Yemək istəyəndə dedi ki, işim çox olub, yemək hazırlamamışam. Bu saat hazırlayaram, deyir. Mən də neyləyim, ac, həm də yorğun vəziyyətdə idim. Dözmədim, hirslənib bunu söydüm. Bir də, bir şillə vurdum. İndi, özün de, bundan ötəri qadın öz evini-eşiyini atıb gedər?

Mehdixan kişi alnını ovuşdurub bir qədər fikrə getdi və nəhayət dilləndi:

- Bəs bu qız atasıgildən çıxandan sonra haraya getmiş olar?

Əhliman əsəbi halda başını yellədi:

- Nə bilim, vallah, ürəyimə yüz cür şey gəlir... Ona görə də indi şəhərdən qayıdan kimi sənin yanma gəldim ki, bir məsləhət verəsən.

Necə bilirsən, bunu polisə bildirmək lazımdır, yoxsa yox? Doğrusu, mən el içində biabır olmaqdan qorxuram. Hərə bir söz deyəcək...

- Heç kəs artıq-əskik söz deyə bilməz. Kənd camaatı bilir ki, Səfayə ağıllı, həm də qeyrətli qadındır. Ancaq sən Əhliman onunla dolana bilmədin ki, bilmədin!

- Eh, ay Mehdixan dayı, bəsdi, sən Allah! - Əhliman əlini yellədi. - Bu zalım qızında qabiliyyət deyilən bir şey yoxdu axı!? O qədər asta iş görür, o qədər vasvasılıq eləyir ki, hirsdən



downloaded from KitabYurdu.org

bağnm çatlayır. Axı mən də insanam!? Nə qədər dözmək olar?!

Mehdixan kişi çiynini çəkib dinmədi. Başını çevirib qonaqlarına baxdı. Qasımlı ilə Mahir şahmat oynayır, Nemət isə diqqətlə onlara tamaşa edirdi. Deyəsən, Mahir çətin vəziyyətdə qalmışdı. Polkovnik əlini çənəsinə dayaq verib səbirlə rəqibinin gedişini gözləyirdi. Bu vaxt Elməddin də gəlib çıxdı və Dilbər xala ilə Nuridə süfrəyə yemək gətirdilər. Əhliman ayağa qalxdı. Onun getmək istədiyini görən ev sahibi səmimi təəccüblə dilləndi:

- Niyə qalxdın? Otur bizimlə çörək ye! Bunlar da Nemətin dostlarıdır, özgə deyillər.

- Yox, sağ ol, Mehdixan dayı, getsəm yaxşıdır! Evdən-eşikdən nigaranam. Maşından düşən kimi buraya gəlmişəm. Yaxşı, indi nə məsləhət görürsən?

- Nə məsləhət görəcəm?.. Sahə müvəkkilinə deyərəm, maraqlanar. Ancaq sən özün də axtar! Gör daha kimin evinə gedə bilər şəhərdə?

- Yaxşı, sağ olun, mən getdim! - Əhliman həyətdən çıxdı.

Qonaqlar ev sahibinin təklifi ilə şahmat taxtasını stolun kənarına sürüşdürüb nahara başladılar.

- Nə olub? Arvadı evdən qaçıb bunun? - Mahir bozbaş dolu qabı qabağına çəkib soruşdu.



downloaded from KitabYurdu.org

- Hə! - Mehdixan kişi cavab verdi. - Arvad yazıq neyləsin?! Onunla adam kimi rəftar eləmirdi bu Əhliman. Neçə dəfə bunların məsələsinə qarışmalı olmuşam.

- Siz, yəni, belə işlərə də baxırsınız?

- Bəs necə? Kənddə ən xırda hadisəyə də cavabdehik biz.

- Maraqlı işdir!.. - Mahir başını bulayıb yeməyə girişdi.

Səfayə rayon mərkəzində anadan olmuşdu. Atası Zəlimxan qəssab idi. Xüsusi müştərilərindən qoyun-quzu alıb kəsir, ətini Bakıya göndərirdi. Özünə yaxşı ev-eşik düzəltmişdi. Heç nədən korluğu yox idi. Həm də, çox tünd xasiyyəti var idi Zəlimxanın. İstər ailədə, istər məhəllədə sözünün qabağına söz gətirməzdilər. Oğlu Allahyar da dəlisovluqda ona çəkmişdi. Əsgərlikdən gələn kimi birini bıçaqla ağır yaralayıb türməyə düşmüşdü. Türmədən çıxandan sonra evlənib Bakıda qalmışdı. İndi, deyilənə görə, alverlə məşğul olur, özü də pis yaşamırdı.

Zəlimxanın arvadı Bikəxanım mülayim qadın idi. Bir az da dilavərliyi var idi. Ərinin şıltaqlığına, zəhminə, onun yerində başqa qadın olsaydı, dözə bilməzdi. Ancaq Bikəxanım dözümlü idi. Xüsusilə də ərinin əsəbi vaxtlarında onun heç bir sözünə etiraz etmir, hər bir əmrinə tabe olurdu.

Zəlimxan kişi Əhlimanın atası ilə əsgərlikdə eyni hərbi hissədə xidmət etmişdi. O vaxtdan əlaqələrini üzməmişdilər.



downloaded from KitabYurdu.org

Əhlimanın atası şəhərə - bazarlığa gələndə Zəlimxangilin qonağı olurdu.

Səfayəni də beləcə görüb bəyənmiş və oğluna istəmişdi.

Səfayə o vaxt arıq, ancaq həm də qəşəng, utancaq bir qız idi. Sarışın saçları ağ üzünə, mavi gözlərinə yaraşırdı. On birinci sinfi bitirmiş, sənədlərini ali məktəbə təqdim etsə də qəbul oluna bilməmişdi. Buna baxmayaraq, həvəsdən düşməyib növbəti ilin qəbuluna hazırlaşırdı.

Atasının onu Əhlimana verməyə razılaşdığını biləndə, gizlicə xeyli göz yaşı tökdü Səfayə... Ürəyini əvvəlcə sevimli nənəsinə, sonra isə anasına açıb ərə getmək istəmədiyini bildirdi. Ağlaya-ağlaya dedi ki, ən böyük arzusu olub ali məktəbdə oxumaq. Dedi ki, qara xətt çəkməsinlər bu arzusunun üstündən.

Ancaq qonşunun Səfayə ilə həmyaşıd qızı artıq nişanlanmışdı və Bikəxanımm canına qorxu düşmüşdü: «Birdən qız evdə qalar, alan olmaz. Çölə-bayıra çıxan da deyil ki, bir görən, bəyənən olsun». Qızını dilə tutmağa başladı:

- Qızım, Əhliman pis oğlan deyil, maşallah, boy-buxun, yaraşıq, hamısı var onda. Həm də zirəkdir, bacarıqlıdır... Atanın xasiyyətini də ki, özün yaxşı bilirsən. Sözünün qabağında söz demək mümkün deyil. Ağıllı ol, sözə bax! İnstitutu əlindən alan yoxdu ki?! Yenə oxuyarsan...



downloaded from KitabYurdu.org

Axır ki, Səfayəni yola gətirib Əhlimana nişanladılar və üç-dörd ay keçməmiş kəndə gəlin gətirdilər. İndi iki uşağı da var idi. Oğlu Cavid kənddəki orta məktəbin doqquzuncu, qızı Təhminə altıncı sinfində oxuyurdu.

Ali məktəbə qəbul məsələsi çoxdan yaddan çıxmışdı. Səfayə, istər-istəməz, kəndə bağlanmış, kənd işlərini özünəməxsus tərzdə mənimsəmişdi. Kənd qızları qədər zirəkliyi olmasa da, öhdəsinə düşən işləri görür, bacardığı qədər ərinin və uşaqlarının qulluğunda durmağa çalışırdı.

Mülayim xasiyyətli, ürəyiaçıq, dedi-qodunu, söz gəzdirməyi sevməyən, paxıllıq nə olduğunu bilməyən Səfayə kənd camaatının sevimlisinə çevrilmişdi. Bulağa gedəndə qız-gəlin çəkilib qabını doldurmaq üçün ona yol verir, işi tələsik olanda gətirdiyi pal-paltarı əlindən alıb

yuyurdular. Qadınlar bacarmadığı işlərdə ona məsləhət verir, kömək əllərini uzadırdılar.

Ancaq, xasiyyəti ağır olan, qızğın təbiətli Əhliman onun astagəl hərəkətlərini, başqaları kimi deyib-gülə bilmədiyini, həddindən artıq utancaqlığını və nəhayət, yataqda soyuqluğunu bəyənmirdi. Elə buna görə də hərdən aralarında ciddi münaqişələr olurdu. Münaqişə deyəndə ki, Əhliman onu döyüb-söysə də səsini çıxarmırdı. Əlləri ilə üzünü tutur, sonra gözləri dolmuş vəziyyətdə hansısa məchul bir nöqtəyə baxıb susurdu. Sanki həmişə gözləri yol çəkirdi.



downloaded from KitabYurdu.org

Bir sevdiyi mahnı var idi: «Sarı gəlin». Bu mahnı elə bil onun öz mahnısı idi. Elə bil onun üçün yazılmışdı. On birinci sinifdə oxuyanda bir

dəfə ən sevimli müəllimi olan yaşlı qadın ona baxıb birdən zarafatla: «Nənən ölsün sənin, sarı gəlin!» - dedi. O sözdən sonra doğmalaşdı bu mahnı ona, ya eləcə ürəyinə yatmışdı xalq mahnısının ürəkdən gələn sözləri, musiqisi?.. Ondan sonra, özü istəsə də, istəməsə də, ən qəmli, ən çarəsiz vaxtlarında bu mahnı onun beynindəmi, qəlbindəmi səslənirdi.

... Nənən ölsün sənin, sarı gəlin!

Ürəyindəkiləri heç vaxt, heç kimə aça bilmirdi. Heç canından çox sevdiyi uşaqlanna da! Bəlkə də qızı bir az böyüyəndən sonra onunda dərdləşəcəkdi. Bəlkə də... Söz vermişdi ki, Təhminə böyüyəndə kimi sevsə, kimi bəyənsə ona da ərə verəcək. Bəs özünün necə?.. Sevdiyi, bəyəndiyi bir oğlan olmuşdumu Səfayənin? Yox, onu soruşmasanız yaxşıdır. Elə şeyi deməzlər! Səfayənin əri, uşaqları var. Əvvəllər sevdiyi olubsa da, yəqin bu sevgi uşaqlıq sevgisi olub. Olub və qurtarıb gedib... Amma...

Səni mənə verməzlər,

Ay nənən ölsün, san gəlin...

Mahnının bu yerində nə qədər istəsə də ağlamağını saxlaya bilmirdi. Elə bil, illərin dərdi, acısı, zəhəri qaynar göz



downloaded from KitabYurdu.org

yaşlarına çevrilib gözlərindən tökülürdü. Ancaq səsini çıxarmırdı. Tez də unutmağa çalışırdı hər şeyi. Başını işlə qarışdırırdı. İş də ki, çox idi. İşləyən üçün səhərdən axşama kimi iş tapılır kənd yerində.

Özünün istiqanlı, naz-qəmzəli olmadığını bildiyi üçün Əhlimana yazığı gəlirdi. Bilirdi ki, Əhliman nə istəyir, nə cür arvad arzulayır. Ancaq o deyən kimi ola bilmirdi ki, bilmirdi.

Dözümünün son həddində bir-iki dəfə evdən baş götürüb atasıgilə getmişdi. Hər dəfə atası onu geri qaytarmışdı. Zəlimxan kişi qadının öz evindən küsüb getməsinə çox pis baxırdı. Elə anası da. Deyirdi, qızım, dözməlisən, evdə söz-söhbət olar. Bir vaxt hamısı unudulub gedəcək. Qayıt get, qardaşın da darqursaqdı, bilsə söhbət böyüyər, yaxşı düşməz.

Ancaq, bir dəfə Allahyar bildi məsələni. Bildi və Əhlimana xəbər göndərdi ki, özünü yığışdırsın. Əhliman da qabaqdan çəkilən deyildi.

O da xəbər göndərdi ki, Allahyar onun ailə işinə qarışmasın. Beləliklə, onlann arasında soyuqluq yaranmışdı.

Səfayənin evdən küsüb getdiyi vaxtlarda Əhliman da səbirsizlik və kobudluq etməsinə peşman olur, Səfayəni geri qaytarmağa çalışırdı. Əhliman hərdən fikirləşəndə görürdü ki, bu sarışın saçlı, kövrək, incə dodaqları ağ sifətinə gözəllik verən qadına öyrəşib. Ancaq nə idi onların normal münasibətlərinə mane olan? Əhliman bunu heç cür



downloaded from KitabYurdu.org

dəqiqləşdirə bilmirdi. Bir az da uşaqlar onları bir-birlərinə bağlamışdı. Evin böyük uşağı olan Cavid anasını çox sevirdi. Lap çox! Elə Təhminə də! Ancaq o, atasını daha çox istəyirdi.

Səfayə bütün analar kimi uşaqlarını sevsə də, bunu üzə vura bilmirdi. Xasiyyəti belə idi... Həmin gün, səhər tezdən evdən çıxanda da uşaqların çarpayısına yaxınlaşmış, heç nədən xəbərləri olmadan şirin-şirin yatan ciyərparalannm üzündən öpüb ağlamışdı.

Hər gün şəhərə sərnişin aparıb-gətirməklə məşğul olan Sabirin UAZ-ı kənddən çox ertə çıxırdı. Çünki bazara bostan məhsulları aparanlar oraya vaxtında çatmalı idilər. Şəhərə getmək istəyən, gərək səhər alaqaranlıqda duraydı. Səfayə, onsuz da, səhərlər yuxudan tez ayılırdı. Uşaqlar isə bu vaxt hələ yuxuda olurdu. O, ərinin tövlədə olmasından istifadə edib həyətdən çıxmışdı. Özü ilə bir dəst paltardan və

uşaqların foto-şəklindən başqa heç nə gö¬türməmişdi. Hətta nişanlı vaxtı oğlan evinin almış olduğu qızıl bəzək əşyalarını da evdə qoymuşdu. Bu dəfə fikri qəti idi! Qayıtmayacaqdı!

Qonaqlar nahardan sonrakı vaxtlarını həyətin aşağısmdakı iri heyva ağacının kölgəsində keçirdilər. Qanbay Qasımlı ilə Mahir əsasən şahmat oynamaqla məşğul idilər. Şahmata onlardan heç də az marağı olmayan Nemət isə oyuna tamaşa etməklə kifayətlənməli olmuşdu. Rəqibinə bir dəfə də qalib gələ bilməmiş Mahir getdikcə həvəslənir, Qasımlım



downloaded from KitabYurdu.org

heç olmazsa, bir dəfə mat vəziyyətinə salmağa çalışırdı.

Şam süfrəsi yenə evin qarşısındakı stolda açılmışdı. Yemək qurtarıb, süfrə yığışdırılsa da kişilər yenə stolun arxasından durmamışdılar. Onlar söhbət edir, hərdən Nuridənin, ya Fədayə müəllimənin dəmləyib gətirdiyi çaydan içirdilər.

Kəndin işıqları hələ günortadan bir az keçmiş sönmüşdü. Mehdixan kişi bildirdi ki, qonşu kənddə əsas transformator təmir olunur, ona görə də işıqlar bir də sabah axşam yana bilər.

Saatın ıo olmağına az qalmışdı. Artıq yarım saatdan çox idi ki, kəndə qaranlıq çökmüşdü. Axşamlar həyətə düşən gur elektrik işığının əvəzinə, indi stolun üstünə neft lampası qoyulmuşdu ki, o da ancaq süfrəyə və onun yaxın ətrafına işıq sala bilirdi. Mahir Talıbov yenə, adəti üzrə, başına gələn əhvalatlardan danışırdı. Nemət, Elməddin və Mehdixan kişi ona maraqla qulaq asırdılar.

Qanbay Qasımlı ayağa qalxıb stoldan aralandı. Həyətin aşağısına doğru bir neçə addım atıb dayandı. Ətrafda göz-gözü görmürdü. Başını qaldırıb səmaya baxdı. Ay bir topa qara buludun arxasında gizlənmişdi. Səmanın açıq hissələrində ulduzlar sayrışırdı. Bir ulduz qəflətən uzun bir qövs cızaraq yox oldu. Bu, Qasımlının gözündən yayınmadı. Nəzərlərini səmadan çəkib həyətin aşağı tərəfinə baxdı. Gözləri qaranlığa alışdığı üçün bu dəfə heyva ağacını ayıra bildi. Ağac



downloaded from KitabYurdu.org

həmin gündüzkü ağac idi. Ancaq qaranlıqda başqa cür görünürdü...

Qollarını sinəsində çarpazlayıb fikrə getdi. Nemətin xahişi ilə kəndə bir həftəliyə dincəlməyə gələn polkovnik Qasımlı özünü dünyadan ayrı düşmüş kimi hiss edirdi. Kəndin sakitliyində və təmiz havasında, uzaqdan Bakı ona daha qaynar, daha müdhiş görünürdü.

Amma daha qaynar və çətin günlər Moskvada keçmişdi. Bakıda doğulan Qanbay Qasımlı hərbi xidmətini orada başa vurmuş, elə o zaman da milis işinə qəbul olunmuşdu.

Ömrünün on beş ilindən çoxu Rusiyanın baş cinayət-axtarış idarəsində çox çətin vəzifələrdə keçmişdi. Yüksək məntiqi düşüncə qabiliyyəti, sonsuz cəsarəti, inanılmaz dözümlülüyü, qeyri- adi sərrast atıcılığı ilə şöhrət qazanmış Qasımlı polkovnik rütbəsinə qədər yüksələndən sonra istefaya çıxıb Vətəninə qayıtmışdı.

Bakıya qayıtmağından bir ildən çox keçməyinə baxmayaraq, şəhərin həyatına hələ tam uyğunlaşa bilməmişdi. Bu, danışığında da hiss olunurdu. Danışanda rus sözləri işlətməmək üçün, bəzən, düşünməli olurdu. İkiotaqlı mənzilində tək yaşayırdı. Ancaq qonşusu Nemətlə yaxın münasibəti var idi. Onun təklifi ilə üç-dörd ay əvvəl Nuranə adlı gənc bir qadını ev qulluqçusu götürmüşdü. Qulluqçu



downloaded from KitabYurdu.org

deyəndə ki, gündə iki dəfə gəlib xörəyini bişirirdi, vəssalam. Qasımlınm, ümumiyyətlə, heç kəsi yox idi.

Uşaqlıqdan valideynlərini itirib tək qaldığı üçün təkliyə öyrəşmişdi.

Moskva xatirələrində çox acınacaqlı və dəhşətli bir səhnə var idi. Qasımlı həmişə bu səhnəyə baxmaqdan qaçırdı. Ancaq indi, özündən asılı olmayaraq, xatirələr bir neçə saniyə olsa da, onu həmin səhnəyə baxmağa məcbur etdi. Cəmi bir-neçə saniyə Moskvadakı mənzilinin döşəməsində qan içində uzanmış həyat yoldaşını və körpə qızını gördü. Əsəbləri dəmirdən möhkəm olan Qasımlım ancaq bu səhnəyə baxmaq sındıra bilərdi və bunu bilən polkovnik yenə də həmin dəhşətli görüntünü xəyalından uzaqlaşdıra bildi. Lakin istər-istəməz, ailəsinin qatili Sergey Babayam ifşa edib güllələməyi yadına düşdü. Qulağına sanki dalbadal altı güllə səsi gəldi.

Özünü məcbur etdi ki, qara buludlann arxasında gizlənmiş, işığı ancaq buludun yanqlanndan süzülən Ayın hərəkətini izləsin. O buna asanlıqla nail oldu və tez də düşündü ki, Ayın hərəkətini izləmək onun yox, astronomlann işidir. O isə ömrü boyu yolundan çıxmış adamlan izləməklə məşğul olmuşdu. Ay öz yolu ilə gedirdi və heç kəsin həyatına mane olmaq fikrində deyildi...

Onu xəyaldan Nemətin səsi ayırdı:

- Qanbay müəllim, təzə çay dəmləyiblər, gəlin, siz də için!



downloaded from KitabYurdu.org

Qasımlı geri çevrildi. Stol arxasında oturanların kölgələri hasarda və evin divarında oynaşırdı. Evin ikinci mərtəbəsində də lampa yandırmışdılar. Həyətə baxan pəncərələrin birində Mehdixan kişinin uca kölgəsi görünürdü. Qasımlı ağır-ağır stola tərəf addımladı.

Səhəri gün bütün kənd camaatı kimi, Mehdixan kişinin qonaqları üçün də bəd xəbərlə açıldı. Təzəcə oturub səhər yeməyinə başlamaq istəyirdilər ki, bir gənc darvazanı açıb hövlnak həyətə girdi. Bu Qiyas müəllim idi. Kəndin məktəbində idman müəllimi işləyirdi. Mahmudun evi ilə yanaşı evdə yaşayırdı. Çəpər qonşusu idilər.

Qiyas müəllimin üzünün rəngi ağarmışdı. Qonaqları görüb duruxdu. Mehdixan kişi ayağa qalxdı:

- Nə olub, ay Qiyas?

- Mehdixan dayı!.. - Qiyas müəllim dodaqlarını yalayıb birtəhər sözünün dalmı gətirdi: - Mahmudu öldürüblər!

- Necə yəni öldürüblər, ay bala?! Kim öldürüb? - Mehdixan kişinin səsi titrəyirdi.

- Bilmirəm... - Qiyas qonaqların üzünə göz gəzdirib yenə kəndin rəhbərinə baxdı. - Direktor məni göndərdi ki, get Mahmuda de, məktəbə gəlsin. İş tapşıracaqdı ona... Həyətə girib səslədim, cavab vermədi. Çıxdım evə... - danışa bilmədiyi üçün bir-neçə dəfə udqunub davam etdi: - Gördüm



downloaded from KitabYurdu.org

ağzı üstə otağın döşəməsinə sərilib. Döşəmədə də laxtalanmış qan gölməçəsi!.. Birinci buraya gəldim ki, sizə xəbər verim.

İcra nümayəndəsi deməyə söz tapmayıb, Qiyasın üzünə baxırdı. Həyat təcrübəsinin çox olmağına baxmayaraq, qəfil xəbərdən özünü itirmişdi. Mahmudu niyə öldürüblər? O kimə nə pislik etmişdi ki? Bu nə işdir düşdük?.. Kimin işi ola bilər bu? Suallar onun beynində sürətlə bir- birini əvəz edirdi.

- Gedək, baxaq! - deyə Mahir təklif etdi.

- Məncə, ehtiyac yoxdur. - Qasımlı narazı halda başını buladı.

- Xahiş edirəm! - kapitan əl çəkmədi.

- Yaxşı... - polkovnik könülsüz razılaşdı.

Qasımlı, Nemət, Mahir Qiyasla birlikdə darvazaya tərəf getdilər. Elməddin də onlara qoşuldu.

- Siz gedin, mən də polisə zəng vurub, gəlirəm! - İcra nümayəndəsi onlann arxasınca səsləndi.

Həyətə bir neçə adam yığışmışdı. Onların gözlərində qorxu, həyəcan və kədər var idi. Sanki, evə girməyə cəsarət etmirdilər. Gələnləri görüb onlara maraqla baxmağa başladılar.

Qanbay Qasımlı beş pillədən ibarət pilləkənlə qalxıb evə girdi. Dəhlizi keçib, qapısı açıq olan otağa daxil oldu. Mahir və Nemət onun arxasınca gəlirdilər. Mahmudun meyiti otağın



downloaded from KitabYurdu.org

qapısı ağzmdaca yerə sərilmişdi. Qanı çəkilmiş sifətinin sol tərəfi aydın görünürdü. Bərəlmiş gözləri elə bil Qasımlmm ayaqqabılarına zillənmişdi. Təcrübəli ekspert əyilib onun yarasına baxdı. Bıçaq zərbəsi kürəyə sol tərəfdən, ürək nahiyəsindən endirilmişdi.

Qasımlı qalxıb, otağa göz gəzdirdi. Ağ pərdə ilə örtülmüş yeganə pəncərəsi küçəyə baxan bu otaq çox da böyük deyildi. Burada bir çarpayı, iki stul və bir orta böyüklükdə stol var idi. Stol pəncərəyə, demək olar ki, bitişdirilmişdi. Onun üstündə, pəncərənin qarşısına qoyulmuş neft lampası hələ yanırdı. Ancaq, bütün gecəni yandığı üçün alov öləzimişdi. Yəqin ki, neft qurtarmaq üzrə idi. Stolun üstündə yarımçıq

araq şüşəsi, bir kiçik araq stəkanı, yarıdan çoxu yeyilmiş bir turşuya qoyulmuş xiyar, külqabı və siqaret qutusu var idi. Külqabı siqaret kötükləri ilə dolu idi.

Heç kəs danışmırdı. Üzücü sükutu birinci Mahir pozdu. O, qan gölməçəsinə işarə edib dedi:

- Axşam öldürüblər. Hələ heç yerinə girməyibmiş. Görürsünüz, çarpayıda yatağı açılmayıb. Ancaq, lampanın yanmağı onu göstərir ki, hadisə hava qaralandan sonra olub...

Kapitan Talıbov danışığına ara verdi. Ona təkcə Nemətin qulaq asdığını görüb, üzünü ona tutdu:

- Deməli, saat doqquz ilə on bir arasında!



downloaded from KitabYurdu.org

Qasımlı otağa bir daha nəzər yetirib dəhlizə çıxdı. Dəhlizin bir tərəfi həm də mətbəx rolunu oynayırdı. Qab-qacaq yuyulub öz yerinə - şkafa yığılmışdı. Ümumiyyətlə, dəhlizdə də, otaqda da səliqə-sahman hökm sürürdü. Polkovnik o biri otağın qapısını itələdi. Qapı bağlı idi...

Həyətə düşdülər. Qiyas, Elməddin və kəndin daha bir-neçə sakini evin qabağında dayanmışdı. Onlar on beş yaşlı bir oğlanı dövrəyə almışdılar. Oğlan nəsə danışırdı. Evdən çıxan yad adamlan görüb söhbətini kəsdi. Elməddin üzünü onlara çevirib dedi:

- Cavid Əhlimanın oğludur. Dünən nahar vaxtı bizim həyətdə gördüyünüz adamın. - Əli ilə küçənin o biri tərəfindəki ikimərtəbəli evi göstərdi. - Bu evdə yaşayırlar. Həmişə yaxın qonşu olublar. Deyir, dünən günortadan sonra Mahmud bizə gəlmişdi...

- Hə?.. Danış, görək?! - Mahir maraqlandı.

Cavid həyəcanlı olsa da, özünü ələ alıb,

təzədən danışmağa başladı:

- Dünən atam şəhərdən gələndən sonra nahar edib, həyətin aşağısına, tövləni təmizləməyə getdi. Bir azdan Mahmud əmi əlləri, üst-başı bulaşıq halda darvazadan girdi. Atamı soruşdu. Sonra da iri çəkicimizi istədi. Dedim ki, çəkic tövlənin yanında olmalıdı. Atam özü orada¬dı. Mahmud əmi tövləyə



downloaded from KitabYurdu.org

getdi. Sonra əlində çəkic, atamla birlikdə qayıtdı. Atam onu ötürüb yenə

tövləni təmizləməyə getdi. Sonra, daha Mahmud əmini görməmişəm.

- Bu saat neçədə olub? - yenə Mahir soruşdu.

Söhbət, deyəsən, Qasımlı üçün maraqlı deyildi. O, iti nəzərlərlə həyətə göz gəzdirirdi.

- İkinin yarısı olardı... - Cavid suala cavab verdi. - Sabirin maşını həmişə saat birdə gəlir. Atam da şəhərdən gələn kimi tələsik nahar edib tövləni təmizləməyə getdi.

- İkinin yarısında yox! - Qasımlı söhbətə qarışdı. - İki, ya da üçə işləmiş... Dünən sənin atan saat ikinin yarısında Elməddingildən çıxdı.

- Ola bilər... - Cavid tanımadığı adama maraqla baxdı.

Bu vaxt Mehdixan kişi həyətə girdi. Həyətdəki adamlara göz gəzdirib, heç bir söz demədən evə çıxdı və az keçmiş yenə də geri qayıtdı. Gəlib qonaqlarının yanında dayandı.

- Zəng elədin? - Elməddin atasından soruşdu.

- Hə! Gələcəklər... - İcra nümayəndəsi dilxor halda dilləndi.

Qanbay Qasımlı adamlardan aralanıb bir daha həyətə göz gəzdirməyə başladı. Mahirlə Nemət də ona yaxınlaşdılar.



downloaded from KitabYurdu.org

Qasımlı yarımçıq qalmış hamam tikintisinə baxırdı. Hamamın divarları mişar daşından yeddi sıra çəkilmişdi. İri dəmir təknədə hazırlanmış sement palçığı quruyub xarab olmuşdu.

Çox fikirli görünən xəfiyyə əyilib əlini qurumuş məhlula vurdu. Sonra dikəlib kənara çəkildi. Mahir də, Nemət də ona mane olmamaq üçün susurdular. Ancaq yenə Mahir dözməyib öz fikrini bildirdi:

- Mənə belə gəlir ki, dünən saat üçdən sonra Mahmudun qonağı olub...

Qasımlı onu diqqətlə süzüb qeyri-müəyyən cavab verdi:

- Sizi başa düşürəm... Ancaq...

Tövlə tərəfdən qoyun mələrtisi gəldi.

- Ağayar haradadı bəs? - Mehdixan kişinin gur səsi eşidildi.

- Yəqin, xəbəri yoxdu hələ, - həyətdəki kişilərdən biri cavab verdi.

Nemətgil onlara yaxınlaşdı. Heç kəs danışmırdı. Baş vermiş hadisə o qədər qeyri- müəyyən, o qədər gözlənilməz idi ki, danışmağa elə bir söz də tapmırdılar. Hamı polisin gəlməsini gözləyirdi.

Mahir onu maraqlandıran suala cavab tapmaq üçün yenə də Cavidə müraciət etdi:



downloaded from KitabYurdu.org

- Dünən günortadan sonra buraya qonaq gəldiyini görməmisən?

- Yox... - Cavid çiynini çəkdi. - Görməmişəm... - Birdən nəsə xatırlayıbmış kimi cəld dilləndi: - Ancaq dünən gecə buraya bir maşın gəlmişdi!

- Bu gecə? - Mahir soruşdu.

- Yox, dünən gecə! Özü də... UAZ idi, deyəsən.

- Sən gördün maşını? - Mehdixan kişi söhbətə qoşuldu.

- Yox, mən yatmışdım, - Cavid cavab verdi. - Maşının səsinə ayıldım. Atam da səsə ayılıb həyətə çıxmışdı. Soruşdum, dedi ki, Mahmud əmingilə gəlmişdi.

- Kim olub gələn?

- Bilmirəm... - Cavid başını buladı.

Onun baxışlarında bir yazıqlıq, bir kövrəklik var idi. Anasının evdən getməsi onu əməlli-başlı sarsıtmışdı.

- Əhliman haradadı? - İcra nümayəndəsi soruşdu.

- Tezdən durub meşəyə gedib.

- Get, çağır, gəlsin! Həm də yasxana qurmaq lazım olacaq. - Mehdixan kişi uşağa tapşırdı və Cavid darvazadan çıxan kimi üzünü Elməddinə tutdu: - Sən də qonaqları apar, səhər yeməyini yesinlər. Acdırlar.



downloaded from KitabYurdu.org

- Hə, gedək! - Qasımlı astadan Nemətə dedi: - İndi polis şöbəsindən gələcəklər. Mən özümü tanıtmaq istəmirəm...

Ağayar hövlnak, həyətə girdi. Həyətə yığışmış adamların baxışları o saat onun üzünə dikildi. O, yerindəcə dayanıb bir-bir hamının üzünə göz gəzdirdi. Adamların kədərli və ciddi baxışları eşitdiyini təsdiq edirdi. Ancaq ölüm belə lal sakitlik yarada bilərdi. Ancaq ölüm kişilərin baxışlarındakı kədərə belə acizlik qata bilərdi. Bəli... ölüm qonaq gəlmişdi bu evə. O, Ağayara yaxşı tanış idi. Bundan əvvəl də iki dəfə bu evə gəlmişdi. Bir dəfə anasını, bir dəfə də atasını aparmağa. Ancaq onda belə qəfil, belə xəbərdarlıqsız gəlməmişdi zalım ölüm...

Ağayar xəbəri eşidən kimi qaça-qaça gəldiyi üçün boğulan adamlar kimi nəfəs alırdı. Gözləri, az qalırdı, yerindən çıxsın. Ətrafına nəzər salıb: - Haradadı? - deyə titrək səslə soruşdu. Qiyas müəllim əli ilə evi göstərdi. Ağayar qıçları əsə-əsə pillələri çıxıb evə girdi. Həmin an onun «Ay qardaş!» deyən qışqırıq səsi gəldi.

Sonra yenə ətrafa qəbir sükutu çökdü. İcra nümayəndəsi evə çıxıb Ağayan həyətə düşürdü.

- Sakit ol! Özünü ələ al! - deyə təskinlik verdi.

- Onu kim öldürüb?! - Ağayar yumruqlarını düyünləyib Mehdixan kişiyə baxdı.

- Bilinmir. Polisə zəng vurmuşam. Bu saat gələcəklər. Yəqin ki, taparlar öldürəni!



downloaded from KitabYurdu.org

Ağayar daha bir söz deməyib kənara çəkildi. Yarımçıq qalmış tikilinin yanında əlləri ilə başını tutub yerə çökdü. Bir az yerində qıvrılıb ayağa qalxdı. Əlləri ilə üzünü qapayıb, ayaqlarını yerə döyməyə başladı. Ancaq onun hərəkətlərindəki sünilik baxanların nəzərindən qaçmadı.

«Sağlığında heç hörmət qoymurdun!» - deyə düşünənlər də oldu.

Əlbəttə, Ağayarın böyük qardaşı ölmüşdü və o nə qədər daş ürəkli olsa da, buna yanmaya bilməzdi. Lakin nədənsə, o, həyətə yığılmış adamların gözü qarşısında qardaşının ölümünə daha ürəkdən yanan, hətta buna heç cür dözə bilməyən bir qardaşın rolunu oynamağa çalışırdı. Nəhayət, heç kəsin ona ürək-dirək vermək fikrində olmadığını görüb, bunun əbəs olduğunu başa düşdü. Başa düşdü ki, nə çəkirsə, içində çəkməlidir. Sakitləşib adamlara yaxınlaşdı və hamı kimi gözləməyə başladı.

Heç kəs nə qədər vaxt keçdiyinin fərqində deyildi. Hamı sakitcə yerində dayanmışdı.

Hərdən pıçıltı ilə danışırdılar. Buraya təzəcə gəlib-getmiş ölüm kabusundanmı qorxurdular, ya Mahmudun həyətdə dolaşan ruhunamı hörmət edirdilər?.. Bilmək çətin idi...

Mehdixan kişi maşın səsini eşidib küçəyə çıxdı. Polis şöbəsinə məxsus UAZ darvazanın qarşısında dayanan kimi rayon prokurorluğunun müstəntiqi Zeynalov, polis şöbəsində



downloaded from KitabYurdu.org

cinayət- axtarış bölməsinin rəisi işləyən mayor Telman Əmirəliyev və kəndin sahə müvəkkili Ağamurad maşından düşüb icra nümayəndəsi ilə görüşdülər və dərhal həyətə keçdilər.

- Nə məsələdir bu, ağsaqqal? - deyə orta boylu, qırx-qırx beş yaşlannda olan, üzü təmiz qırxılmış, saçları səliqə ilə yana daranmış, mədəni görkəmli Zeynalov Mehdixan kişidən soruşdu.

- Biz də heç nə bilmirik! - İcra nümayəndəsi əli ilə Qiyası göstərdi. - Bu müəllim ölənin qonşusudur. Səhər hadisəni birinci bilən o olub və mənə xəbər verib. Mən də dərhal şöbəyə zəng vurdum.

- Kimdir öldürülən?

- Adı Mahmuddur. Yaxşı bənna idi rəhmətlik. Özü də heç kəslə işi olan adam deyildi...

Evə çıxdılar. Dəhlizə göz gəzdirib hadisə baş verən otağa keçdilər. Bunun üçün qapının ağzına sərələnmiş meyitin üstündən ehtiyatla adlamağa məcbur oldular. Meyit öz yerində idi. Ona hələ əl

vurulmamışdı. Zeynalovla Əmirəliyev, hər ikisi əyilib meyiti müşahidə etdilər. Sonra qalxıb otağa nəzər yetirdilər. Müstəntiq stola yaxınlaşıb araq şüşəsinə, kiçik stəkana, yarımçıq duzlu xiyara fikir verdi. Neft lampasına baxıb asta-



downloaded from KitabYurdu.org

asta başını yellədi. Üfürüb lampanı söndürdü və Mehdixan kişiyə tərəf dönüb sual verdi:

- Bu adam tək yaşayırdı?

- Bəli. Hələ evlənməmişdi. Beş-altı ildir ata- anası rəhmətə gedib. Bacısı ərdədir. Kiçik qardaşı da evlənib ayrılıb.

Zeynalov bir də stola nəzər saldı:

- Mərhum içən idi?

- Yox! Təsadüfi hallarda, məclislərdə içərdi. Ancaq, ehtiyat üçün, evində həmişə araq olurdu.

Hərdən, mən də, qəfil qonağım gələndə, uşaq göndərib ondan borc araq almışam.

- Maraqlıdır! - möhkəm, dolu bədənli, boy- buxunlu mayor söhbətə qanşdı. - Hadisə gecə olub. Özü də mərhum hələ yerinə girməyibmiş.

Bu aydındır. Süfrədə şam yeməyinin heç bir əlaməti yoxdur. Əgər yeyib yığışdınbsa, bu araq və xiyar nədir? Hər halda, yoxlamaq lazımdır, görək arağı özü içibmi? Və bir də, şam yeməyi yeyibmi? Stəkan bir dənədir. Deməli, araq naməlum qonaqla içilməyib. Ya qonaq tək içib, ya da...

- Mən sizinlə şərikəm, - müstəntiq Zeynalov fikrini bildirdi. - Ekspertizada bunlar hamısı məlum olacaq. Meyiti şəhərə aparmaq üçün maşın gətirmək lazımdır.



downloaded from KitabYurdu.org

Mayor Əmirəliyev başı ilə onunla razılaşdığını bildirib üzünə zəhmli görkəm verən uzun bığlarını dalğın halda sığalladı. Bu vəziyyətdə bir müddət meyitə baxıb, nəhayət dilləndi:

- Qulaq as, Zeynalov, bunun bu şəkildə uzanması mənə bir az qəribə gəlir. Qapıdan bir metr içəridə, arxası qapıya tərəf, özü də zərbə arxadan vurulub...

- Anlamadım... - Zeynalov təəccüblə əməliyyat işində böyük təcrübəsi və nüfuzu olan pəhləvan cüssəli mayora baxdı.

- Qulaq as! - kobudluğu ilə də ad çıxarmış Əmirəliyev onun sözünü kəsdi. - Belə çıxır ki, bu adam qonağı ilə birlikdə ilk dəfə otağa girəndə arxadan vurulub. Bu isə şəxsən mənim ağlıma batmır. Çünki, adətən, içəri daxil olanda qonağı qabağa verirlər.

- Ağlabatan sözdür! - Sahə müvəkkili başını tərpətdi.

Mayor Əmirəliyev Ağamurada çəpəki nəzər salıb sözünə davam etdi:

- Hər halda, bunu aydınlaşdırmaq lazımdır ki, Mahmud nə üçün otağa birinci girib!?

Müstəntiq Zeynalov stolun üstündəki araq şüşəsinə işarə etdi:

- Telman müəllim, xahiş edirəm, unutmayın, qonaq, çox güman ki, otaqda olub. Mümkündür ki, otaqdan çıxanda geriyə çevrilib və Mahmudu vurub.



downloaded from KitabYurdu.org

- Onda siz də mənim bir sualıma cavab verin! - mayor istehza ilə dilləndi. - Bəs Mahmud özü niyə geriyə çevrilib? Axı, gördüyünüz kimi, zərbə arxadan vurulub!?

- Ola bilsin, qaçmaq, zərbədən yayınmaq istəyib... - Zeynalov inamsız halda fikrini bildirdi.

- Yox! - mayor etiraz etdi. - Qatil otaqdan çıxanda əlində bıçaq, qəflətən geriyə çevrilsəydi, Mahmud dalı-dalı geriyə çəkilərdi. Ona o saat arxasını çevirməzdi. Bu ağlabatan deyil. Ancaq, belə bir variant da ola bilər ki, onlar nəyə görəsə dəhlizə çıxıb, yenidən otağa qayıdıblar. Bax, onda Mahmud otağa birinci girə bilərdi.

- Etiraz etmirəm! - Zeynalov yavaş-yavaş dəhlizə çıxdı və sözünün ardını orada dedi: - Belə də ola bilər ki, onlar dəhlizdə mübahisə ediblər. Qatil bıçağı çıxaranda Mahmud otağa qaçıb və qatil də onun dalınca gedərək, arxadan zərbə endirib.

Mayor Əmirəliyev bığlarını sığallayıb heç nə demədi. Sahə müvəkkili Ağamurad Miriyev, müstəntiqin tapşırığı ilə, həyətə yığılmış adamlardan iki hal şahidi dəvət etdi. Protokol tərtib olundu. Stolun üstündəki əşyalar ekspertiza üçün götürüldü. Otaqda qatili ifşa edə bilən, başqa, hansısa bir izə rast gəlmədilər. Cinayətin əsas aləti olan bıçaq da yox idi...

Oğlundan qara xəbəri eşidən Əhliman özünü tələsik qonşusunun həyətinə çatdırmışdı. Böyük bir həyəcan və kədərlə adamların arasında dayanıb gözlərini evin açıq



downloaded from KitabYurdu.org

qapısına dikmişdi. Çox istəyirdi ki, Mahmudun meyitini gözləri ilə görsün. Ancaq Mehdixan kişi heç kəsi evə buraxmırdı.

Bütün kənd Əhlimanla Mahmudu yaxın qonşu kimi tanıyırdı. Xeyirdə-şərdə həmişə bir- birlərinə əl tuturdular. Boş vaxtlarını gah bunun, gah da onun evində nərd oynamaqla keçirirdilər. İndi hamı bilirdi ki, Mahmudun dəfninin də, yas

mərasiminin də bütün əziyyəti Əhlimanın çiyninə düşəcək. Ağayardan isə bunu gözləmək əbəs idi.

Mehdixan kişi Əhlimanı yanma çağırıb həyətə düşən müstəntiq və mayor Əmirəliyevə təqdim etdi. O bildirdi ki, Mahmud dünən günortadan bir az sonra Əhlimangilə gedib, ondan çəkic istəyib.

- Hə?.. - müstəntiq diqqətlə Əhlimanı süzdü. - Danış görüm!..

Əhliman da öz növbəsində əvvəlcə müstəntiqi, sonra isə yaxşı tanıdığı polis işçilərini baxışlan ilə süzüb danışmağa başladı:

- Dünən mən şəhərə getmişdim. Qaymatamgilə. Qayıdandan sonra nahar edib tövləni təmizləməyə düşdüm. Səhər qoyunları çölə uşaqlar buraxmışdılar. Ancaq tövləni təmizləməmişdilər. Bu vaxt Mahmud yanıma gəlib çəkic istədi. Mən çəkici verdim. Dedi, hamam tikirəm, işi qurtaran kimi çəkici qaytaracam. Dedim ki, nə vaxt istəsən, qaytararsan. Ondan sonra daha Mahmudu görməmişəm.



downloaded from KitabYurdu.org

- Bu, saat neçədə olub? - Zeynalov sual verdi.

- Üçə on beş-iyirmi dəqiqə işləmiş olardı...

- Bəs axşama kimi küçəyə çıxmamısan? - növbəti sualı Əmirəliyev verdi. - O, hamam tikirmiş axı?! Daş da küçəyə tökülüb.

- Çıxmışam. - Əhliman cavab verdi. Ancaq onu küçədə görməmişəm.

- Dünən onun qonağı olubmu?

- Bilmirəm...

Mayor hiss etdi ki, Əhliman nəsə bilir. Onun qolundan tutub yarımçıq tikilinin yanma apardı. Müstəntiq, sahə müvəkkili və Mehdixan kişi də onların arxasınca getdilər.

- Məni tanıyırsan? - Bölmə rəisi Əhlimanın gözlərinin içinə baxıb soruşdu.

- Tanıyıram! - Əhliman ciddi şəkildə cavab verdi.

- Kiməm?

- Telman müəllimsiz də!..

- Müəllim məktəbdə olur! - mayor istehza ilə dilləndi. - Mənə Əmirəliyev deyirlər. Məni aldadan, hələ indiyə kimi, anasından olmayıb.

Sən nəsə bilirsən! De görüm, dünən günortadan sonra buraya gələn adam görmüsənmi?



downloaded from KitabYurdu.org

- Mənimlə niyə belə danışırsınız? - Əhliman kəskin hərəkətlə qolunu dartıb mayorun əlindən çıxartdı. - Mahmud mənim ən yaxın qonşum olub. Dərdimiz-sərimiz bir olub bizim.

Onun danışığı mayor Əmirəliyevin xoşuna gəlmədi. Nəsə demək istəyirdi ki, Mehdixan kişi söhbətə qarışdı:

- Ay oğul, sən niyə belə darqursaq olursan? Rəis səndən söz soruşur. Bilirsənsə cavab ver, bilmirsənsə de ki, bilmirəm.

- Mən heç kəsin özünü görməmişəm. Ancaq kölgə görmüşəm... - Əhliman ağır-ağır dilləndi.

- Kölgə?! - müstəntiq təəccüblə sual verdi.

- Bəli...

- Harada görmüsən o kölgəni?

- Mahmudun evinin pəncərəsində, - Əhliman sakitləşib səbirlə danışmağa başladı: - Axşam saat ıo olardı. Evə çıxırdım. Pilləkənlərin başında bir anlıq dayanıb buraya baxdım. İşıqlar söndüyü üçün təkcə bir otağın pəncərəsindən neft lampasının işığı gəlirdi. Bu vaxt pəncərədə yad bir adamın kölgəsini gördüm...

- Nəyə görə deyirsən ki, o, yad adamın kölgəsi idi? Bəlkə Mahmudun öz kölgəsi olub? - Zeynalov soruşdu.



downloaded from KitabYurdu.org

- Yox, o yad adamın kölgəsi idi! - Əhliman qəti cavab verdi. - Arıq, uzun adamın kölgəsinə oxşayırdı. Sonrası da ki, arada bir anlıq Mahmudun da kölgəsini gördüm.

- Onlar nə edirdilər? - yenə müstəntiq sual verdi.

- Deyə bilmərəm. Həmin yad adam ayaq üstə durub danışırdı. Əl-qol hərəkətlərindən başa düşdüm.

- Sonra?

- Sonra... - Əhliman çiynini çəkdi. - Dönüb evə girdim.

- Heç nədən şübhələnmədin?

- Yox, sadəcə fikirləşdim ki, qonağı var. - Əhliman dedi və sonra isə özü sual verdi: - Onu gecə öldürüblər?

Müstəntiq başı ilə təsdiq edib növbəti sualını verdi:

- Ümumiyyətlə, bu işdə şübhələndiyin bir adam var?

- Yox! - Əhliman başını buladı. - Mən onu bu kənddə hamıdan yaxşı tanıyırdım. Heç bir düşməni-zadı yox idi onun.

Bu vaxt Mehdixan kişi söhbətə qarışdı:

- Bir gün əvvəl, gecə buraya bir maşın gəlibmiş. Əhlimanın oğlu danışdı.

Müstəntiq və mayor Əmirəliyev sualedici nəzərlərlə Əhlimana baxdılar.



downloaded from KitabYurdu.org

- Hə... - Əhliman danışmağa başladı. - Gecə saat 12 olardı. Yatağıma girmişdim. Amma hələ yatmamışdım. Bir az narahat idim. Ona görə də maşın səsi eşidən kimi geyinib pilləkənin başına çıxdım. Maşın «UAZ» idi. Mahmudgilə gəlmişdi. Qapı açılıb örtüldü. Kimsə maşından düşdü. Mən içəri girdim. Az keçmiş, maşın yola düşüb getdi. Maşın gələndə Mahmud hələ yatmamışdı, evin işıqları yanırdı.

- Maşını tanıdın? Kimin maşını idi? - Bölmə rəisi soruşdu.

- Yox, tanımadım!

- Sən nə üçün narahat idin? - müstəntiq qəfil sual verdi.

Əhliman ətrafına boylandı:

- Həyat yoldaşım küsüb şəhərə - atasıgilə getmişdi. Qayıtmadığına görə narahat idim.

Bu zaman icra nümayəndəsi söhbətə qarışmağı lazım bildi:

- Gəlin, gedək bizim həyətdə həm çay için, həm də söhbətinizi davam etdirin.

Müstəntiq razılaşdı. Elə oldu ki, həmin vaxt xəstəxana maşını da gəlib çıxdı. Meyiti maşına qoyub, Ağamuradla şəhərə yola saldılar. Sonra evin qapısını bağlayıb açarı İcra nümayəndəsinə verdilər.

Mehdixan kişi qonaqlan öz evinə aparanda Əhlimana tapşırdı ki, yarım saat sonra onun yanma gəlsin...



downloaded from KitabYurdu.org

Maşını icra nümayəndəsinin evi qarşısına sürdülər. Nuridə təzə gələn qonaqlar üçün həyətdəki stolda süfrə açdı. Çay gətirdi. Qanbay Qasımlı, Mahir və Nemət heyva ağacının kölgəsində dincəlirdilər.

- Qonağın var, deyəsən, ağsaqqal? - Əmirəliyev ev sahibindən soruşdu.

- Bəli! Qızımın əridir, bir də onun jurnalist dostları.

- Bizim söhbətimiz yarımçıq qaldı. Nədi onun adı?.. Hə, Əhlimanla! - mayor çaydan bir qurtum içib sual dolu baxışla Mehdixan kişiyə baxdı.

Ev sahibi Əhlimanın arvadının srağagün səhər tezdən kənddən çıxıb geri qayıtmadığını onlara danışdı. Əmirəliyev bir az fikirləşib dilləndi:

- Deməli, aym 18-də səhər evdən çıxıb. Dünən, yəni, 19-u axşamı bu hadisə baş verib. Bu hadisələr arasında bir əlaqə yoxdur, görəsən? O qadın, yəni Əhlimanın arvadı ayağısürüşkən deyil ki?

- Yox! Yox! Nə danışırsınız? - kəndin ağsaqqalı qəti şəkildə əlini yellədi. - Çox sakit, mərifətli bir qadındır. Bu hadisəyə də heç bir dəxli ola bilməz. Amma hər halda, axtarmaq lazımdır. Hər şey ola bilər!

Müstəntiq Zeynalov söhbətə qarışdı:



downloaded from KitabYurdu.org

- Qadının axtarışını Əmirəliyev kiməsə tapşırar. O, problem deyil. Əsas məsələ dünən axşamkı cinayətin açılmasıdır. Siz bu kənddə, eləcə də qonşu kənddə olan UAZ sürücülərinin siyahısını bizə verin. Həm də, sabah onlar şöbəyə gəlsinlər. Əmirəliyevin yanına. - Sonra üzünü mayora tutdu: - Telman müəllim, siz də rayon mərkəzindəki UAZ-lann siyahısını tərtib etdirib hamısı ilə söhbət aparın. O gecə kəndə gəlmiş maşının sürücüsü təcili tapılmalıdır. Həmin sürücü o gecə Mahmudgilə nə üçün gəlib, və ya kimi gətirib, bu aydınlaşmalıdır!

- Ondan narahat olma! - mayor əlini sinəsinə qoydu. - Mənə də Əmirəliyev deyərlər. O sürücünü axşama kimi tapmasam, adımı dəyişərəm!

Müstəntiq nəsə demək istəyirdi ki, Əhliman gəlib çıxdı. Ev sahibi onu süfrəyə dəvət etdi. Çox dilxor görünən Əhliman keçib stolun nisbətən kənarında əyləşdi.

Əmirəliyev onu kəskin baxışlarıyla süzüb, güclə sezilən istehza ilə soruşdu:

- Arvadı neyləmisən, ə?

Sualın deyiliş tərzi Əhlimana toxunsa da, özünü ələ alıb sakit cavab verdi:

- Srağagün səhər kənddən çıxıb, şəhərə gedib. Atasıgilə... Atası onu danlayıb ki, evinə qayıtsın. O isə oradan çıxıb və haraya getdiyi məlum deyil...



downloaded from KitabYurdu.org

- Haraya gedə bilər səncə?

- Bilmirəm...

- Bəs kim biləcək?! - mayor Əmirəliyev səsini qaldırdı. - Biz qapı-qapı düşüb sənin

arvadını axtarmayacağıq ki!? Get, özün axtar tap də!

- Mən sizə demirəm ki, gedin onu axtarın! - Əhliman da bir az səsini qaldırdı. - Mən bu kişiyə məlumat vermişəm ki, biləsiniz. İndi o, geri qayıtsa da qəbul etməyəcəm. Boşayacam! Evdən küsüb gedən arvad mənə lazım deyil!

- Ə, bura bax! - mayor barmağı ilə onu hədələdi. - Sənə bayaq başa saldım axı kimliyimi?! Mənimlə aşağı-yuxarı danışma! Bu həyətdə sənə dinmək istəmirəm. Rayonun ağsaqqalıdı bu kişi! Bezdirmisən, o da çıxıb gedib evdən! İndi əgər, ona bir şey olsa, sən cavab verəcəksən!

- Mən onu bezdirib eləməmişəm... - Əhliman səsini bir qədər alçaltdı.

- Ona hələ sonra baxanq! Bu işdən nə bilirsən? Kim öldürə bilər Mahmudu?

- Bilmirəm, Allaha and olsun. Nə bilirəm, nə görmüşəm, sizə dedim.

Müstəntiq birdən söhbətə qarışıb dedi:



downloaded from KitabYurdu.org

- Telman müəllim, Əhlimanla sonra danışarsınız. Şöbədə. Getmək lazımdır. Həmin sürücünü tapmaq üçün.

Mehdixan kişi məsləhət gördü:

- Ərazimizdəki sürücülərin siyahısını sizə verəcəm. Ancaq bu sürücülər hər gün səhər kənddən çıxıb, günorta qayıdırlar. Gecə vaxtı buraya gələn maşın isə şəhərdəkilərdən olmalıdır.

Özünüz bilirsiniz, onlar axşama kimi dayanacaqda dayanıb kəndlərə aparmağa müştəri gözləyirlər.

- Arxayın ol! - Əmirəliyev dilləndi. - Ağamurada da tapşıracam, kənd camaatı ilə söhbət aparsın. Hər halda, gecə vaxtı olsa da, kənddən kimsə o UAZ-ı görüb-tanımamış olmaz! - Əhlimana tərəf çevrildi: - Sən qayınatanın ünvanını ver, dur get! Sabah şöbəyə gələrsən!

Əhliman Səfayənin ata evinin ünvanını dedi, ancaq ayağa qalxmadı. Yaman fikrə getmişdi. Elə bil, nə isə, çox ciddi bir məsələni götür-qoy edirdi.

- Niyə getmirsən? - mayor təəccüblə soruşdu.

- Bilirsiniz... - Əhliman ətrafa boylanıb üzünü müstəntiqə tutdu. - Mahmud rəhmətliklə münasibətimiz həmişə çox yaxşı olub. Mən istəmirəm ki, bu işlə əlaqədar nəyisə sizdən gizlədim. Ancaq məni də başa düşün. Uşaqlanm var... Xahiş edirəm, bu söhbət öz aramızda qalsın.



downloaded from KitabYurdu.org

- Yoxsa nəsə bilirsən? Arxayın ol, bizdən heç vaxt söz çıxmaz! Uşaq deyilik! - müstəntiq bunu deyib gözlərini Əhlimanın ağzına dikdi.

Əhliman bir qədər duruxub, nəhayət dilləndi:

- Mən o axşam Mahmudgilə gələn maşını tanıdım!

- Kimin maşını idi? - mayor cəld soruşdu.

- Bayəddinin... - Əhliman astadan bildirdi.

- Bayəddin? - Əmirəliyev bir də soruşdu. Sonra üzünü Zeynalova tutdu. - Onu tanıyıram. Köhnə-külə bir maşını var. Xaltura ilə məşğul olur.

- Daha kimi gördün? - müstəntiq sual verdi.

- Heç kimi! Küçəyə düşən zəif işıqda maşını gördüm. Maşının üst örtüyünün rəngindən, bir də qabaq şüşələrin sınığından onu tanıdım. Bayəddinin özünü görmədim. Çünki maşın qarşımı kəsirdi. Ancaq qapının səsini eşitdim. Sonra evə girdim.

- Sən dur get, sabah da şöbəyə gəlmə! - Zeynalov dedi. - Lazım olsan, çağırarıq!

Əhliman qalxıb həyətdən çıxdı. Onun verdiyi gizli xəbəri yalnız üç nəfər eşitmişdi. Həmin üç nəfər sirli kələfin ucunun lap yaxında olduğunu artıq hiss edirdilər.



downloaded from KitabYurdu.org

Bir qədərdən sonra müstəntiq Zeynalovla, mayor Əmirəliyev qalxıb ev sahibi ilə görüşdülər və maşına minib şəhərə yola düşdülər. Şəhərdə onları təxirəsalınmaz işlər gözləyirdi.

Kənddə isə qızğın iş gedirdi. Bir qrup adam Mahmudun darvazası qarşısında - küçədə yasxana qurur, bir neçəsi qəbiristanlıqda qəbir qazır, bir qrup adam isə meyiti alıb gətirmək üçün şəhərə getməyə hazırlaşırdı.

İstefada olan polis polkovniki Qanbay Qasımlı heyva ağacının kölgəsində balışa dirsəklənib Nemətlə şahmat oynayır, həm də Mahirin öz sərgüzəştləri haqqında uzun söhbətinə qulaq asırdı.

Mahmudun qətli ilə əlaqədar rayon polis şöbəsində cinayət işi açıldı və təhqiqat aparmaq şöbənin ən bacarıqlı əməliyyat-axtarış işçisi hesab edilən Telman Əmirəliyevə tapşırıldı.

Mayor Əmirəliyevin tünd xasiyyəti və kobudluğu olmasaydı, yəqin ki, daha yüksək vəzifələrə gedib çıxardı. Öz işini bilməyinə, prinsipiallığına, inadına, cəsarətinə söz ola bilməzdi. Fiziki cəhətdən də çox güclü idi. Şöbənin işçiləri onunla münaqişəyə girməyə

qətiyyən cəsarət etmirdilər. Hətta, şöbənin rəisi özü onunla hesablaşırdı.

Əmirəliyev mayın 20-də, günorta, kənddən qayıdan kimi bölmənin işçilərinə Bayəddini tapıb gətirməyi tapşırdı. Sonra isə şöbə rəisinin kabinetinə girib apardığı ilkin təhqiqat işləri



downloaded from KitabYurdu.org

barədə məlumat verdi. Polkovnik - leytenant Xəlilov işi ona həvalə edib, tapşırdı ki, bütün imkan və səlahiyyətlərindən istifadə edib qatili tezliklə aşkar etsin.

Rəisin yanında bir qədər ləngiyib, kabinetinə yenicə qayıtmışdı ki, Bayəddini gətirib içəri saldılar. Əmirəliyev bu alçaqboylu, səliqəsiz geyimli, qara, sıx saçları sanki daraq görməmiş

sürücünün salamını almadan başdan-ayağa bir xeyli süzüb, birbaşa suala keçdi:

- Mahmudu tanıyırsan?

- Usta Mahmudu? - Bayəddin suala sualla cavab verdi.

- Özün yaxşı bilirsən hansı Mahmudu deyirəm! Mayın 18-də axşam onun evinə getmisən?

- Yoox...

- Sən Mahmudun öldürülməsini eşitmisən? - Əmirəliyev xarakterinə uyğun olmayan bir sakitliklə danışırdı.

- Bəli, eşitmişəm, bayaq dayanacaqda danışırdılar.

- Deyirsən, Göydağa getməmisən o gecə?

- Xeyr...

Bölmə rəisi əlində oynatdığı açar topasını stola çırpdı:

- Sən indi elə fikirləşirsən ki, Əmirəliyevi aldada biləcəksən, hə? Özünü nə hesab edirsən, küçük?



downloaded from KitabYurdu.org

- Vallah, Telman müəllim...

Əmir əliyev ayağa qalxdı:

- Səni elə vuraram, divarın o tayına keçərsən! Söhbəti uzatma! Mənim gizlənqaç oynamağa vaxtım yoxdur!

Bayəddin indi onun üzünə yox, əlinə baxırdı. Sağ əlinə...

- Dayan rəis, qələt elədim! Getmişəm! Mahmuda sözüm var idi.

- Bəs niyə o saat boynuna almadın?

- Qorxdum, Telman müəllim, eşitdim o yazığı öldürüblər, dedim birdən...

- Hə, indi danış görüm, niyə getmişdin oraya və kiminlə? - mayor yerində oturdu. - Ancaq bir də mənimlə oyun oynamaq fikrinə düşsən, boynunu sındıracağam.

Bayəddin onun oturduğunu görüb bir qədər sakitləşdi və tez-tez danışmağa başladı:

- Qonşu ilə aramızda taxta hasar var. Onu söküb daşdan çəkdirmək istəyirdim. Getdim ki, Mahmudla danışım, vaxtı olanda gəlib hasan çəksin.

- Kiminlə getmişdin?

- Tək!..

- Bəs niyə gecə getdin? Gündüzü əlindən almışdılar?



downloaded from KitabYurdu.org

- Gündüz vaxt tapa bilmirəm, müştərim olur. Bir də... maşın meşə yolunda xarab olmuşdu. Ona görə gecəyə düşdüm.

Əmirəliyev əllərini çənəsinə sürtərək ani fikrə getdi. «Bu əbləh sürücü kəndə mayın 18-də gedib. Cinayət hadisəsi isə o biri gün gecə törədilib. Qatil şübhəsiz ki, Əhlimanın həmin gecə pəncərədə gördüyü kölgənin sahibi olmalıdır. Pəncərədə görünən kölgənin Bayəddinlə bir əlaqəsi ola bilərmi? Çətin ki, olsun! Bu sürücü qorxağın biridir. Yəqin ki, danışdıqları da düzdür. Bəs onda, qatil kim ola bilər? Axtarışı daha qətiyyətlə davam etdirmək lazımdır. Qoy hələ bir ekspertizanın nəticəsi bilinsin...»

Gözlərini qaldırıb Bayəddinin qorxudan ağarmış sifətinə baxdı:

- Sən nağıl danışırsan, yoxsa düzdür bu dediklərin?

- Düzdür, rəis, inanın mənə!

- Yaxşı!., inan deyirsən, inanıram. Ancaq yadında saxla, dediklərin yalan çıxsa, ananı ağladacam!

- Yaxşı, rəis...

- Gedə bilərsən!

Bayəddin gedən kimi Əmirəliyev sahə müvəkkilini yanma çağırıb tapşınq verdi:



downloaded from KitabYurdu.org

- Ağamurad, kənddəki adamlarımızdan, bir də öz etibarlı adamlarından istifadə edib, həmin gün kəndə kimlərin gəlib getdiyini dəqiq öyrən!

Bölməsinin işçisi Rafael Vəliyevə isə Səfayənin axtarışını tapşırdı.

Kapitan Vəliyev Səfayənin ata evinin ünvanını mayordan alıb, həmin gün axşamüstü Zəlimxan kişinin evinə getdi. Onu həyətdə Zəlimxan kişi qarşıladı. Taxta kətilin üstündə oturub dərin fikrə getmişdi. Polis kapitanını görüb cəld ayağa qalxdı və sual dolu baxışlarını onun üzünə dikdi. Xoşgəldin eləmək də yadından çıxmışdı. Üzə vurmasa da son iki gündə heç rahatlığı olmamışdı. Gümanı gələn yerlərə baş çəkib, üstü örtülü şəkildə qızını soraqlasa da, gördüm deyən olmamışdı.

Rafael ev sahibi ilə görüşüb, gəlişinin məqsədini anlatdı. Onda heç bir sevindirici xəbərin olmadığını başa düşən atanın qollan yanma düşdü. Ancaq buna baxmayaraq qonağı evə dəvət etdi.

Evdə iki yad qadın da var idi. Səfayənin yoxa çıxmasını eşidib, anasına baş çəkməyə gəlmişdilər. Rəfaillə ev sahibi otağa daxil olan kimi, həmin qadınlar qalxıb bir daha anaya səbir dilədilər və çıxıb getdilər. Bikəxammın ağlamaqdan gözləri qızarmışdı. Ayağa durub qonaq üçün çay gətirdi və çəkilib bir küncdə oturdu. Yaranmış sükut çox üzücü idi. Heç kəs nədən başlamaq lazım olduğunu bilmirdi. Nəhayət, ev sahibi qabağa düşdü:



downloaded from KitabYurdu.org

- Görürsünüz də, bu yaşımda başıma nə iş gəldi?!

Onun vəziyyəti Rafaeli heç maraqlandırmırdı. Kapitan buraya başqa rayondan gəlmişdi və yeni vəzifəsində ona tapşırılan işi vaxtında yerinə yetirib, bacarığını sübut etmək istəyirdi. Odur ki, birbaşa mətləbə keçdi:

- Qızınız mayın 18-də burada olub?

- Bəli, səhər gəlmişdi. Anası ilə danışığından başa düşdüm ki, evdən küsüb çıxıb və qayıtmaq fikri yoxdur. Danladım. Dedim, qayıt evinə - eşiyinə. Doğrusu, mənim belə şeydən xoşum gəlmir. Onu da deyim ki, bu birinci dəfə deyildi. Əvvəllər də bir neçə dəfə yığışıb gəlmişdi. Hər dəfə də mənim sözümə qulaq asıb barışmışdı əri ilə. Ancaq bu dəfə eşitmək istəmədi məni. Buradan da küsüb getdi. Hara getdi, necə oldu, baş aça bilmirəm.

- O, nəyə görə evdən qaçmışdı axı? - Rafael sual verdi.

Zəlimxan kişi çənəsini sığallayıb fikirli halda dilləndi:

- Əvvəllər əri sərt davrananda küsüb gəlirdi. Ancaq mənə elə gəlir ki, bu dəfə belə deyildi. Ərindən heç o qədər narazılıq da bildirmirdi. Ağlayıb özünü öldürürdü ki, qayıtmayacağam, vəssalam! Mən də, doğrusu, bir az tərslik elədim, günortaya yaxın çıxıb getdi. Heç nahar da eləmədi burada...

- Bəs haraya getmiş olar?



downloaded from KitabYurdu.org

- Bilmirəm. Qardaşı Balada olur. Ağlıma gəldi ki, onun yanma gedər. Zəng vurub soruşdum. Dedi, gəlməyib. O da dəlisovun biridir. Məsələni dəqiq bilsə, xəta çıxartmağından qorxuram. Tərs qızı tərs hamımızı pis vəziyyətdə qoydu. Adam içinə çıxa bilmirəm.

- Bəs onu belə vəziyyətdə niyə buraxdınız evdən?

- Dedik, nahar edib sonra getsin, saxlaya bilmədik. Fikirləşdim ki, yəqin dayanacağa gedir. Kəndin maşınları saat 12-də çıxır axı buradan!?

Bikəxanım söhbətə qoşuldu:

- Əhliman da gəlib düşüb bizim üstümüzə. Elə bil biz öyrətmişik onu ki, çıx evindən gəl bura.

- Ay arvad, başını hər yerə soxma! - əri ona acıqlanıb yenə kapitana baxdı. - Əhlimanı qınamıram, arvad gərək hər şeydən ötəri fors eləyib evdən çıxmasın.

Rafael başı ilə onun fikrini təsdiq edib, növbəti sualını verdi:

- Qızınızın heç bir yaxın adamı, rəfiqəsi olmayıb?

- Qohumlann, tanışların hamısından xəbər bilmişik. Ancaq məktəbdə oxuyanda bir yaxın yoldaşı var idi. Rəhilə adında. Səfayənin toyuna da gəlmişdi. Amma onun yerini-yurdunu bilmirik.

- Hansı məktəbdə oxuyublar? - Rafael qovluğundan kağız çıxarıb qeydlər aparmağa başladı.



downloaded from KitabYurdu.org

- Orta məktəbdə. 6 nömrəli məktəbdə.

Kapitan Vəliyev daha bir neçə sual verib

ayağa qalxdı. Zəlimxan kişi ilə görüşüb,

Rəhilənin ünvanını öyrənmək üçün polis şöbəsinə qayıtdı.

Həmin vaxt Əmirəliyev öz kabinetində Qiyas müəllimi danışdırırdı. O, mərhumun qonşusundan yeni bir şey öyrənə bilmədi. Qiyas özü isə şübhə doğurmurdu. Onun boyu Mahmudunkundan qısa idi. O məşum gecədə isə

pəncərəyə boyca Mahmuddan hündür adamın kölgəsi düşmüşdü.

Mayor Əmirəliyev Qiyası evə buraxıb, Rafaeli qəbul etdi. Onun raportunu dinləyib, Rəhiləni tapmağı tapşırdı. Bölmə rəisini Səfayənin axtarışı o qədər də ciddi maraqlandırmırdı. Göydağ kəndində qanlı cinayət baş vermişdi və bu cinayətin açılması bu saat hər şeydən daha vacib idi.

Cinayətin sədası artıq bütün rayona yayılmışdı. Hər yerdə pəncərəyə düşən məchul kölgədən danışırdılar. Qadın və uşaqlar gecələr qorxudan həyətə düşə bilmir, görünən hər bir kölgədən diksinirdilər. Qanlı cinayətin kölgəsi adamların üzündə gəzirdi...

Mayor Telman Əmirəliyev səhər işə gələn kimi şöbənin qarşısında dayanmış arıq oğlanı kabinetə çağırdı. Adı Cavanşir olan bu oğlan Dərəçayda yaşayırdı və o da Sabir



downloaded from KitabYurdu.org

kimi hər gün öz maşınında şəhərə sərnişin aparıb gətirirdi. Cavanşiri Əmirəliyev özü çağırtdırmışdı. O, dünən öyrənmişdi ki, Cavanşir mayın 18-də şəhərdən həmişəki kimi günortaya yaxın yox, axşamüstü çıxıb. Bu sürücü mayorun etibarlı adamlarından idi və Əmirəliyev onu bu işlə əlaqədar onsuz da danışdıracaqdı. Odur ki, kabinetə girən kimi, stolun arxasına keçib, Cavanşirə də oturmaq üçün stul göstərdi və birbaşa əsas mətləbə keçdi:

- Mahmudun öldürülməsində kimdənsə şübhən varmı?

Cavanşir boynunu qaşıyıb bir az fikirləşdi və nəhayət, dilləndi:

- Yox, Telman müəllim, ağlım heç nə kəsmir bu barədə. Mahmudun düşməni olduğunu eşitməmişdim. O, hamı ilə mehriban olub, hamının işinə yarayıb. Bircə qardaşı ilə yola getmirdilər. Daha doğrusu, Ağayar özü ona qarşı nankor olub.

- Onun barəsində fikrin nədir?

Cavanşir yenə boynunu qaşıdı:

- Necə deyim?.. Davakann biridir. Kəndlərində də heç kəs onunla oturub-durmur. Danışırlar ki, həmin gün günortadan bir az sonra qardaşının həyətindən çıxan görüblər. Deyinə-deyinə gedirmiş. Ancaq mən şəxsən inanmıram ki, o, bu boyda cinayətə əl ata. Necə olmasa, qardaşdı...

- Kim görüb onu? - mayor onun sözünü kəsdi.



downloaded from KitabYurdu.org

- Vallah bilmirəm. Lazımdırsa, öyrənib deyərəm.

- Mütləq öyrən! - Əmirəliyev stolun üstündən karandaşı götürüb, arxasını stola vurmağa başladı. - Saat neçədə olub bu?

- 3 ilə 4 arası olub, deyilənə görə...

- Sən ayın 18-də kəndə nə vaxt qayıtmısan? - mayor başqa suala keçdi.

- O gün şəhərdə bir az işlərim var idi. Müştərilərimi başqa maşınla yola saldım. Özüm kəndə qayıdanda havanın qaralmağına az qalmışdı.

- Yolda kimə rast gəldin?

- Bayəddinin maşını meşə yolunun başlanğıcında, üzü kəndə dayanmışdı.

- Niyə dayanmışdı?

- Bayəddin düşüb kapotu açmışdı. Yəqin maşın xarab olubmuş. Onunla yaxşı münasibətim olmadığı üçün dayanıb köməyimi təklif etmədim.

- Kimi aparırdı Bayəddin?

- Mən maşında başqa adam görmədim.

- Dəqiq deyirsən? - Əmirəliyev Cavanşirin gözlərinin içinə baxdı.

- Necə deyim? - Cavanşir inamsız dilləndi.



downloaded from KitabYurdu.org

- Mən hələ asfalt yolda olanda, uzaqdan o maşını gördüm. Meşə yoluna yaxınlaşdıqca maşın daha aydın görünürdü. Sürücünün arxasındakı qapı açıq idi. Mənə elə gəldi ki, kimsə içəridən əlini uzadıb qapını örtdü. Mən maşının yanından keçərkən ani olaraq başımı döndərib baxdım. Maşının içində heç kəs yox idi.

- Nağıl danışırsan? - mayor istehza ilə soruşdu.

- Yox, rəis! Nə görmüşəm, onu danışıram. Mən and içə bilərəm ki, qapı açıq idi. Sonra örtüldü...

- Bəlkə Bayəddin özü örtüb qapını?

- Bayəddin maşının qarşısında mühərriklə əlləşirdi. Qapını örtən o deyildi.

- Deməli, sən qapını örtən adamın əlini gördün?

- Heç əlini də görmədim... - Cavanşir gözlərini döyüb bölmə rəisinə baxdı. - Ancaq atamın canı üçün qapı açıq idi, sonra örtüldü.

- Sonra da boylanıb baxdın və maşının içində heç kəsi görmədin, eləmi?

- Bəli.

- Bəlkə o adam sənin maşınını görüb, qapını örtüb və dərhal əyilib ki, sən onu görməyəsən.

Ola bilər?



downloaded from KitabYurdu.org

- Ola bilər...

- Sən gedə bilərsən! Bu söhbət də öz aramızda qalsın!

- Baş üstə, Telman müəllim!

Əmirəliyev sürücünü buraxıb kabinetdə tək

qaldı və başını əlləri arasına alıb, dərin fikrə getdi.

- Belə-belə işlər... Deməli, həmin gecə Bayəddinin maşınında sərnişin də olubmuş. Əgər Bayəddin həmin sərnişinin kimliyini gizlədirsə, deməli, həmin adam və eyni zamanda Bayəddin özü Mahmudun ölümü ilə əlaqədardırlar. Buna daha şübhə ola bilməz! Bəs o adam kim olub görəsən? Həmin adam o gecə Bayəddinlə geri qayıdıb, yoxsa Mahmudgildə qalıb? Ya bəlkə piyada qonşu kəndə gedib?... Bu suallara gec-tez cavab tapılmalı idi. Bu öz yerində... Ancaq Cavanşirlə söhbətdə bölmə rəisinə bir şey qəti aydın olmuşdu ki, o da Bayəddinin yalan danışması idi. Adi bir sürücü təcrübəli əməliyyat işçisini aldada bilmişdi!

Əmirəliyev yumruğunu elə sıxdı ki, barmaqlan şaqqıldadı. Ayağa qalxıb bir siqaret yandırdı. Hirsindən nə edəcəyini bilmirdi. Kiçik kabinetdə bir az o baş-bu başa gəzdi. Sonra daxili telefonu götürüb, kapitan Vəliyevə yanma gəlməyi əmr etdi.



downloaded from KitabYurdu.org

Bayəddin kəndlərdən birinə sərnişin aparmışdı. Günortaya yaxın rayon mərkəzinə qayıtdı və o saat da nahar üçün evinə gəldi.

Nahardan sonra ucqar kəndlərdən birinə maşın sürməli idi. Qonşusu Heybət kişi xahiş etmişdi ki, onu ailəsi ilə birlikdə həmin kəndə aparsın. Sabah orada Heybət kişinin qardaşı oğlunun toyu olmalı idi. Bütün ailə geyinib-keçinib kəndə getməyə hazır dayanmışdı. Bayəddin ona görə də tələsirdi ki, nahar edib, maşına bir az əl gəzdirsin. Necə olmasa, uzaq kəndə gedirdilər. Özü də xeyir işə...

Yeganə övladı olan altı yaşlı oğlu Ramal onu qapının ağzında qarşıladı.

- Ata, tapança aldın?

Bayəddin əlini şappıltı ilə dizinə vurdu:

- Vay, lənət şeytana, yenə yadımdan çıxdı!

Ramal dayanıb acıqlı baxışlarla onu süzdü. Bu vəziyyətdə o, çox gülməli görünürdü.

- Yekə kişisən, ancaq yaddaşın yoxdur! Bayəddin gülə-gülə oğlunu qucağına götürüb

üzündən öpdü:

- Ay səni!.. Yaxşı, söz verirəm, axşam gələndə mütləq alıb gətirəcəm.



downloaded from KitabYurdu.org

- Bax, almasan, səndən küsəcəm. Həm də Ayazmkmdan olsun.

Ayaz Heybət kişinin nəvəsi idi. Çox vaxt Ramalla küçədə birlikdə oynayardılar. Bayəddin uşağı yerə qoyub, üzünü mətbəxdə xörək hazırlayan arvadına tutdu:

- Çinarə, yeməyimi tez ver, getməliyəm!

Stolun arxasında oturan kimi Ramal yenə gəlib onun qucağına çıxdı. Çinarə yemək gətirdi. Ata-bala həmişəki kimi yeməyi birlikdə yedilər. Nahar qurtaran kimi Bayəddin həyətə düşüb maşının suyuna, yağma baxdı. Təkərləri yoxladı. Ramal da onun yanında hərlənirdi.

Maşını işə salıb həyətdən çıxanda arxadan onun səsini eşitdi:

- Bax, tapança yadından çıxmasın ha!... Bayəddin gülüb başını buladı. Ancaq tez də ciddiləşdi. Yenə Əmirəliyevlə dünənki söhbəti xatırladı. «Yaxşı qurtardım» deyə düşündü. Yoxsa... Bir daha o uğursuz gecə gözlərinin qarşısına gəldi. Bir daha o qorxulu təhdid qulaqlarında səsləndi: «Oğlunun başını cücə başı kimi üzəcəm!» Bütün vücudunda xoşagəlməz bir gizilti gəzdi. Bayəddin oğlunu öz canından da artıq istəyirdi. Onun başına bir iş gələrsə, yəqin ki, bu dünyada bircə gün də yaşaya bilməzdi.

Bir azdan Heybət kişinin ailəsi hay-küylü sevinclə maşına doluşdu. Ailə başçısı:



downloaded from KitabYurdu.org

- Ya Allah! Getdik, Bayəddin! - dedi və yola düşdülər.

Bayəddin yaxınlıqdakı oyuncaq mağazasının qarşısında maşını saxladı və cəld düşüb Ramal üçün oyuncaq tapança aldı. Sevinə-sevinə gətirib maşına qoydu. İndi daha uşağın üzünə ürəklə baxa biləcəkdi.

- Ramala söz vermişəm, - dedi və yenə maşını işə saldı.

Yolu istər-istəməz rayon polis şöbəsinin qarşısından keçirdi. Elə buradaca, iki polis çavuşu onu saxladı. Onlardan biri dərhal şöbəyə qaçdı. İkincisi isə Bayəddinə yaxınlaşdı:

- Haraya gedirsən?

- Bunları toya aparıram... - elə bil içində nəyinsə qırıldığını hiss edən Bayəddin başı ilə sərnişinləri göstərdi.

Heybət kişi başını uzadıb çavuşun üzünə baxdı:

- Nə olub, ay oğul?

- Heç nə, dayı, narahat olma, kapitan Vəliyevin Bayəddinlə söhbəti var.

Bu vaxt kapitan Vəliyev o biri polislə şöbədən çıxıb maşına yaxınlaşdı. O da çavuşun

verdiyi sualı verib, həmin cavabı aldı. Sonra maşmdakılara nəzər salıb, hökmlə dilləndi:

- Bunları düşürt, maşını da sal içəri!

- Niyə axı? - Bayəddin qorxuqarışıq həyəcanla soruşdu.



downloaded from KitabYurdu.org

- Sual vermə! Nə deyirlər, onu da elə!

Heybət kişi işə qarışmağa məcbur oldu:

- Ay bala, səni tanımıram, deyəsən rayona təzə gəlmisən. Belə olmaz axı?! Biz qardaşım oğlunun toyuna gedirik. Bayəddin nə günahın sahibidir ki, belə edirsiniz?!

Rafael atası yaşında olan kişini diqqətlə süzdü:

- Ağsaqqal, inciməyin, siz toya başqa maşınla gedərsiniz. Düşün!

Bayəddinin ona yazıq-yazıq və ümidlə baxdığını görən Heybət kişi dözmədi:

- Bura rayon yeridi, bala, hamı bir-birini tanıyır. Yaxşı deyil bu hərəkətiniz!

Rafael artıq əsəbiləşməyə başlamışdı. Heybət kişiyə əhəmiyyət verməyib Bayəddinə üz tutdu:

- Ə, çaqqal, eşitmədin, nə dedim?!

Bayəddin tez qonşusuna tərəf döndü:

- Sən Allah, bağışla məni, Heybət dayı! Düşün, başqa maşınla gedin.

Bütün ailə Rafaelin qarasına deyinə-deyinə maşından düşdü. Vəliyev iri darvazanı özünü tamamilə itirmiş sürücüyə göstərdi:

- Sür oraya!



downloaded from KitabYurdu.org

Darvaza açıldı. Bayəddin maşını sürüb həyətə saldı. Mühərriki söndürüb açarı polis işçilərinə verdi.

Onun qolundan tutub şöbəyə apardılar. Növbətçi otağında üst-başını yoxlayıb, qayışını açdırdılar. Sonra aparıb müvəqqəti saxlama kamerasına saldılar.

Mahmudun həyətində sabahkı ehsan mərasiminə hazırlıq gedirdi. Sabah mərhumun dəfninin üçüncü günü olacaqdı. Bu mərasimə qonşu kəndlərdən və rayon mərkəzindən çox adamın gələcəyi gözlənilirdi.

Bir neçə kişi küçədə yasxananı genişləndirirdi. Qadınlar isə evdə, kənd camaatından yığılmış qab-qacağı təmizləyib sabaha hazır qoyurdu.

Əhliman yarımçıq qalmış hamam tikilisinin yanında ehsan xörəyi bişirmək üçün ocaq yeri hazırlayırdı. Sabah beş-altı qazanda eyni vaxtda xörək bişiriləcəkdi. Ona görə də qazanlar üçün uzun altlıq düzəldilməli idi.

Ağayar ondan bir qədər kənarda iri bir samovarın içini təmizləyirdi. Bu vaxt arvadı Qənirə həyətə düşdü. Əllərini belinə qoyub bütün həyətə göz gəzdirdi. O, artıq özünü bu mülkün sahibi kimi hiss edirdi. Bu onun qalib baxışlanndan açıq-aydın görünürdü. Elə bil indidən bu həyətdə nə dəyişikliklər edəcəyini götür-qoy edirdi.

Qənirə elə qız vaxtından yüngül xasiyyətli idi. Oturuşunu-duruşunu bilən deyildi. Bədəninə yaraşmayan ədalı yerişi var



downloaded from KitabYurdu.org

idi. Danışmağı da ki... Heç qulaq asmasan yaxşıdır! Mahmud onu qardaşına könülsüz almışdı. Görəndə ki, qardaşı bu anq, yöndəmsiz qızın dərdindən dəli- divanədi, elçi getməkdən başqa əlacı qalmamışdı.

Əhlimanın da Qənirədən xoşu gəlmirdi. Nə qadın kimi, nə də insan kimi. Mahmudla bu evdə yaşadıqları vaxt Əhlimangilə gəlib-gedirdi. Özündən iyirmi yaş böyük Əhlimanla danışanda az qalırdı kişinin qucağına atılsın. Ancaq Əhliman ona baş qoşmurdu. Yenə bir əməlli- başlı bədən quruluşu-zadı olsaydı, dərd yan idi.

Bədənində yalnız sifəti babat idi ki, elə Ağayann da ağlını çaşdıran o olmuşdu.

Qənirə öz ədalı yerişi ilə, burula-burula ərinə yaxınlaşdı:

- Ağayar, usta tapıb bu hamamın yarımçığını çəkdirərsən!

Ağayar başını qaldırıb tikiliyə baxdı və yenə öz işi ilə məşğul olmağa başladı:

- O sonranm işidir, hələ bir dayan görüm!

- Öz evimizi satıb buraya köçərik. Əhliman kimi qonşu heç yanda tapılmaz! - Qənirə bunu deyib Əhliman tərəfə gözlərini süzdürdü.

Əhliman ona çəp-çəp baxıb başını buladı: «Bəli də, dərdimiz olmayacaq bundan sonra! Gör

kimin yurdunda kim gəlib qalacaq. Sarsaq qızı sarsaq!»



downloaded from KitabYurdu.org

Qalxıb həyətdən çıxdı. Küçədə yasxanaya ötəri nəzər salıb işləyən cavanlara bəzi göstərişlər verdi və öz həyətinə keçdi. Pilləkəndə oturmuş Təhminəyə:

- Çıx süfrə hazırla! - dedi və həyətdəki əl-üz yuyanda əllərini yuyub pilləkənlə ağır-ağır qalxmağa başladı. Pilləkənin başında nə düşündüsə, dönüb qonşu evin pəncərəsinə baxdı. O pəncərəyə ki, iki gün əvvəl gecə vaxtı həmin pəncərəyə düşən kölgədən bütün rayon camaatı danışırdı. Xeyli müddət gözlərini pəncərədən çəkə bilmədi. Sanki gündüzün-günorta çağında da pəncərədə həmin kölgə görünürdü...

Bayəddin bir saata yaxın idi ki, kamerada oturub dərin fikrə getmişdi. «Məni nəyə görə buraya gətirdilər? - deyə düşünürdü. - Bəlkə dünən Telman müəllim mənə inanmayıb?! İnanmamışdısa, bəs onda niyə məni buraxdı? Görəsən, kim satıb məni? Mən meşə yolunun başında dayananda Cavanşir maşınla yanımdan keçdi. Bəlkə o satıb?! Əlbəttə, Cavanşir satıb! Başqa kim görüb ki, məni? Ancaq Cavanşir mənim sərnişinimi görmüşdümü? Əgər görüb xəbər veribsə, dünən Əmirəliyev niyə inandı mənə?»

- Yox! - Bayəddin başını əlləri arasına aldı. - Mən o gecə kəndə kimi apardığımı deyə bilmərəm! Deyə bilmərəm!

O qorxunc təhdid yenə qulaqlarında səslənməyə başladı:

«01a bilsin, səni tutub soruşacaqlar ki, kəndə kimi aparmısan?.. Əgər boynuna alsan, məndən incimə. Özünə



downloaded from KitabYurdu.org

əlim çatmasa, oğlunun başını cücə başı kimi üzəcəm! Özün də əlimdən qurtara bilməyəcəksən!»

Bayəddin o əclafın sözlərinə inanırdı. Bilirdi ki, o bunu edə bilər.

«Qansızın biridir, ondan hər şey gözləmək olar. Ancaq... Yəni doğrudan, Mahmudu o öldürüb? Başqa kim ola bilər ki? Bəs axı nəyə görə ? Hə? Yaxşı bəs o?.. Ay Allah, sənə qurban olum, bu dəhşətli bəladan xilas elə məni! O bir oğlumu da sənə tapşırıram! Bu işdən salamat qurtara bilsəm, qurban kəsib camaata paylayacam!»

Ətrafına boylanıb, soyuq beton divarlara tamaşa etdi. O, özü də başa düşürdü ki, bərk qorxur. Az qala öz-özü ilə danışırdı:

- Kaş ki, döyməyəydilər məni. Bir şey uydurub deyərəm. Ancaq yəqin ki, döyəcəklər! Bu nə oyundu mən düşdüm, ay Allah?!

Cinayət-axtarış bölməsinin rəisi nahar fasiləsindən qayıdan kimi kameraya salınmış sürücünü onun kabinetinə gətirdilər. Əmirəliyev qəzəblə Bayəddinin üzünə baxdı:

- Ə, küçük, mənə nömrə gəlirsən?! Bəs deyirdin, kəndə tək getmisən o gecə?

Bayəddin qorxudan udqunmağa başladı: «Yəni bilirlər kimi aparmışam kəndə? Yəni Cavanşir görübmüş onu? Mən indi bu qansız oğlu qansıza nə cavab verim? »



downloaded from KitabYurdu.org

- Eşitmirsən?! - mayor səsini qaldırdı: - Ay heyvan, o gün səni görən olub! Meşə yolunun başında dayanmısan. Maşının xarab olubmuş. Sən onu düzəldəndə həmin sərnişinin də maşında oturubmuş. Görürsən, hər şey mənə məlumdur! Sən o adamın kimliyini niyə gizlədirsən, bax bu mənə aydın deyil!

Stolun üstünə ağ vərəq və qələm qoydu:

- Gəl, əyləş! Kəndə həmin gecə kimi aparmısan, nə görmüsən, nə eşitmisən, hamısını yerli yataqlı yaz!

Bayəddin göstərilən stulda oturdu. Nə edəcəyini bilməyərək, qələmi əlinə aldı. Beynini sürətlə işlətməyə başladı. «Cavanşir onu görübmü? Cavanşir onu görə bilərdimi?»

Cavanşirin maşınının onun yanından keçdiyi anı dəqiqliyi ilə xatırlamağa çalışdı:

«Mən motorla məşğul idim. Cavanşirin maşını bərabərimizə çatanda, əlimi saxlayıb bir anlıq ona baxdım. O da mənə baxdı. Həmin vaxt bircə saniyə imkan ola bilərdi ki, o mənim maşınımın arxa oturacağına baxsın. Deyəsən, baxdı da! Ancaq onu görə bildimi? Baxsaydı, əlbəttə görə bilərdi...

Ancaq əgər məni əvvəldən Cavanşir satmışdısa, niyə gördüyünü deməmişdi? Niyə Əmirəliyev dünən mənə inandı? Yox, belə çıxır ki, o məni sınayır.»



downloaded from KitabYurdu.org

Ramal gözlərinin qabağına gəldi: «Ata, mənə tapança al!» Özündən asılı olmayaraq, kövrəldi. «Yox! Mən o adamın adını deyə bilmərəm!»

- Mən kəndə tək getmişəm, rəis! Allaha...

Qəfil yerindən sıçrayan mayor onu necə vurdusa, stulqanşıq döşəməyə aşdı. Peysəri zərblə divara dəydi. Otaq başına fırlandı. Əmirəliyev onun yaxasından yapışıb qaldırdı və başqa stulda otuzdurdu. Yaxasını əlindən buraxmadan gözlərinin içinə baxdı:

- Sən məni barmağına dolayırsan?! İt oğlu it! Bilmirsən ki, mənə də Əmirəliyev deyərlər? Bilmirsən ki, sənin ciyərini çıxarıb ağzına verərəm?!

Ağzından axan qanı yavaş-yavaş çənəsinə süzülən Bayəddin bölmə rəisinin sözlərini güclə eşidirdi. Beynində başqa sözlər daha inadla, daha qüvvətlə taqqıldayırdı: «Oğlunun başını cücə başı kimi kəsəcəm! Oğlunun başını kəsəcəm!.. Başını kəsəcəm!..»

... Əmirəliyev daha yorulmuşdu. Gördü ki, indi Bayəddindən söz qoparmaq mümkün deyil. Belə getsə, əlində ölə bilərdi. Növbətçi polisi

çağınb onu müvəqqəti saxlama kamerasına aparmağı əmr etdi.

Kapitan Rafael Vəliyev artıq Sabiri dindirmişdi. Göydağ camaatının əsas sürücüsü hesab olunan, hər gün müştərilərini



downloaded from KitabYurdu.org

şəhərə apanb, günorta geri qaytaran Sabir əməliyyat işçisinə bunları söyləmişdi:

- Mən, hər səhər kəndin kənarında maşınımla dayanıb rayon mərkəzinə getmək istəyənləri gözləyirəm. Mayın 18-də dörd-beş sərnişinim var idi. Səfayə də səhər tezdən həmin yerə gəlib çıxdı. Mən onu da şəhərə gətirdim. Birinci dəfə idi ki, o, mənim maşınıma tək minirdi. Ona görə də günorta kəndə qayıdıb- qayıtmayacağını soruşdum. Çünki mən geri qayıdanda bazarın qarşısında dayanıb müştərilərimi gözləyirəm. Bilmək istəyirdim ki, Səfayəni də gözləməliyəm, yoxsa yox? Cavab verdi ki, yox, atamgildə qalacam. Dedim ki, onda sabah qayıtsan, günortaya yaxın bazarın qabağına gəl. Ancaq nə o gün, nə də ondan sonra mən onu görmədim. Səhəri gün Əhliman özü mənimlə şəhərə gəlib, yenə mənimlə kəndə qayıtdı.

Rafael başqa UAZ sürücülərini, bazarda və dayanacaqda bəzi adamları da danışdırmışdı. Səfayədən soraq verən yox idi.

Nəhayət, Səfayə ilə on il bir sinifdə oxumuş Rəhiləni axtarıb tapmışdı. Bu, kəsilmiş qara

saçları çiyninə güclə çatan, boy-buxunlu, ağbəniz bir qadın idi. Xəstəxanada tibb bacısı işləyirmiş.

Rafael onun ünvanını öyrənən kimi birbaş evinə gəlmişdi. Rəhilənin əri işdə idi. Evdə ancaq özü və bir də iki kiçik yaşlı uşağı var idi. Gənc kapitanın nə üçün gəldiyini biləndə,



downloaded from KitabYurdu.org

əvvəlcə Səfayə üçün bərk narahatlıq göstərdi. Özünü ələ alandan sonra Rafaeli evə dəvət edib, oturmaq üçün stul göstərdi və onun sualına cavab olaraq danışmağa başladı:

- Mayın 18-də Səfayə nahardan bir az sonra buraya gəldi. O gün gecə növbəsində olduğum üçün evdə idim. Onu çoxdandı görmürdüm. Mehriban qarşıladım. Oturub çay içə-içə məktəb illərindən danışdıq. Səfayə bizim sinifdə ən ağıllı,

ən tərbiyəli bir qız idi. Özü də həmişə dərs əlaçısı olmuşdu.

Hiss edirdim ki, ona nəsə olub. Söhbətdə yaxşı iştirak edə bilmirdi. Nəhayət, ondan şəhərə gəlişinin məqsədini soruşdum. Ağlamağa başladı. Dedi ki, daha dözə bilmir. Evdən birdəfəlik baş götürüb çıxıb. Sözündən belə başa düşdüm ki, onun Əhlimanla bir evdə yaşaması mümkün deyil. Mənim yanımda bir az qalıb, şəhərdə özünə iş tapmaq istəyirdi...

- Ərindən nə kimi narazılıq edirdi? - Vəliyev onun sözünü kəsdi.

Rəhilə gəlib yanında dayanmış qızının başını sığallayıb:

- Get qardaşınla o biri otaqda oyna! - dedi və yenə üzünü ona diqqət kəsilmiş kapitana tutdu: - Əslində o, ərindən o qədər də narazılıq etmirdi. Necə deyim?.. Deyirdi ki, mən Əhlimanın istədiyi kimi ola bilmirəm.

- Necə yəni? - Rafael gözlərini qıydı.



downloaded from KitabYurdu.org

- Yəni ki, əri bir az, necə deyim, çılğın adamdır. Bu bədbəxt isə çox sakit təbiətlidir. Utancaqdır. Qaradinməzdir. Daha nə deyim?... Elə bil heç bu zəmanənin adamı deyil.

- Sizcə, o, ərini sevir?

- Məncə, hə... - Rəhilə fikrə getdi: - Bəlkə də yox! Səfayə elə söz danışan deyil, ancaq mənə elə gəlir ki, hər halda onun öz ərinə yazığı gəlirdi.

- Sözlərinizdən belə başa düşürəm ki, Səfayənin əks cinsə qarşı münasibəti zəifdir. Düzdür?

- Yox, niyə ki? - Rəhilə gözlərini süzdürdü. - Biz qadınlarda o münasibət heç vaxt zəif olmur. Amma baxır vəziyyətə...

- Ancaq siz ondan kəskin fərqlənirsiniz. - Rafael divanda oturmuş qadının budlarının açıqda qalan hissəsinə göz yetirdi. - Necə rəfiqə olmusunuz, baş açmıram.

- Mən necəyəm ki? - Rəhilə güldü.

- İstiqanlısımz. Həm də çox gözəlsiniz!

- Çox sağ olun! - Rəhilə utancaq gülümsədi. Rəfailin yadına düşdü ki, Əmirəliyev onu

şöbədə gözləyir.

- Hə, söhbətinizi davam etdirin. Sonra nə oldu?

Ev sahibəsi bir az ciddiləşdi:



downloaded from KitabYurdu.org

-	Mən ona nəsihət verdim. Dedim ki, düz eləmirsən. Uşaqların var. Özü də gül kimi uşaqlardır. Onları balaca vaxtlarında görmüşəm. Hə... çox nəsihət verdim. Bir bacı kimi. Ancaq o mənimlə razılaşmadı. Küsüb qapını çırpdı və çıxıb getdi. Mən onu saxlaya bilmədim.

-	Saat neçədə çıxdı sizdən?

-	Necə deyim?.. Saat yeddi olardı.

-	Hansı səmtə getdiyini gördünüzmü?

-	Gördüm. Darvazadan arxasınca baxdım.

Rəhilə rəfiqəsinin getdiyi səmti göstərdi:

-	Bu küçə ilə o tərəfə getdi.

Rafael daha bir neçə sual verib evdən çıxdı. Polis şöbəsinə getmək üçün taksi saxladı. Maşına minən kimi mayor Əmirəliyevə verəcəyi raportu düşünməyə başladı.

Rəhilənin göstərdiyi küçə nə bazara, nə dayanacağa, nə də Səfayənin atasıgilə aparıb çıxarmırdı. Bu küçə ilə gedən adam bir azdan, şəhərin əks kənarına çıxmalı idi. Orada isə köhnə şəhər qəbiristanlığı, qəbiristanlıqdan o tərəfdə isə iri bir göl var idi...

Sahə müvəkkili Ağamurad Miriyev səhər tezdən Göydağ kəndinə gəldi. Onun kəndə gəlməsindən icra hakimiyyəti nümayəndəsinin də xəbəri yox idi. Səhərin ala-toranlığında



downloaded from KitabYurdu.org

Ağamuradı kəndin küçələrində görənlər o qədər də təəccüblənmirdilər. Çünki baş leytenantın hərdən belə işləri olurdu. Artıq o bir neçə adamla söhbət etməyə də imkan tapmışdı. Adamlarından biri xəlvətcə ona çatdırmışdı ki, Mahmud öldürülən axşam dərəçaylı Mirsahib buraya gəlibmiş. Onu saat doqquz radələrində, havanın təzəcə qaralmağa başladığı vaxt kəndin küçəsində görmüşdülər. O, Mahmudgilin küçəsindən keçib gəlirmiş...

Ağamurad tənbəllik etməyib, Dərəçaya yollandı. Mahmudun açıq darvazasının qabağından keçəndə həyətə boylandı. Həyətdə tək-tək adam görünürdü. Günorta veriləcək ehsana hazırlıq görülürdü. Miriyev orada ləngimədi. Kənddən çıxaraq meşə cığırına düşdü və bir azdan Dərəçaya yetişdi. Maraqlanıb öyrəndi ki, Mirsahib həmin axşam evdən saat 8-də çıxıb, Göydağa -Ağayargilə gedəcəyini deyib. Mirsahib evdə olmadığı üçün arvadına tapşırdı ki, evə qayıdan kimi, sahə müvəkkilinin onu Göydağda gözlədiyini desin.

Geri qayıdanda Miriyev hər ehtimala qarşı saata baxdı və tələsmədən meşə yolu ilə qalxmağa başladı. Meşə cığırı iki talanın içindən keçirdi. Birinci talada qabağına yekə bir dovşan çıxdı. Cəld tapançasını çıxarıb, ondan qorxub qaçan dovşana dalbadal iki güllə atdı. Ancaq gec idi. Dovşan artıq kolların arasında görünməz olmuşdu. Ağamurad onun qarasına yağlı bir



downloaded from KitabYurdu.org

söyüş söyüb yoluna davam etdi. İkinci tala Göydağ kəndinə çataçatda idi. Bu taladan sonra gələn kolluqların arası ilə azacıq gedəndən sonra kəndə daxil olurdun.

Ağamurad, kəndə çatan kimi, bir də saatına baxdı. O, iki kənd arasındakı yolu iyirmi dəqiqəyə gəlmişdi. Mirsahibin isə öz evindən çıxması ilə Göydağın küçələrində görünməsi arasında bir saat vaxt keçmişdi. Belə çıxır ki, Mirsahib yolüstü Mahmudgilə girib, hətta orada 30-40 dəqiqə qala bilərdi.

Mirsahib 45 yaşında, hündür, anq, günəşdən qapqara qaralmış, səliqəsiz görkəmli bir adam idi. Oğurluq və xuliqanlıq üstündə iki dəfə azadlıqdan məhrum edilmişdi. İndi də gah mal-qara otarır, gah odun satır, ümumiyyətlə birtəhər ailəsini saxlayırdı. Kəndlərində çox az adamla oturub-dururdu. Daha çox özündən iyirmi yaş kiçik Ağayarla yoldaşlıq edirdi. Mahmud bununla əlaqədar bir neçə dəfə qardaşını danlamışdı. Demişdi ki, yoldaşlıq edirsən, tay-tuşunla et. Ancaq Ağayar onu eşitməmişdi.

Ağamurad gəzintisini bitirib, çay içmək üçün Mehdixan kişinin evinə gəldi. Həyətdəki stolda yenə süfrə açılmışdı. Ev sahibi, Qanbay Qasımlı, Mahir, Nemət əyləşib səhər yeməyi ilə məşğul idilər. Sahə müvəkkili həyətə girən kimi ucadan səsləndi:

- Gəlmək olar, ağsaqqal?



downloaded from KitabYurdu.org

- Gəl görək, ay Ağamurad, xoş gəlmisən! - Ev sahibi ayağa qalxıb ona oturmaq üçün yer göstərdi.

Agamurad əyləşən kimi, onun üçün çay gətirdilər. Sahə müvəkkili yağı, pendiri qabağına çəkib iştahayla yeməyə başladı. Qasımlı çayını içib stulunu bir qədər geriyə çəkdi və siqaret yandırdı.

- Qonaqlannla heç tanış etmədin, ağsaqqal!? - Miriyev ev sahibinə baxdı.

Mehdixan kişi əlini əvvəlcə Nemətə uzatdı:

- Neməti, yəqin ki, görmüsən, kürəkənimdi. Bunlar da onun iş yoldaşlarıdır. Müxbirdirlər.

Qasımlı Nemətdən xahiş etmişdi ki, onun kimliyini kənddə heç kəsə deməsinlər. O, burada olacağı bir həftə müddəti sakit istirahət etmək istəyirdi. Nemət, söz yox ki, Qasımlı ilə Mahiri qayınatasının ailəsinə düzgün təqdim etmişdi. Ancaq eyni zamanda, o da xahiş etmişdi ki, maraqlananlara dostlarını jurnalist kimi tanıtsınlar.

- Vəziyyət nə yerdədir, Ağamurad? İşlər necə gedir? - ev sahibi Miriyevin yeməyə ara verdiyini görüb soruşdu.

Sahə müvəkkili çayından bir qurtum içib danışmağa başladı:

- Srağagün meyiti ekspertizaya apardım axı?! Onu yanblar. Həkimin fikrinə görə, hadisə gecə saat ıo radələrində olub. Bıçaq düz üç



downloaded from KitabYurdu.org

santimetr ürəyə işləyib. Mərhum bu zərbədən dərhal ölüb.

Burada söhbətini kəsib, Nemətlə Mahirə nəzər saldı. Ona diqqətlə qulaq asdıqlarını görüb daha da həvəslə danışmağa başladı. Ancaq bu zaman, yaxşı ki, polkovnikin istehza ilə gülümsədiyini görmədi.

- Mahmud günortadan sonra heç nə yeməyib. Azacıq duzlu xiyardan başqa. Arağı da özü içibmiş. Əmirəliyev öyrənib ki, mərhum axşam yeməyini saat 8-lə 9 arasında yeyirmiş. Yəqin, çağırılmamış qonaq həmin radələrdə gəldiyi üçün özünə yemək hazırlamaq imkanı olmayıb. Ancaq, bu duzlu xiyarla araq məsələsi bir az qaranlıqdır.

- Deməli, hələ kələfin ucu tapılmayıb? - Mehdixan kişi dilxor halda soruşdu.

- Ucu, deyəsən, tapılıb. - Miriyev xüsusi əda ilə dilləndi. - Kələf özü çox dolaşıq olmasa yaxşıdır. Bayəddini tutublar axı!?...

- Bilirəm... - Mehdixan kişi başını tərpətdi. - Nə deyir o?

- Əmirəliyevə çatdırıblar ki, onun maşını 18-i axşamüstü, meşə yoluna girən yerdə, üzü kəndə tərəf dayanıbmış. Həmin adam da öz maşını ilə gəlirmiş. Görüb ki, maşın dayanıb. Bayəddin isə kapotu açıb maşınla əlləşir. Bu vaxt maşının arxadakı qapılarının biri açıq imiş.



downloaded from KitabYurdu.org

Sonra birdən qapı örtülüb. Ancaq həmin adam maşına yaxınlaşanda, içinə baxsa da heç kimi

görməyib. İndi Bayəddin sərnişininin olduğunu boynuna almaq istəmir. Axşam kamerada özünü boğmaq istəyirmiş. Qoymayıblar. - Miriyev birdən yanındakı qonaqların jurnalist olduğunu xatırlayıb, sözünü dəyişdi: - Ümumiyyətlə, yaman şübhəli işdir...

- Əhlimanın arvadından bir xəbər öyrənə bilmişən? - Mehdixan kişi də söhbəti dəyişməyi məqsədəuyğun saydı.

- O işlə kapitan Vəliyev məşğuldur. Deməli, bu qadın əvvəl atasıgilə gedib. Atası ona geri qayıtmağı məsləhət görəndən sonra acıq edib oradan çıxıb. Keçmiş rəfiqəsinin evinə gedib. O da bunu evində saxlamaq istəməyib. Oradan çıxandan sonra haraya getdiyi məlum deyil.

- Ay zalımın qızı! - Mehdixan kişi hirslə əlini dizinə vurdu. - Evini, uşaqlarını atıb nə düşmüsən bu qapılara?

Mahir söhbətə qarışıb Ağamurada sual verdi:

- Deməli, Mahmudun ölümündə Bayəddinin naməlum sərnişinindən şübhələnirlər?

- Hə, əlbəttə! Ancaq... - Miriyev sözünə ara verib üzünü Mehdixan kişiyə tutdu. - Ağsaqqal, deyəsən kələfin əsl ucunu tapmışam. Dərəçayda Mirsahib var ha, bax o, Mahmud öldürülən axşam burada olub. Ağayargilə gedirmiş. Mən



downloaded from KitabYurdu.org

öyrəndim ki, evlərindən saat təxminən 8-də çıxıb. Burada küçədə isə saat 9-da görüblər onu. Dərəçaydan buraya 20 dəqiqəlik piyada yolu var.

Bəs qalan 40 dəqiqə? Lap olsun yanm saat! Bu yarım saatda o harada olub?!

- Bəlkə Ağayargildə olub? - İcra nümayəndəsi öz fikrini bildirdi.

- Yox, ağsaqqal, saat 9-da onu elə yerdə görüblər ki, Mahmudgilin evini artıq arxada qoyub keçibmiş və Ağayargil tərəfə gedirmiş.

- Hə... Bu başqa məsələ! Özü nə deyir?

- Özünü hələ danışdırmamışam. Buraya, idarəyə gələcək özü. Tapşırmışam. Həm də, - Miriyev səsini alçaltdı. -Onun boyu-buxunu da Əhlimanın pəncərədə gördüyü kölgənin əlamətlərinə uyğun gəlir. O demişdi axı!., kölgə arıq, uzun adamın kölgəsi olub.

- Nə kölgə? - deyə Mahir maraqlandı və Qasımlıya baxdı. Qasımlı sakitcə siqaretini çəkirdi. Deyəsən onu heç nə maraqlandırmırdı.

Ağamurad üzünü Mahirə çevirdi:

- Mahmudun qonşusu Əhliman həmin axşam, yəni Mahmud öldürülən gecə mərhumun evinin küçəyə baxan



downloaded from KitabYurdu.org

pəncərəsində yad adamın kölgəsini görüb. Kölgə anq, uzun adamın kölgəsi imiş.

- Deməli həmin kölgə qatilin kölgəsi imiş. - Mahir fikrini qətiləşdirdi. - Buna şübhə ola bilməz! Ancaq siz Bayəddinin sərnişini ilə bu kölgə arasında nə əlaqə görürsünüz? Biz həmin gün, günorta gəzintidən gələndə Mahmudu gördük. O, hamam tikirdi. Bizi evə dəvət etdi. Biz

razılaşmadıq. Mənim fikrimcə, onda onun heç bir qonağı yox idi.

- Bilmirəm, hər halda, hər şey aydın olacaq. - Miriyev içib boşaltdığı stəkanı kənara itələdi. - Təhqiqatı Telman müəllim apanr. Söz yox ki, Əmirəliyev çox bacarıqlı əməliyyatçıdır. Ancaq mənə elə gəlir ki, bu işi mən özüm açacağam. Qoy hələ bir Mirsahib gəlsin!..

- Siz nə üçün əməliyyat-axtarış işinə keçmirsiniz? - Mahir soruşdu və gizlicə Qasımlıya baxdı.

- Elə bir fikrim var, əgər alınsa... - Miriyev cavab verdi. - Orada bəzən elələri işləyir ki, nə mənim qədər biliyi yoxdur, nə də təcrübəsi! Mənim kriminalistikaya xüsusi marağım var.

Silahlardan isə daha yaxşı başım çıxır. Məsələn, bu hadisə tapança ilə törədilsə idi, şəxsən mən bu barədə daha çox şey deyə bilərdim. Elə atmağı da yaxşı atıram. İnanmıram, şöbədə mənim kimi sərrast atıcı olsun.



downloaded from KitabYurdu.org

Nemət elə bil Ağamuradın əvəzinə utandı və özünü bir qədər naqolay hiss etdi. Necə olmasa, Ağamurad bu evə gəlib-gedən adam olmuşdu və qayınatasının yaxın adamı idi. Dönüb Rusiyada Baş cinayət-axtarış idarəsində işləyərkən atıcılıq üzrə ölkə çempionu olmuş və məhkəmə ballistikasından kitab yazmış Qanbay Qasımlıya baxdı.

Polkovnikin nə düşündüyünü üzündən bilmək olmurdu. Siqaretini çəkib kötüyü kənara

tulladı. Deyəsən, ayağa durmağa hazırlaşırdı. Birdən nə düşündüsə, Ağamuraddan tapançasını istədi.

- Sadəcə, baxmaq istəyirəm! - dedi. Ağamurad həvəslə tapançasını çıxanb bu

qaradinməz «Jurnalist»ə uzatdı. Qasımlı silahı bir qədər əlində tutub sahibinə qaytardı.

- Tapançanızda dörd güllə var! - deyib ayağa qalxdı.

Ağamurad tapançasını qoburuna qoyub, təəccüblə ona baxdı:

- Hə?.. Düzdür. İkisini indi buraya gələndə meşədə dovşana atmışam. Siz bunu necə bildiniz axı?

Qasımlı:

- Əlbəttə, ağırlığından! - dedi və dönüb həyətin aşağısmdakı heyva ağacına doğru getdi.



downloaded from KitabYurdu.org

Gülməyini güclə boğub saxlayan Mahir cəld ayağa qalxıb, stolun kənarına qoyulmuş şahmat taxtasını götürdü və onun arxasınca yollandı.

- Bu kimdir? - hələ də özünə gələ bilməyən Ağamurad ev sahibinə baxdı.

- Demədim jurnalistdir? - Mehdixan kişi güldü. - Ancaq deyəsən, əvvəl hərbçi olub.

Mahir isə heyva ağacının altında gülməkdən uğunub getmişdi:

- Ancaq sərrast atıcımız dovşanı vura bilməyib ha, Qanbay müəllim, vursaydı, hər halda, meşədə qoyub gəlməzdi!

Qasımlı gülümsəyib başını buladı. Heç nə demədən fiqurları şahmat taxtasına düzməyə başladı.

Ağayar səhər evdən çıxıb, bugünkü ehsan mərasimini yola vermək üçün, Mahmudun həyətinə getmişdi. Qənirə isə hələ evdə idi. Uşaqlann səhər yeməyini verib, o da oraya gedəcəkdi. Yeməyi qurtaran kimi süfrəni yığışdırdı. Həyətə düşüb, axşamdan yuyub məftildən asdığı paltarları yığışdırmağa başladı.

O bu həyətdə axırıncı günlərini keçirdiyini duyduqca fərəhlənirdi. Mahmudun yeddisi çıxan kimi oraya köçməli idilər. Qənirə artıq bu barədə ərinin razılığını almışdı.

Həyət darvazasının cırıltısı eşidildi. Qənirə çevrilib baxanda qonşu Məsmə arvadın həyətə girdiyini gördü. O, Qənirənin ən



downloaded from KitabYurdu.org

yaxın qonşusu, həm də ata tərəfdən qohumu idi. Əri İbrahim kişi ilə tək yaşayan Məsmənin övladı yox idi. Bütün dərdini-sərini həmişə Qənirə ilə bölüşürdü. Elə Qənirə özü də Məsmə arvaddan sirr saxlamırdı.

- Sabahın xeyir, Qənirə! Hələ getməmisən hüzr yerinə?

- Aqibətin xeyir, Məsmə xala! Bu saat gedirəm. Uşaqlara yemək verirdim.

Məsmə arvad gəlib həyətə qoyulmuş kobud taxta kətilin üstündə oturdu.

- Ağayar gedib?

- Hə, oradadı...

- Allah ona səbir versin! Qardaş itkisi yaman şeydi.

- Allah köməyin olsun! - Qənirə axırıncı paltarı da götürüb evə keçdi və paltarları çarpayının üstünə atıb, geriyə qayıtdı.

- Ağayar nə danışır, ay Qənirə? - Məsmə arvad maraqla sual verdi. - Hələ bilinmir ki, o bədbəxti kim öldürüb?

- Yox, bilinmir...

- Yazıq Mahmud! - Məsmə arvad ürəkdən ah çəkdi. - Xəbərsiz köçdü bu dünyadan. Tək tənha! Deyir hamam tikirmiş tifil. Yarımçıq qalıb. Görüm əli qurusun ona əl qaldıranın!

- Amin! - Qənirə köksünü ötürdü.



downloaded from KitabYurdu.org

- Ağayara yazığım gəlir, vallah! Hər dəfə o evə, o həyətə baxanda yanıb töküləcək. Ata əvəzi idi Mahmud onun üçün. Böyük qardaş idi.

- Eh, ay Məsmə xala, - Qənirə başını buladı. - Guya özün bilmirsən, hər qardaş da qardaşlıq eləmir axı?! Ağayar onu necə çox istəyirdi, mən bilirəm. Ancaq Mahmud, bir söz demirəm ha, Allah ona rəhmət eləsin, qardaşlıq eləmirdi axı...

- Yenə həyəti deyirsən? - Məsmə arvad ona məzəmmətlə baxdı.

- Hə, lap həyəti deyirəm! - Qənirə birdən səsini alçaltdı. - Öz aramızda qalsın, Ağayar həmin gün, günortadan bir az sonra qardaşının yanma getmişdi. Yalvanb ki, ay qardaş, nə olar, həyətin yarısını kəs ver. Mən də qardaşınam axı gəlim ağaclara qulluq edim. Meyvəsindən satım dolanım. Razı olmayıb. Bu da hirslənib gəlmişdi. Allah haqqı, hirsindən az qalırdı ürəyi partlasın. Onun qarasına deyinirdi. İndi də onu ürəyinə vurur ki, niyə qardaşımın qanını qaraltmışam. Deyir, torpaqdır da, vermirdi, verməyəydi, təki canı sağ olaydı. Görürsən də, Allahın işini?! Bilmək olmur ki, sabah başına nə gələcək. Adam gərək bu gününü də fikirləşə. İndi bax, yenə Ağayar qədər ona canı yanan yoxdur. Deyir onun qatili tapılan kimi, nə yolla olur olsun, öldürəcəm onu!

- Deyirsən, höcətləşmişdi qardaşı ilə? - Məsmə arvad maraqla Qənirənin üzünə baxdı.



downloaded from KitabYurdu.org

- Hə də!.. Bir az. Ağayan tanımırsan? Hirslənir, ağzına gələni deyir, hirsi soyuyan kimi də peşman olur.

- Ondan sonra daha görməyib ki Mahmudu?

- Yox, görməyib.

- Axşam öldürüblər deyir yazığı. Ağayar yanında olsaydı, kim cəsarət edib ona əl qaldırardı? - Məsmə arvad öz sualına özü cavab verdi: - Heç kim!

- Hə, axşam Ağayar evdə idi. Dərəçaydan Mirsahib gəlmişdi. Yeyib-içdilər. O gedəndən sonra Ağayar yatağına girib yatdı.

- Nə əcəb gəlmişdi Mirsahib?

- Elə-belə, həmişə gəlmir?

Bu vaxt bir uşaq həyət qapısından Qənirəni səslədi:

- Qənirə xala, Ağayar dayı dedi ki, gəlsin!

- Yaxşı, gəlirəm! - Qənirə uşağa cavab verib, üzünü qonşusuna tutdu: - Mən gedim, görək neyləyirik?! Sən də gedirsən, Məsmə xala?

- Sən get, Ağayar gözləyir. İbrahim də oradadır. Mən bir azdan gəlib nə lazımdı kömək edəcəm.

Qənirə Məsmə arvadı yola salıb evə girdi. Onun heç ağlına da gəlmədi ki, ən yaxşı sirdaşı olan Məsmə arvadı onun yanma polis sahə müvəkkili Miriyevin xahişi ilə İbrahim kişi



downloaded from KitabYurdu.org

göndərib. Bu xahişi Ağamurad da öz başından etməmişdi. Ona bu barədə mayor Telman Əmirəliyev göstəriş vermişdi.

Ağamurad Mehdixan kişinin həyətində səhər yeməyini yeyib, çaymı içəndən sonra, qalxıb kəndin mərkəzində yerləşən icra nümayəndəliyinə getdilər. Mirsahib idarənin qarşısındakı skamyada oturmuşdu. Ayağa qalxıb, Ağayarın evində bir süfrə arxasında oturub çörək kəsdiyi Ağamurada ərkyana əl uzatdı. Sahə müvəkkili onun salamını çox soyuq aldı. Sadəcə:

- Gəlmisən? - deməklə kifayətləndi.

Bir az pərt olan Mirsahib kənara çəkildi. İcra nümayəndəsi kabinetini açıb Ağamuradı içəri dəvət etdi. Ağamurad kabinetə girib stolun arxasında əyləşdi. Portfelindən kağız və qələm çıxarıb Mirsahibi otağa çağırdı. Mirsahib keçib göstərilən yerdə - divar boyu düzülmüş stulların birində oturdu. Miriyev onun ordları batmış tüklü üzünü, çirkli köynəyinin açıq yaxasından görünən tüklü sinəsini, iri sümüklü arıq bədənini bir qədər mənalı baxışlarla süzüb birbaşa mətləbə keçdi:

- Mirsahib, ayın 19-da, axşam buraya gəlmisən?

- Bəli, gəlmişəm! - Mirsahib başı ilə də təsdiq etdi. - Ağayargilə gəlmişəm. Gəldim, oturub bir az söhbət elədik, yedik-içdik, çıxıb getdim. Nədir, yoxsa məndən şübhələnirsiniz? Mən axmaq deyiləm, Ağamurad!



downloaded from KitabYurdu.org

- Saat neçədə çıxmışdın Dərəçaydan? - polis sahə müvəkkili onun sözlərini qulaqardına vurub sual verdi:

- Saat səkkiz olardı...

- Bəs buraya saat neçədə çatmısan? Yəni Ağayargilə!

- Nə bilim? Mən saatla hərəkət eləmirəm ki?!

- Bu nə sözdür? - Miriyev səsini qaldırdı.

- Ağamurad, öz aramızdı, elə danışırsan, adamın gülməyi gəlir. Mən hər addım atanda saata baxmıram ki, görək bu addımı saat neçədə atdım?

- Ancaq mən sənə deyərəm! Sən saat 9-da olmusan burada. Səni görən olub. De görək, necə

olub ki, iyirmi dəqiqəlik meşə yolunu bir saata gəlmisən?

Mirsahib bir anlıq duruxdu. Bu hal nə sahə müvəkkilinin, nə də Mehdixan kişinin gözündən qaçmadı.

- Mən yavaş-yavaş gəlmişəm. - nəhayət, deməyə söz tapdı. - Üstəlik, Göydağa az qalmış, ikinci talada oturub dincəlmişəm.

- Yarım saat? - Ağamurad istehza ilə güldü.

- Lap yanm saat! - Mirsahib bir qədər sərt cavab verdi.

- Mirsahib, gəl yalanı qoy kənara. Sən Mahmudun evində olmusan. Səni hətta onun evində görən olub.



downloaded from KitabYurdu.org

- Məni onun evində necə görə bilərlər? Kim görüb, gəlib üzümə desin!

- Sübut elə ki, onun evində olmamısan! Yarım saat vaxtı harada olduğunu de və sübut elə!

Mirsahib rişxəndlə başını buladı:

- Uşaq kimi danışma! Qanuna görə, nəyisə sübut etmək mənim borcum deyil. Sən sübut elə ki, mən onun evində olmuşam.

- Mənə qanun öyrədirsən? - Miriyev sərt dilləndi.

- Ağamurad, özün bilirsən ki, iki dəfə yatıb- çıxmışam. Məni aldadıb, dolaşdıra bilməzsiniz. Gedin, cinayətkan başqa yerdə axtarın!

Sahə müvəkkili kağız və qələmi yenidən portfelə qoydu.

- Çıx çölə! Ancaq buralarda ol, uzağa getmə!

- Mən yas mərasiminə getmək istəyirəm. - Mirsahib qapının ağzında geri dönüb bildirdi.

- Yaxşı, get!

Mirsahib çıxandan sonra, sahə müvəkkili nümayəndəliyin telefonu ilə rayon polis şöbəsinə zəng vurdu. Kənddə cəmi iki yerdə telefon var idi. Biri nümayəndəlikdə, biri də Mehdixan kişinin öz evində. Kənd rayon mərkəzindən uzaq olduğu üçün burada mobil telefonla danışmaq mümkün deyildi. Ona görə



downloaded from KitabYurdu.org

də yalnız həmin iki kabel telefonu, lazım olanda, kənd camaatının işinə yarayırdı.

Ağamurad şöbədən maşın istəyib dəstəyi yerinə qoydu və Mehdixan kişiyə dedi:

- Bunu aparmalıyam şöbəyə!

- Özün bilərsən! - Mehdixan kişi qısa cavab verdi.

- Ancaq Ağayara da baş çəkmək istəyirəm. Bəlkə özüm gedim evlərinə?

- Ağayar indi yas mərasimində olmalıdır. Bu gün rəhmətlik qardaşının üçüdür axı?! Bir azdan durub gedərik. Həm Ağayarla söhbət edərsən, həm də başsağlığı verərik.

Yas mərasiminə Əhliman rəhbərlik edirdi. Cavan uşaqlara müxtəlif tapşırıqlar verir, ora- bura qaçırırdı. Ağayar isə çəkilib bir kənarda oturmuşdu. Bir-iki nəfər də başına yığışıb nədənsə söhbət edirdilər. Mirsahib də onların arasında idi.

Ağamurad Əhlimanla görüşəndən sonra Ağayarı bir kənara çəkib ondan hal-əhval tutdu. Qardaşının faciəli ölümünə görə başsağlığı verdi. O, bu kəndə işləməyə gələndən Ağayarla tanış olmuşdu və söhbətləri həmişə tuturdu. Mehdixan kişinin süfrəsində ürəyi istədiyi qədər araq içə bilmədiyi üçün, kənddə nahar vaxtına düşəndə özünü bir bəhanə ilə Ağayargilə verirdi. Ağayarın süfrəsində isə araq həmişə bol olurdu.



downloaded from KitabYurdu.org

Miriyev Ağayardan öyrəndi ki, Mirsahib onun evinə hava qaralanda gəlib və bir saatdan artıq oturub, sonra çıxıb gedib. Mərhumun qardaşına bir daha başsağlığı verib, Mehdixan kişi ilə küçəyə çıxdı. Yavaş-yavaş nümayəndəliyə tərəf getdilər. İdarənin qarşısında polis şöbəsinə məxsus «UAZ» dayanmışdı. Sahə müvəkkili küçədən keçən bir uşağa Mirsahibi çağırmağı tapşırdı.

Mirsahib gələn kimi Ağamurada sataşdı:

- Nədi, Ağamurad, istintaqın qurtarmadı?

- Gəl otur maşına, şöbəyə getməliyik! - Ağamurad sifətini ciddiləşdirdi.

- Niyə?

- Rəis tapşırıb!

- Nə deyirəm, gedək! Ancaq onu da deyim ki, mən sizə heç bir ifadə verməyəcəm.

- Yaxşı, zarafatı burax, keç maşına!

Mirsahib maşına minən kimi, Ağamurad da icra nümayəndəsi ilə sağollaşıb, sürücünün yanında əyləşdi. Maşın yola düşdü. Mehdixan kişi bir müddət maşının arxasınca baxdı. Sonra isə dönüb, tələsmədən ehsan verilən həyətə doğru addımladı.



downloaded from KitabYurdu.org

# II HİSSƏ

Müstəntiq Zeynalov rayon polis şöbəsinin istintaq otağında oturub Bayəddinin istintaqa gətirilməsini gözləyirdi. Yaman fikirli və yorğun görünürdü.

Axşam, rayonun prokuroru Mahmudun sirli qətli ilə bağlı vacib şəxslərin hamısını kabinetə yığmışdı. Şöbənin rəisi Xəlilov da orada idi. Müşavirə çox gərgin keçdi. Bayəddinin müvəqqəti saxlama kamerasında özünə qəsd cəhdi ilə əlaqədar Əmirəliyev xeyli məzəmmət edildi. Mayor burada da öz xarakterinə sadiq qalıb prokurora etirazını bildirdi:

- Bayəddin, ən azı, istintaqa yalan ifadə verməkdə günahkardır. Kəndə apardığı adamın kim olduğunu demək istəmir. Bəlkə onun başını tumarlamalı idim?!

Prokuror onu sakitləşdirib, çox təmkinlə cavab verdi:

- Telman, sən əslində pis oğlan deyilsən. Bilirəm ki, təmiz adamsan. Çirkin işlərlə aran yoxdu. Ancaq belə işləmək olmaz. İndi əvvəlki zəmanə deyil. Hamı öz hüququnu başa düşür və onu müdafiə edir. Yadında saxla ki, qarşındakı adam lap cinayətkar olsa da, onu cəzalandırmaq sənin vəzifənə aid deyil. Bu məhkəmənin işidir!

Baş vermiş qanlı cinayət çox geniş müzakirə ediləndən sonra iş müstəntiqin icraatına verildi və ibtidai istintaq aparmaq Zeynalova həvalə edildi. Şübhəli şəxs qismində hələlik iki nəfər - Bayəddin və Mirsahib dindirilməli idi.



downloaded from KitabYurdu.org

Müşavirədə, həmçinin Əhlimanın Xəlilova yazdığı ərizəsi də müzakirə olundu və qərara gəlindi ki, Mahmudun öldürülməsi ilə Səfayənin itkin düşməsi arasında, əslində, heç bir əlaqə yoxdur. Yoxa çıxmış qadının axtarışı bir daha mayor Əmirəliyevə tapşırıldı.

İndi istintaqı aparmalı olan müstəntiq Zeynalovun qarşısında mütləq cavab tapılmalı bir-neçə sual dururdu. Birincisi, Bayəddin 18 may gecəsi kəndə kimi aparmışdı? İkincisi, həmin şəxs axtarılan qatilin özüdürsə, Mahmudun öldürülməsinə qədərki bir sutka vaxt ərzində o harada olmuşdu? Üçüncüsü, Mirsahib sahə müvəkkilinin göstərdiyi həmin yanm saat müddətində harada və nə işlə məşğul olmuşdu? Onun Bayəddinin sirli və naməlum sərnişini ilə əlaqəsi varmı? Və nəhayət, Əhlimanın cinayət baş verən gecə Mahmudun pəncərəsində gördüyü kölgə kimin olmuşdur?

Əslində, bütün şübhə və xəyallar həmin sirli kölgənin başında fırlanırdı. Zeynalov isə qəti inanırdı ki, Mahmudu məhz həmin kölgənin sahibi öldürmüşdü.

O, Bayəddin barədə də çox düşünürdü.

Bütün vasitələrə əl atılmasına baxmayaraq, şübhəli sürücü həmin gecə maşınında kiminsə olduğunu boynuna almırdı. Bəlkə doğrudan da o, həmin uğursuz gecədə kəndə tək getmişdi? Bəlkə Cavanşir adlı o cavan sürücü səhv edir, ya bəlkə bilərəkdən yalan danışır? Yox, əgər Bayəddin doğrudan



downloaded from KitabYurdu.org

da tək olmamışdısa, onda belə bir fikir yaranır ki, onun sərnişini olmuş adam olduqca qorxulu və təhlükəli bir adamdır. Yoxsa Bayəddin onun adını belə cəhdlə gizlətməz, istintaqdan canını qurtarmaq üçün özünü öldürməyə cəhd göstərməzdi.

Müstəntiq Zeynalov bütün bu qaranlıq məqamları işıqlandırmalı, tezliklə cinayətkarı tapıb üzə çıxarmalı idi.

Növbətçi polis işçisi Bayəddini gətirib istintaq otağına saldı və özü geri qayıtdı.

Bayəddin iki gündə arıqlamış, üzünün rəngi sol¬muş, bir sözlə, tanınmaz hala düşmüşdü.

Zeynalov ona əyləşmək üçün yer göstərib, siqaret təklif etdi. Şöbədə olduğu müddətdə o dünyanı görüb gəlmiş sürücü oturan kimi siqareti damağına qoyub acgözlüklə çəkməyə başladı. Ürəyində sevinirdi ki, onu müstəntiq Zeynalov danışdıracaq. Əmirəliyevlə bir daha üz- üzə gəlməyi qətiyyən arzulamırdı. İki gecə idi ki, yuxuda gah mayorun qəzəbli sifətini görüb, «Kim idi o» sualını eşidir, gah da həmin qaniçən, əclaf adamın bıçaq kimi kəsən soyuq baxışlarını görüb, «Oğlunun başını kəsəcəyəm!» sözlərini eşidirdi. Bir daha qəti qərara gəlmişdi ki, o gecə sərnişininin kim olduğunu dilinə gətirməyəcək: «Onsuz da bunlar o zəhərli ilanı ifşa edib tuta bilməyəcəklər. Məni öldürəcəklərsə də, qoy öldürsünlər!»

- Bundan sonra istintaqı mən aparacağam.



downloaded from KitabYurdu.org

- Zeynalovun səsi onu fikirdən ayırdı. Vəkil dəvət olunmasını istəyirsənmi?

- Yox! - Bayəddin etiraz etdi. - Vəkilin mənə nə xeyri olacaq ki?..

- Yaxşı!., sən deyirsən ki, mayın 18-də axşam Mahmudgilə tək getmisən. Eləmi? Ancaq təsdiq edirlər ki, həmin vaxt sənin maşınında bir nəfər kənar adam olub. Sən niyə axı, bunu boynuna almaq istəmirsən? Düşünmürsən ki, bununla özünü dolaşdınb bataqlığın içinə salırsan?

Bayəddinin barmaqları arasında tutduğu siqaretin külü stolun üstünə töküldü. O biri əli ilə külü təmizləyib, yenə başını aşağı dikdi. Müstəntiq yenə də təmkinlə onu yola gətirməyə çalışdı:

- Baxmayaraq ki, burada sənin cinayətlə birdaşa əlaqəndən şübhələnirlər, söz verirəm, həmin adamın kimliyini desən, səni bu gün evə buraxacam!

- Əgər Cavanşir həmin adamı görübsə, özü desin də! Daha məni niyə incidirlər? - Bayəddin başını qaldırmadan dilləndi.

Zeynalov başını bulayıb gülümsədi:

- Gəl, səninlə səmimi danışaq! Kişi kimi! Cavanşir həmin adamın üzünü görməyib. Amma o görüb ki, sənin maşınının arxadakı sol qapısı açıq imiş. Kimsə, arxa oturacaqda oturan adam əlini uzadıb qapını örtüb. Həmin anda sən maşının qarşısında imişsən. İndi deməyəcəksən ki, qapını külək örtüb?



downloaded from KitabYurdu.org

Desən, mən də deyəcəyəm ki, həmin gün küləkli hava olmayıb. Hə, danış, Bayəddin! Heç kimdən də qorxub çəkinmə!

Bayəddin çəkib qurtardığı siqaretin kötüyünü külqabıya basıb söndürdü. Başını qaldırıb müstəntiqə baxdı. Elə o saat da baxışlarını onun iti nəzərlərindən yayındırmağa çalışıb qarşısındakı külqabıya dikdi və beləcə də danışmağa başladı:

- Mən o adamı tanımıram.

- Deməli o gecə maşınında sərnişinin olduğunu boynuna alırsan!? - müstəntiq qalib nəzərlərlə ona baxıb, stulda yerini rahatladı: - O necə adam idi?

- Orta yaşlı, başı qabaq tərəfdən keçəlləşmiş, qalın bığlı bir kişi idi. Dayanacaqdan bir qədər kənarda məni saxladı və Göydağa aparmağı xahiş etdi. Mən onu heç vaxt görməmişdim. Bura adamına oxşamırdı. Aparıb Mahmudgilin darvazasının qarşısında düşürdüm. O saat da yol haqqımı alıb geri qayıtdım.

Bu vaxt otağın qapısı açıldı və Ağamurad başını içəri saldı.

- Gəl içəri, Miriyev! - Müstəntiq onu otağa dəvət etdi. - Bayəddin axır ki, ağıllı qərara gəlib.

Gəl otur, qulaq as!

Sahə müvəkkili stul çəkib əyləşən kimi Zeynalov yenə üzünü Bayəddinə tutdu:



downloaded from KitabYurdu.org

- Heç nə danışmadınız yolda? Bu naməlum adam demədi ki, Mahmudun evinə niyə gedir?

- Yox, heç nə danışmadıq...

Zeynalov bacardığı qədər səbirli olmağa

çalışdı:

- Bu bir qədər düz çıxmayır axı?! O adamı tanımırsan. Yolda heç nə danışmamısmız... Bəs niyə indiyə qədər deyirdin ki, kəndə tək getmisən? Belə çıxır ki, sən həmin adamı tanıyırsan!

- Yox, tanımıram!

- Bəs tanımadığın adamı niyə gizlədirdin? Niyə istintaqa yalan ifadə verirdin?

Bayəddin bir az fikirləşib, axır ki, dilləndi:

- O məni hədələdi. Dedi ki, əgər onu satsam, oğlumun başını kəsəcək!

- O haradan bilirdi ki, sənin oğlun var? - müstəntiq Bayəddinə tərəf əyilib onun gözlərinin içinə baxdı.

- Dedi də, nə bilim... Soruşdu, mən özüm dedim ki, oğlum var.

- Deməli, oğluna görə satmaq istəmirdin onu?

- Hə...



downloaded from KitabYurdu.org

- Bəs oğluna yazığın gəlmir daha? Axı artıq sən onu satdın!? Bax, Miriyev də şahiddir.

Özünü itirmiş sürücü başını qaldırıb heyrətlə müstəntiqə baxdı:

- Mən ki, onun kimliyini demədim!?

Müstəntiq Zeynalov əlini stola vurdu:

- Görürsən, özün etiraf elədin ki, onun kimliyini bilirsən, ancaq qorxudan demirsən!

Artıq söz danışdığını başa düşən Bayəddin baxışlarını endirib, başını əlləri arasına aldı:

- Mənim Mahmudun öldürülməyində heç bir günahım yoxdur! O bədbəxt oğlunu həmin gecə yox, o biri gecə öldürüblər. Özünüz bunu yaxşı bilirsiniz! Daha mən heç nə danışmayacam! Lap öldürsəniz də, heç nə deməyəcəm! Mən oğlumun canından bezməmişəm! Heç nə deməyəcəm! Boş yerə məni incidib, təhqir etməsinlər. Yoxsa prokurora şikayət edəcəm!

Müstəntiq sahə müvəkkili ilə ötəri baxışıb, təmkinlə xəbərdarlıq etdi:

- Bayəddin, sən bir az da fikirləş! Nahaqdan özünü dolaşdınrsan. O ki qaldı oğluna, biz onu qoruya bilərik. Arxayın ola bilərsən!

Bayəddin başını yellədi:



downloaded from KitabYurdu.org

- Mən kəndə heç kəsi aparmamışam!

Zeynalov əlini stola vurub ayağa qalxdı:

- Qurtardıq! Sən öz işini bir az da xarablaşdırdın, əzizim!

Sonra o, Bayəddini yenidən kameraya aparmaq barədə göstəriş verdi.

Mayor Telman Əmirəliyev kabinetində oturub qarşısındakı Əhlimana qanlı-qanlı baxırdı. Mahmudun qətlə yetirilməsi ilə bağlı cinayət işinin ibtidai istintaq mərhələsinə keçməsi, özünün qismən bu prosesdən uzaqlaşdırılması qanını bərk qaraltmışdı. İndi o, daha çox, itkin düşmüş qadının axtarışı ilə məşğul olmalı idi. O bu qadını nəyin bahasına olursa olsun tapacaqdı. Məsələ heç də bunda deyildi. Əmirəliyev özünü təhqir olunmuş kimi hiss edirdi. O, bütün vaxtını və bacarığını naməlum qatilin axtarışına sərf etməli olduğu halda, ərindən küsüb evdən çıxmış bir qadının axtarışı ilə məşğul olmalı idi.

Mayor qarşısında oturmuş Əhlimanı bir daha kinli baxışlarla süzüb dilləndi:

- Arvadının şəklini gətir ver! Bir də, Bakıdakı qaynının ünvanını! Düzdür, xəbər gəlib ki, arvadın orada yoxdur, ancaq, hər halda, yoxlayacağıq.

- Şəklini gətirmişəm. - Əhliman cibindən Səfayənin fotosunu çıxanb stolun üstünə qoydu. - Ancaq qaynımın



downloaded from KitabYurdu.org

ünvanını dəqiq bilmirəm. Oraya gedib-gəlməmişəm. Atasıgildən alarsınız!

- Vay sənin evin yıxılsın! - bölmə rəisi əsəblərini cilovlaya bilmədi. - İşə düşmüşük də! Bu boyda cinayət qalıb açılmamış, Əmirəliyev isə sənin arvadını axtarmalıdır! Allah bilir, indi harada öz kefindədi.

- Telman müəllim! - Əhliman dodaqlarını gəmirdi. - Kənddə də mənimlə kobud danışdın, dinmədim. Mənimlə belə danışma! Elə bilmə səni arvad doğub, bizi inək! Mən də kişiyəm! O ki qaldı cinayətin açılmağına, sizə kömək elədim, başqa neyləməliydim ki? Tapın da!..

- Tapacağıq! Sənə hesabat verməli deyiləm o barədə! - Əmirəliyev az qaldı əlini Əhlimanın gözünə soxsun. - Kişisən, get öz arvadını axtar! Daha durub bizim üstümüzə yüyürmə!

- Burada işləməsəydin, mən gəlib sənin qapını döyməyəcəkdim ki, Telman müəllim, dur get mənim arvadımı axtar. İşiniz budur! Sonrası da, mən şəxsən sənə müraciət etməmişəm. Rəisin göstərişini yerinə yetirirsən!

- Dur, get! - mayor əli ilə qapını göstərdi. - Arvadını gətirib kənddə sənə təhvil verəcəm. Əlbəttə, əgər sağdırsa. Yox, əgər özünə qəsd eləyibsə, cavab verməli olacaqsan!

- Məni qorxutma! - Əhliman ayağa qalxdı. - Mən heç nə üçün cavab verməli olmayacağam. Çünki burada mənim heç



downloaded from KitabYurdu.org

bir günahım yoxdur! Günahkar idimsə, gəlib sizə şikayət edəydi.

- Get! Get! - Əmir əliyev daha ona qulaq asmaq istəmədi. Əhliman qapını açıb, otaqdan çıxdı. Mayor ayağa qalxıb əsəbi halda gəzişməyə başladı. Səfayənin axtarışını, onsuz da, Rəfailə tapşırmışdı. Onu daha çox Mahmudun qatilinin tapılması maraqlandırırdı. İş istintaqa verilsə də

o, təhqiqatı davam etdirir, qatili şəxsən özü tapmağa çalışırdı.

Təhqiqat zamanı Əmirəliyevi maraqlandıran məsələlərdən biri bu olmuşdu ki, hadisə baş verən gün mərhum, nədənsə, günortadan sonra işləməmiş, hətta özünə şam yeməyi də hazırlamamışdı. Təcrübəli əməliyyat işçisinin fikrincə, Mahmud həmin gün günortadan sonra, ölümünə qədərki müddətdə həyəcanlı və əsəbi vəziyyətdə olmuşdu. Turşuya qoyulmuş xiyarla araq içməsi də bunu sübut edirdi. Ağayarın həmin gün saat 3-lə 4 arasında qardaşının yanında olmasını və ondan həyətin yarısını tələb etməsini biləndən sonra Mahmudun keçirdiyi əsəbi anlann səbəbi mayora aydın olmuşdu.

Ancaq bu, eyni zamanda, onu göstərirdi ki, qətldə Ağayardan, Mirsahibdən şübhələnməyinə dəyərdi.

Şübhələr öz yerində... Dəqiq sübutlarla tapılmalıydı ki, Mahmudun həyatına qəsd edən vəhşi xislətli adam kim



downloaded from KitabYurdu.org

olmuşdu! Həmin qanlı gecədə hansı caninin kölgəsi Mahmudun otağının pəncərəsinə düşmüşdü?

Kapitan Vəliyevin kabinetə daxil olması Əmirəliyevi fikrindən ayırdı. Rəfail bildirdi ki, bir cavan oğlan əlamətləri Səfayəyə uyğun gələn qadını şəhərin kənarındakı gölün beş-on addımlığında görüb.

- Bu necə olub? - bölmə rəisi soyuq şəkildə soruşdu.

Onun Rəfaildən xoşu gəlmirdi. Rayona beş- altı ay əvvəl gəlmiş kapitanın qadın düşkünü olduğu və bəzi şübhəli işlərə baş qoşduğu barədə məlumatı var idi. Ancaq Rəfailin zirəkliyinə və bacarığına da söz ola bilməzdi. Elə bu oğlanın özünü də o arayıb-axtarıb tapmışdı.

- Oğlan balıq tutub göldən uzaqlaşanda bu qadınla üz-üzə gəlib. Qadın gölə tərəf gedirmiş...

- Deyirsən, əlamətləri uyğun gəlir?

- Bəli! Sarışın qadın olub. Həm də onun çox qəmgin və fikirli olmağı da oğlanın nəzərindən qaçmayıb.

- Təcili olaraq, həmin oğlanı buraya gətir! - mayor göstəriş verdi.

- Gətirmişəm. Aşağıda gözləyir. - Vəliyev bunu deyib otaqdan çıxdı və bir dəqiqə sonra 20 yaşlannda bir oğlanla geri qayıtdı.



downloaded from KitabYurdu.org

Bölmə rəisi oğlanı sorğu-suala tutandan sonra Əhlimanın verdiyi fotoşəkli ona göstərdi:

- Yaxşı bax, bu idi həmin qadın?

Oğlan şəklə diqqətlə baxıb mayora qaytardı:

- Bəli, bu idi!

- Nə vaxt görmüsən onu?

- Mayın 18-i idi. Axşamüstü saat 7 ilə 8 arasında.

Mayor Əmirəliyev oğlanı azad edib Rəfailə baxdı. Kapitan Vəliyev bu baxışın mənasını çox gözəl başa düşürdü. Odur ki, söhbəti uzatmadan onu maraqlandıran əsas sualı verdi:

- Meyit indiyə qədər şişib suyun üzünə çıxmazdımı?

Əmirəliyev fikirli halda başını buladı:

- Gölün altında axın var. Meyit axına düşsə, gedib beton bəndin ayağındakı dəmir tora ilişə bilər...

- Axı bu qadın hansı səbəbə görə intihar edib? - Vəliyev çiyinlərini çəkdi.

- Adam bezəndə hər şey edər! Nə ata-anası, nə də rəfiqəsi onu bir gecə qonaq saxlamaq istəməyib. - Əmirəliyev ayağa qalxdı. - Çıxaq! Rəisin yanma getməliyəm. Gölü axtarmaq lazımdır!

Kabinetdən çıxdılar. Mayor birbaş şöbə rəisinin yanma gedib məsələni danışdı. Xəlilov telefonu götürüb prokuroru da işdən



downloaded from KitabYurdu.org

agah etdi. Prokuror elə həmin gün Bakıya zəng vurub gölün dibində axtarış aparmaq üçün adam dəvət etdi.

Sabirin UAZ-ı meşə yoluna girmişdi. Kələ- kötür yollarla kəndə doğru irəliləyirdi. Maşında beş-altı sərnişin var idi. Əhliman qabaqda, sürücünün yanında oturub, dərin fikrə qərq olmuşdu. Polis şöbəsində mayor Əmirəliyevlə mübahisəsi beynindən çıxmırdı. Onun gözlərindəki qəzəb və kin də Əhlimanın nəzərindən qaçmamışdı. «Belə adamlarla elə mənim kimi danışmaq lazımdır! - deyə fikirləşdi. - Yoxsa acizliyini ki, gördü, qanın getdi. O, elə bilir ki, nə istəsə, danışa bilər, nə istəsə eləyə

bilər. Yox, Telman müəllim, özünü güclü hesab edirsənsə, qarşmdakım özündən də güclü hesab elə!»

- Səfayədən bir xəbər çıxmadı ki, ay Əhliman qardaş? - arxa oturacaqda oturmuş bir qadın qəfil soruşdu.

- Yox! - xəyaldan ayrılan Əhliman əsəbi cavab verdi.

O, arvadının evdən getməsi barədə kiminsə danışmasından əsəbiləşirdi. Heç ayırmaq olmurdu ki, bu suallann hansı səmimi verilir, hansı eyhamla? Kənddə müxtəlif cür söhbətlər gəzirdi. Danışanların çoxu Səfayənin evdən getməsində Əhlimanı günahlandırırdı. «Sərtdir,

acıdildir. - deyirdilər. - onun xasiyyətinə heç bir qadın dözməz!»



downloaded from KitabYurdu.org

Əhliman Səfayə haqqında düşünəndə qanı bir az da qaraldı. Bu düşüncələrdə peşmançılıq da var idi, ittiham da!

«Axı o, niyə belə elədi? Niyə mənə heç nə deməmiş evdən çıxıb getdi? Getmişdisə, heç olmasa atasıgildə qalaydı. Atası onu sürüyüb çıxartmayacaqdı ki, evdən?! Niyə belə düşüncəsiz, belə axmaq iş tutdu o? Niyə?!»

O qədər dərin xəyala getmişdi ki, köhnə maşının yolun çuxurlarında atılıb-düşməsi də onu xəyallardan ayıra bilmirdi. Maşın kəndə yaxınlaşırdı...

Bu vaxt Cavidlə Təhminə həyətdə analan barədə danışırdılar. Yazıq uşaqların ondan ötəri burunlarının ucu göynəyirdi. Cavid anasının evdən getməsinə görə atasından möhkəm incisə də, bunu Təhminənin yanında dilinə gətirmirdi. Düşünürdü ki, anası tezliklə qayıdıb gələcək və həyat yenə əvvəlki kimi davam edəcək.

O gecəki qorxulu yuxusunu heç cür unuda bilmirdi. O gündən sonra hər gecə ona bənzər yuxu görürdü. Hər dəfə anası dalğalı suların qoynunda batıb gedirdi. Hər gecə kömək üçün yenə Cavidi səsləyirdi.

Yəni, doğrudanmı anası qayıtmaya bilərdi?.. Yox, o qayıtmalıydı! Kaş tez qayıdaydı. Cavid daha onu dərd çəkməyə, əziyyət çəkməyə qoymayacaqdı. Atasına da yalvaracaqdı ki, anasını incitməsin. Onun işlərinin bir azını



downloaded from KitabYurdu.org

Təhminəyə tapşıracaqdı. Qoy o da işləsin, anasının işi yüngülləşsin.

Anası evdən çıxandan sonra dərsə də getməmişdilər. Eləcə həyətdə girlənir, küçəyə çıxıb baxır, yenə həyətə qayıdırdılar. Ancaq atalarının qorxusundan həyətdə-bacada bəzi vacib işləri görürdülər.

Cavid tez-tez, gizlicə, çıxıb anasının paltarlarına baxırdı. Onlardan gələn ətri dünyanın ən gözəl ətri kimi qoxulayıb ciyərlərinə çəkirdi. Neçə dəfə göz yaşlan ilə islatmışdı bu paltarları...

- Atam anamı gətirəcək bu gün? - Təhminə neçənci dəfə idi ki, soruşurdu bunu.

- Bilmirəm! Mən haradan bilim? - Cavid bu dəfə bacısına acıqlı cavab verdi. - Tapsa gətirəcək!

- Getsin dayıma desin, dayım da Bakıda axtarsın onu.

- Axtaracaqlar! Sən çıx evə, kartof soy, yemək hazırla, atam bu saat gəlib yemək istəyəcək!

- Sən də get, tövləni təmizlə! Atam gəlib hirslənəcək.

- Sənin tövlə ilə işin yoxdur!

Təhminə pilləkəndə oturmuşdu. Heç ayağa qalxmaq istəmirdi.

- Eşitmirsən? - qardaşı səsini qaldırdı.

Qız kövrəldi:



downloaded from KitabYurdu.org

- Mənim heç yemək hazırlamağa həvəsim yoxdur. Anamı istəyirəm...

- Dur ayağa görüm! - Cavid ona acıqlandı. - Get, yemək hazırla!

Sonra özü də tövləni təmizləməyə getdi. Çalovu götürüb içəri girdi. Boş tövləyə baxıb, köksünü ötürdü. Onun da iş görməyə həvəsi yox idi. Anasının xəyalı gözlərinin qarşısından çəkilmirdi. Çalovu tövlənin divarına söykədi və birdən əlləri ilə üzünü tutub hönkürtüylə ağlamağa başladı...

Mirsahib sahə müvəkkili tərəfindən tutulub polis şöbəsinə gətiriləndən sonra müstəntiq Zeynalov və mayor Əmirəliyev onun haqqında və mayın 18-də haralarda olması barədə məlumatlar toplamışdılar.

Mirsahib mayın 19-da, Mahmud öldürülən ərəfədə kəndin küçəsində görünmüşdü. Bu zaman o, boynuna almadığı yarım saat vaxt itkisi ilə Ağayargilə gedirmiş. Müstəntiq Zeynalov onun həmin yarım saat müddətində Mahmudgilə girib, onu öldürməsini qəbul etməyə hazır idi. Ancaq məsələ burasında idi ki, həmin vaxt hava qaralmamışdı və Əhlimanın pəncərədə gördüyü, Mirsahibə xeyli dərəcədə uyğun gələn məşum kölgə onda görünə bilməzdi. Əhliman özü də pəncərədəki kölgəni hava qaralandan sonra, saat ıo radələrində gördüyünü qeyd etmişdi. Tibb eksperti də qətlin həmin radələrdə baş verdiyini göstərirdi. Belə çıxırdı ki, Mirsahib Mahmudu Ağayargildən



downloaded from KitabYurdu.org

qayıdandan sonra öldürmüşdü. Bəs onda, Mirsahib göstərilən yanm saat müddətində harada olmuşdu? Onun Göydağa qalxan cığırda, ikinci talada oturub dincəlməsi Zeynalovun ağlına batmırdı.

Bütün bunlan düşünən müstəntiq belə bir mülahizəyə gəlib çıxmışdı: Mirsahib Dərəçaydan gələndə Mahmudgilə girir və yarım saat orada olur. Sonra oradan çıxıb Ağayargilə gedir. Bu zaman onu küçədə görürlər. O, Ağayargildən çıxandan sonra yenə Mahmudgilə gəlir. Artıq onda qaranlıq düşübmüş.

Mirsahib Mahmudun evinə girib onu öldürür və vaxt itirmədən çıxıb Dərəçaya gedir. Onun Ağayargildən çıxandan sonra qonşu kəndə - öz evinə getdiyi zaman müddəti Əmirəliyev tərəfindən araşdırılmışdı və burada vaxt itkisi yox idi.

Müstəntiq Zeynalov bu mülahizənin üzərində möhkəm dayanmaq və bunu Mirsahibə sübut etmək fikrində idi. Mirsahib Mahmudu nə üçün öldürmüşdü? Bu sualın cavabsız qalması bir yana dursun, müstəntiqi ən çox narahat edən, əsəbiləşdirən o idi ki, Bayəddinin açıq-aşkar

şübhəli sərnişini ilə Mirsahib arasında eynilik və ya hər hansı əlaqə yaratmaq mümkün olmurdu.

Bayəddinin sərnişini rayon mərkəzindən gecə gəlmişdi. Mirsahib isə, özünün dediyinə görə, həmin gün səhərdən axşama kimi meşədə olmuşdu. Onun meşəyə getmək üçün



downloaded from KitabYurdu.org

balta götürüb evdən çıxdığını arvadı və oğlu təsdiq edirdi. Meşəyə gedib-gəldiyini isə görən olmamışdı. Onun həmin gün kəndin hər hansı maşını ilə şəhərə getdiyini də deyən yox idi. Bir də lap tutaq ki, Bayəddinin sərnişini Mirsahib olmuşdu. Ancaq Mahmud mayın 18-də yox, 19- da öldürülmüşdü. Bəs onda Mirsahib o gecə Mahmudgilə niyə gəlmişdi?

Nəhayət, Zeynalov bu nəticəyə gəlmək üzrə idi ki, bu işdə daha mürəkkəb cəhətlər var. Mahmudu Mirsahib öldürübsə də bu cinayətdə müxtəlif adamların əli və marağı olub. Şəhərdən gələn adam o gecə Mahmudla, yalnız, hansısa ciddi söhbət aparmalı imiş. Həmin söhbətin nəticəsində Mahmud öldürülə bilərdi.

Müstəntiq bütün bunları düşünsə də ümidini Mirsahibin dindirilməsinə bağlamışdı. Mayor Əmirəliyev də istintaqda iştirak edəcəkdi. Onlar kabinetdə oturub Mirsahibi gözləyirdilər. Nəhayət, onu gətirib içəri saldılar.

Əmirəliyev onun uzun və yöndəmsiz bədənini istehza ilə süzüb söz atdı:

- Eşitdim, dünən kənddə Miriyevə qanun dərsi keçmisən? Halın indi necədir? Danışacaqsan, ya yox?

Mirsahib dinmədi.

- Danış görək, həmin yarım saat müddətində harada olmusan? - Zeynalov istintaqa başladı.



downloaded from KitabYurdu.org

- Mən demişəm axı?! Talada oturub dincəlmişəm.

- Ə, qanmaz oğlu qanmaz, bizi nə hesab eləyirsən? - Əmirəliyev əlini havada yellədi. - İyirmi dəqiqəlik yolda yanm saat dincəlirlər?

- İnanın mənə! - Mirsahib yalvarmağa başladı. - Mən adam öldürməmişəm. O hadisədən mənim xəbərim yoxdur!

- Ağayargilə niyə getmişdin? - sualı yenə Zeynalov verdi.

- Bu birinci dəfə deyildi ki? Həmişə onun evinə gedib-gəlmişəm.

- Sənin onunla nə dostluğun ola bilər? Demək olar, oğlun yaşındadı.

- Nə deyim, xasiyyətimiz tutub...

- Sürücü Bayəddini tanıyırsan? - müstəntiq qəfil soruşdu.

- Niyə tanımıram?... Kəndlərə adam aparıb- gətirməklə çörəyini qazanır.

Müstəntiq Mirsahibə daha bir neçə sual verdisə də, mövcud olan zülmət qaranlığa iynə ucu boyda işıq sala bilən bir cavab eşitmədi.

Artıq onda belə bir fikir yaranırdı ki, Mirsahib, doğrudan da, Göydağa gələndə cığırın kənarında yarım saat oturub dincəlib. Ağayann evindən çıxandan sonra isə Mahmudun evinə girməyi tamamilə mümkün idi. Axı pəncərədə də onun



downloaded from KitabYurdu.org

bədəninə uyğun kölgə görünmüşdü. Təəssüf ki, o həmin evdə olduğunu sübut edə biləcək bir iz qoymamışdı.

Əmirəliyev Mirsahibə elə baxırdı ki, elə bil onu bu saat parçalayacaq. O, hiss edirdi ki, Mirsahib nəyisə onlardan gizlədir. Ancaq nəyi? Bu, mayora aydın olmasa da, hələlik susur, heç bir sual vermirdi.

Mirsahibi yenidən kameraya göndərdilər. Onu bu dəfə Bayəddinlə eyni yerə saldılar ki,

Ancaq Bayəddinin heç kəslə danışmağa həvəsi yox idi. Gecə keçəndən sonra, yəqin ki, yenə həmin yekəpər leytenant kameraya gələcəkdi və bunu düşünəndə, Bayəddin doğrudan da ölüb canını bu dünyadan qurtarmaq istəyirdi. Onsuz da o, həyatından razı deyildi. Sınıq-salxaq maşını ilə gündəlik çörək pulunu güclə qazanırdı. Onu bu dünyaya bağlayan, yaşamağa məcbur edən yeganə varlıq oğlu Ramal idi.

- Bax, tapança yadından çıxmasın ha!..

Bu oğlunun dilindən eşitdiyi axırıncı sözlər idi. Birdən-birə onun üçün elə darıxdı ki, az qaldı

yalquzaq canavar kimi ulasın. Ramal üçün aldığı oyuncaq tapançanın hələ də maşında qaldığı yadına düşəndə isə gözlərindən əməlli-başlı yaş gəldi.

Yenə də gəlib həmin bəd gecədə sərnişininin kim olduğunu soruşacaqlar. Bayəddinin isə o adamın adını dilinə gətirmək



downloaded from KitabYurdu.org

fikri yox idi və ola da bilməzdi. Bu mümkün deyildi... Həmin hədələyici cümlə yenə qulaqlanna dolub, beyninə işləməyə başladı: «Oğlunun başını cücə başı kimi üzəcəyəm!»

Kim bilməsə də Bayəddin bilirdi ki, o bunu edə bilər. O əclaf Bayəddinin böyük qardaşı Novruzla Rusiyada, əsgəri xidmətdə, eyni bir hərbi hissədə olmuşdu. Novruz danışmışdı ki, həmin adam yoldaşlarına, xüsusilə də əsgərliyə yeni gələnlərə olmazın zülmlər eləyirdi. İnsaf deyilən bir şeydən əsər-əlamət yox imiş onda. Əsgərlərdən heç biri cəsarət edib onun əməlləri barədə komandirlərə məlumat verə bilmirmiş.

Novruzun deməyinə görə, bu qansız bir dəfə əsgərliyə yeni gəlmiş bir oğlanı çox möhkəm döyür. Əsgərlərin gözü qabağında oğlanı o qədər vurur ki, yazıq hosbitala düşür. Komandirlər nə qədər soruşsa da, o özü qorxudan kimin tərəfindən döyüldüyünü demir. Ancaq, şahidlərdən kimsə bu əclafın adını komandirlərə verir. Bu əclaf da 4-5 sutka cəza ilə canını qurtarır. O, elə düşünürmüş ki, onu döydüyü oğlan satıb. Həmin oğlan hosbitaldan qayıdan

kimi onu tutub başına hər cür təhqiramiz oyunlar gətirir. O bədbəxt yenə bunu komandirə bildirmir və valideynlərinə yalvar-yaxar eləyib özünü başqa hərbi hissəyə keçirtdirir...

Bayəddin qardaşına qulaq asanda hiss edirdi ki, üstündən neçə illər keçməsinə baxmayaraq, Novruz həmin adamın adını nifrət və qorxuqanşıq həyəcanla çəkir.



downloaded from KitabYurdu.org

... Uzun və əzablı gecə yaxınlaşırdı. Vaxt keçdikcə Bayəddinin ürəyi daha sürətlə döyünməyə başlayırdı. O, hər dəqiqə kameranın dəmir qapısının açılmağını gözləyirdi.

Gecədən xeyli keçsə də, Çinarə uşağı yatızdıra bilmirdi. Ramal yataqdan başını qaldırıb elə hey suallar verirdi:

- Bəs atam nə vaxt gələcək?

- İndi harada yatacaq? Maşında?

- Mənim üçün tapança alacaq?

- Hə! - anası onun başını sığalladı. - Sənin üçün tapança almağa gedib.

- Bəs niyə tez alıb qayıtmır? Ayazın atası elə evimizin yanındakı mağazadan almışdı.

- Yəqin burada tapmayıb, gedib ki, Bakıdan alsın.

Ramal, deyəsən bu yalana inanmışdı. Bir müddət heç bir sual vermədi. Sanki gözləri yol çəkirdi. Sonra birdən kiçik dodaqları səyriməyə başladı. Böyrü üstə çevrilib yorğanla üzünü örtdü. Çinarə nəsə başa düşüb, yorğanı onun üzündən çəkdi. Əyilib baxanda uşağın yanaqlarında iki damla göz yaşı gördü.

- Nədir, Ramal, sənə nə oldu? - deyə soruşdu.

Ramal əvvəlcə dinmədi. Anası sualını təkrar edəndən sonra burnunu çəkə-çəkə ağlamağa başladı:



downloaded from KitabYurdu.org

- Mən daha tapança istəmirəm. Atam gəlsin evə!...

- Gələcək, oğlum, gələcək! Ağlama! - Çinarə ah çəkib onun göz yaşlarını əli ilə sildi. Sonra ayağa qalxıb mətbəxə keçdi.

O, ərinin tutulmağından heç nə anlaya bilmirdi. Bayəddinin nə günahı var axı? - deyə hər gün, hər saat özünə sual verirdi. Söz gəzirdi ki, Göydağda bir cavan adamı, gecə vaxtı, öz evində bıçaqlayıb öldürüblər. Onu da danışırdılar ki, həmin vaxt öldürülənin pəncərəsində naməlum adamın kölgəsi görünüb. Bəs axı, bunların Bayəddinə nə dəxli var? O ki adam öldürən deyil!?

Çinarənin yadına mayın 18-də Bayəddinin evə çox gec qayıtmağı düşdü. Yaman fikirli görünürdü onda... Çinarə haradan gəldiyini soruşdusa da, bir cavab vermədi. Görəsən o gecə haradan gəlirmiş o?..

İki gün idi ki, qohum-əqrəba gəlib-gedir, Çinarəyə təskinlik verirdilər. Daha çox Novruz gəlirdi. Ancaq heç biri də heç nəylə kömək edə bilmirdi. Onları polis şöbəsinə yaxın

buraxmırdılar. Eləcə, bir neçə saat şöbənin qarşısında dayanıb geri qayıdırdılar. Vəziyyət onların düşündüyündən də ciddi idi...

Səhəri gün yenə də Mehdixan kişinin qonaqları səhər yeməyi yemək üçün həyətdə süfrə başına toplaşmışdılar. Kənddə bir neçə günlük istirahət öz təsirini göstərmişdi. Qonaqlar gümrah



downloaded from KitabYurdu.org

görünürdülər. Qanbay Qasımlı özü də, daha, tez-tez xoşagəlməz başağnlarmdan üz- gözünü turşutmurdu. Qonağı olduğu evin ailəsi də, yeni tanışı Mahir Talıbov da ürəyincə idi. Kəndin təmiz havası, əsəblərini dincəldən sakitliyi onu həmişə içində olduğu qorxulu cinayət hadisələri haqqında düşüncələrdən bir qədər uzaqlaşdırmış, daxilində olan əsl insani hislər daha çox qabarmağa başlamışdı. İstefada olan polis polkovniki indi təbiət gözəlliklərindən də doyunca zövq almağa başlamışdı.

Ancaq kaş belə sakit və gözəl kənddə baş vermiş bu cinayət hadisəsi olmayaydı. Düzdür, şəxsən Qanbay Qasımlı bu hadisəyə xüsusi əhəmiyyət vermək istəmirdi. O, bu kəndə istirahətə gəlmişdi və baş vermiş sirli qətlin ona dəxli yox idi. Lakin, necə olmasa, bu faciəli hadisə qonağı olduğu ailənin əhval-ruhiyyəsinə öz təsirini göstərmişdi. Bu isə istirahətin daha şən və mənalı keçməsinə mane olurdu.

Mehdixan kişi səhər yeməyi əsnasında yenə həmin cinayət hadisəsindən söhbət açmışdı:

- Bircə bu işin üstünü aça bilsəydilər?! Bilirsiz belə işlərin mənə nə qədər dəxli var? Kənddə baş verən ən xırda iş üçün icra nümayəndəsi cavab verməli olur. Nə üçün vaxtında məlumat verməmisən? Nə üçün cinayətin qarşısını almaq üçün tədbir görməmisən? Belə-belə suallar adamın başını ağrıdır. Mənim də rayonda azdan-çoxdan hörmətim var.



downloaded from KitabYurdu.org

Üzümə bir söz deməsələr də, istəmirəm haqqımda pis fikrə düşsünlər.

Ev sahibi söhbətinə ara verib çayından bir qurtum içdi. Bu vaxt sahə müvəkkili Ağamurad Miriyev həyətə daxil oldu. Bir-bir qonaqlarla və ev yiyəsi ilə görüşüb stolun arxasına keçdi. Onu kəndə müstəntiq Zeynalov göndərmişdi.

Tapşırmışdı ki, Mahmudun qonşularını, əsasən də ən yaxın qonşu olan Əhlimanın uşaqlarını danışdırsın. Müstəntiq iki vacib şeyi öyrənmək istəyirdi. Birincisi, Bayəddin öz naməlum sərnişinini düşürüb şəhərə qayıdıb, yoxsa onu da özü ilə geri qaytarıb? İkincisi isə, əgər həmin sərnişin geri qayıtmayıbsa, uşaqlar səhəri gün Mahmudun həyətində şübhəli bir adam görüblərmi?

Mehdixan kişi qonaq üçün çay gətizdirib, şəxsən özünü maraqlandıran suallara cavab almağa tələsdi:

- Ağamurad, istintaq necə gedir? Bayəddin, ya Mirsahib boyunlarına bir şey alırmı?

Ağamurad Qasımlıya anlaşılmaz bir nəzər salıb ev sahibinə tərəf çevrildi və ciddi əda ilə danışmağa başladı:

- Mirsahib, hələlik, bir şey deməsə də, şəxsən mən ondan şübhələnirəm. Bu iş ondan əskik deyil. O ki qaldı Bayəddin, o gün onun istintaqında mən də iştirak etdim. Belə başa düşdüm ki, o, yaman qorxur, ona görə də heç nə danışmaq istəmir.



downloaded from KitabYurdu.org

- Kimdən qorxur?

Sualı ev sahibi verdi. Digərləri isə çay içə-içə sakitcə söhbətə qulaq asırdılar.

- Deyəsən, həmin sərnişini ona deyib ki, məni satsan, oğlunun başını kəsəcəyəm. Bu da ona inanıb. Bir balaca oğlu var. Altı yaşında. Yaman çox istəyir onu, deyilənə görə...

- Kim ola bilər bu? - İcra nümayəndəsi təəccübləndi.

- Hardan bilim? - Miriyev çiyinlərini atdı. - Hələ indiyə qədər belə qaranlıq işə rast gəlməmişəm.

- Zeynalov necə baxır bu işə?

- Zeynalov da başını itirib. Deyəsən, daha Bayəddindən əlini üzüb. Çünki bu adam danışana oxşamır. Deyir, öldürün məni, danışan deyiləm. İndi mənim buraya gəlməyimin məqsədi odur ki, bəzi şeyləri Bayəddinsiz öyrənim. Ona görə qonşulardan bəzilərini buraya çağırmışam. Səni də narahat eləyirik, ağsaqqal, qonaqların var. Ancaq gərək bağışlayasan, bu işin açılmamağı bütün rayona səs salıb!

- O yazıq sürücünü niyə öldürürsünüz?

Miriyevbu qəfil sualı vermiş Qasımlıya

təəccüblə baxdı:

- Biz onu öldürmürük ki!?



downloaded from KitabYurdu.org

- Öldürmürsünüz, amma elə vəziyyətə gətirirsiniz ki, o özü özünü öldürməyə məcbur olur. Məgər cinayətin üstünü açmağa başqa üsulunuz yoxdur?

- Bilirsiniz, əzizim, - sahə müvəkkili Qasımlının gözlərinə baxmaq istədisə də, bacarmayıb baxışlarını yayındırmalı oldu. - Siz jurnalistlər yalnız məlum olan faktları yazmağa öyrənmisiniz. Ancaq bilin ki, məlum olmayan bir şeyi axtarıb üzə çıxarmaq çox çətin məsələdir. Xüsusilə onu nəzərə almaq lazımdır ki, bu ölüm hadisəsidir. Bu işlə zarafat etmək olmaz! Biz hansı yolla olur olsun, dəxli yoxdur, bu cinayəti açmalıyıq. Bayəddin, ya qeyri Bayəddinlərin nazı ilə oynamaqla biz cinayətkarlara azadlıq və sərbəstlik vermiş olarıq.

- O qadından nə xəbər var? - Söhbətin xoşagəlməz məcraya düşdüyünü görən Mehdixan kişi sakitcə soruşdu.

Miriyev çayını içib stəkanı kənara itələdi:

- Onu gölün yaxınlığında görüblər. Həmin gün intihar etməyindən şübhələnirik. Prokuror gölü axtarmaq üçün Bakıdan adam istəyib. Daha

dalından xəbərim yoxdur. Yəqin bu gün gəlib axtararlar...

Darvaza açıldı. Qiyas müəllim Cavidlə birlikdə həyətə girdi. Miriyev onları, ev sahibi kimi, stolun arxasına dəvət etdi:

- Gəlin, gəlin oturun!



downloaded from KitabYurdu.org

Onlar sakitcə gəlib stolun arxasında oturdular.

- Çay içəcəksiz? - Elməddin soruşdu.

- Yox! İçib gəlmişəm. - Qiyas cavab verdi.

- Süfrəni yığışdırın! - Elməddin ucadan evdəkiləri səslədi.

Nuridə gəlib süfrəni yığışdırdı. Ağamurad əli ilə stolun təmizliyini yoxlayıb portfelini stolun üstünə qoydu. Bir qədər özünü çəkib Bakıdan gələn qonaqlara nəzər saldı. Sonra portfelindən dəftər və qələm çıxarıb üzünü Qiyas müəllimə tutdu:

- Söz yox ki, səninlə söhbət aparılıb. Demisən ki, o gecə maşın səsi eşitməmisən. Bir yadına sal görüm, səhəri gün, yəni mayın 19-da Mahmudgildə yad qonaq var idimi? Nəsə şübhəli bir şey görmüsənmi?

- Mən Telman müəllimə də demişəm. O gecə televizora baxırdıq. Yəqin ona görə də maşının səsini eşitməmişəm. Səhər isə Mahmud rəhmətlik hamam tikməklə məşğul idi. Mənim həyətimdən onun evinin qabağı görünür. Günortaya qədər hamamla məşğul olub. Həyətdə başqa adam görməmişəm.

- Bəs günortadan sonra?

- Günortadan sonra bir dəfə həyətdə gəzişən gördüm. Onda da tək idi.



downloaded from KitabYurdu.org

- Sən danış, görüm! - Miriyev Cavidə baxdı. - Maşın səsini nə vaxt və necə eşitdin?

Cavid həyəcanla stolun arxasında oturanlara göz gəzdirib danışmağa başladı:

- Mən onda yerimə girib yatmışdım. Sonra pis yuxu görüb ayılmışdım. Maşın səsi, bir də maşının qapısının örtülməsini eşitdim. Sonra yenə maşın səsi gəldi və maşın çıxıb getdi. Atam maşının səsinə çıxmışdı. Qayıdanda soruşdum ki, gələn kim idi? Dedi, kim idisə, Mahmud əmingilə gəlib...

Birdən Qasımlı söhbətə qarışdığı üçün sahə müvəkkilindən üzr istəyib Caviddən soruşdu:

- Sən maşının səsinə ayıldın, yoxsa yuxu görüb ayıldın?

Cavid boz köynəyin üstündən nazik idman gödəkcəsi geymiş, yana daradığı qara saçlarının bir qismi sürüşüb geniş alnına dağılmış bu adama baxıb, gözlərini boş süfrəyə dikdi və fikirləşə-fikirləşə cavab verdi:

- Mən əvvəlcə maşının səsinə ayıldım. Qapı çırpıldı. Sonra, deyəsən, yenə maşın səsi gəldi. Ancaq bunu dəqiq deyə bilmirəm. Mən yəqin yuxuya getmişəm. Çünki yuxu gördüm, ayıldım...

- Nə yuxu gördün? - uşağa diqqətlə qulaq asan Nemət mehribanlıqla soruşdu.

Cavid kövrəldi:



downloaded from KitabYurdu.org

- Gördüm ki, anamla ikimiz bir çaym kənanndayıq. Çaya güclü sel gəlmişdi. Anam, birdən, çaya düşüb boğulmağa başladı. Əllərini qaldırıb kömək istəyirdi. Mən də sahillə qaçırdım. Ancaq ona heç cür kömək edə bilmirdim. Anam birdən «Cavid!» deyə qışqırıb suya batdı. Mən o saat yuxudan ayıldım. Sonra daha yata bilmədim...

Süfrə arxasına kədərli bir sakitlik çökdü. Deyəsən, hamının uşağa yazığı gəlmişdi. Yaranmış üzücü sükutu Ağamurad pozdu:

- Deməli, yadına sala bilmirsən ki, maşın gələn kimi yola düşdü, yoxsa bir az dayandı?

Cavid susub başını aşağı dikdi.

- Bacın da eşidib maşının səsini?

- Yox, o ayılmamışdı...

Sorğu-sual yekunlaşdı. Miriyev

dindirilmədən çox da razı qalmamışdı. Qiyas müəllimlə Cavid çıxıb getdilər. Mehdixan kişi Ağamuradla başqa mövzuda söhbətə başlayanda o birilər ayağa qalxdı.

Qanbay Qasımlı təklif etdi ki, çıxıb kəndin kənarında bir qədər gəzsinlər. Mahir, Nemət və Elməddin onun təklifi ilə razılaşdılar və dördü də birlikdə həyətdən çıxdı. Kəndin küçələrindən tələsmədən keçib Mahmudun evinin qabağına çatdılar. Mərhumun darvazası bağlı idi. Əhlimanın həyət



downloaded from KitabYurdu.org

qapısı yanında, küçənin kənarında, Cavid qurumuş nazik ağac budaqlarını doğrayır, Təhminə isə doğranmış budaqları qucağına alıb həyətə aparırdı. Həyətdən qalxan tüstü, əsən mehin təsiri ilə səpələnib küçəyə yayılırdı. Uşaqlar, deyəsən, çörək bişirmək üçün təndir salmışdılar.

Gəzintiyə çıxanlar kəndin kənarına çatdılar. Seyrək kolluqların arasından keçən cığırla düşüb keçən dəfəki gəzinti zamanı Ağayarla görüşdükləri talada dayandılar. Tamamilə aydın görünən Dərəçaya tamaşa etməyə başladılar. Elməddin əlini irəli uzadıb, kəndi üç tərəfdən

əhatə edən sıx meşələr haqqında danışırdı. Mahir hərdən onun sözünü kəsib suallar verirdi.

- Gəlin bu cığırla axıra qədər gedək! - deyə Qasımlı birdən xahiş etdi və özü qabağa keçdi.

Onun arxasınca düşənlər ağıllarına da gətirmirdilər ki, polkovnik ayağının altındakı cığıra və onun yan-yörəsinə diqqətlə göz qoyur. Kənd adamlan burada tez-tez qoyun otardığı üçün seyrək və alçaq otlar qoyun dırnaqlan altında sürtülüb getmişdi. Ona görə də Dərəçaya gedən əsas cığırdan ayrılan qolu müəyyən etmək o qədər də asan deyildi.

Nəhayət, gəlib o biri talaya çıxdılar. Burada kollar daha hündür və daha sıx idi. Bəzi yerlər, hətta cəngəlliyə bənzəyirdi. Talanı ötüb gəldikləri cığırla aşağı düşsəydilər, bir qədərdən sonra açıq düzənliyə çıxacaqdılar ki, ondan o yana



downloaded from KitabYurdu.org

Dərəçay başlanırdı. Lakin Qasımlı sola dönüb talanın içi ilə getdi və sıx kolluqların arasında görünməz oldu.

- Nə axtarırsınız, Qanbay müəllim? - Mahir ucadan soruşdu.

Polkovnikə çatanda gördülər ki, o, kiçik bir talada dayanıb ətrafına boylanır.

- Gözəl yerdir, deyilmi? - deyə ona maraqla baxan yoldaşlarından soruşdu.

- Gözəl yerdir! - Mahir cavab verdi. - Ancaq biz burada özümüzdən və ətrafımızdakı kollardan başqa heç nə görmürük.

- Onda, arxamca gəlin! Ancaq xahiş edirəm, sakitliyi gözləyin!

Qasımlı yenə qabağa düşüb kollann arası ilə getdi. Bir azdan yol qurtardığı üçün dayanmağa məcbur oldu. Buradan sıx kolluq başlanırdı.

- Niyə sakit olmalıyıq? - Mahir dözməyib soruşdu.

Diqqətlə yerə baxan Qasımlı dinmədi. Bir də ətrafına boylanıb meşənin içərilərinə doğru irəliləməyə başladı. Bu dəfə o, rahat cığırla getmir, sıx budaqlan əli ilə aralayıb özünə yol açırdı. Bu qayda ilə 5-6 metr getmişdi ki, dayandı. Onun qarşısını əl ilə üst-üstə qoyulmuş bir neçə quru kol kəsmişdi. Qasımlı Elməddindən xahiş etdi ki, bu qurumuş kollan götürüb kənara



downloaded from KitabYurdu.org

atsın. Elməddin onun dediyi kimi etdi və bu zaman həmin kolların yerində təzə bir cığır açıldı. Qasımlı qabağa keçdi. O birilər də onun arxasınca qapı kimi açılmış yerdən keçib maraqlı mənzərənin şahidi oldular: Burada süni bir tala yaradılmış və həmin talada hansısa bir bitki becərilmişdi. Onlar bir metrdən bir qədər hündür, Nemətin indiyə qədər görmədiyi bitkilər idi. O, təəccüblə qarşısındakı plantasiyaya baxıb:

- Bu nə bitkisidir? - deyə Qasımlıdan soruşdu.

- Buna hind çətənəsi deyirlər, - deyə Qasımlı məlumat verdi:

- Narkotik bitkidir. Marixuana bundan hazırlanır.

- Burada çətənə əkilməsi haradan ağlınıza gəldi? - Elməddin təəccüblə sual verdi.

- Mən, haradasa buralarda bu bitkinin əkildiyini hələ mayın 19-da bilirdim. Hətta kim tərəfindən əkildiyini də!

- Axı necə? - Nemət mənzil qonşusunun yüksək qabiliyyətinə çoxdan bələd olsa da, eşitdiyinə inana bilmirdi.

- Həmin gün o oğlan, yəni Ağayar bizimlə əl tutub görüşdü. Mən onun əlindən gələn qoxunu dərhal tanıdım. Bu qoxunu mən yüzlərlə başqa qoxunun içindən ayıra bilərəm. Onun əlləri toza- torpağa bulaşmışdı. Mən başa düşdüm ki, Ağayar burada kanapila əkib və tez-tez ona qulluq edir. -



downloaded from KitabYurdu.org

Qasımlı sözünə ara verib ətrafa boylandı. - Gəlin belə şərtləşək ki, biz heç kəsin adını çəkməyəcəyik. Sadəcə olaraq, burada hind çətənəsi əkildiyini atanıza bildiririk. Guya biz bu plantasiyaya təsadüfən rast gəlmişik. Çünki bu iş nə vaxtsa, polis tərəfindən aşkar olunsa, atanız üçün yaxşı hal hesab olunmayacaq. Bitkini kimin əkməsini isə polis çox az vaxtda müəyyənləşdirəcək.

- Necə müəyyənləşdirəcək? - Elməddin maraqlandı. - Bu ərazini nəzarət altına almaqla?

Qasımlı taladan çıxıb Elməddinə quru kolları əvvəlki kimi öz yerinə qoymağı tapşırdı və izah etdi:

- Bu saat polis şöbəsində Mirsahibi incidirlər ki, Dərəçaydan Göydağa qədər olan iyirmi dəqiqəlik yolu nə üçün bir saata getdiyini izah etsin. Bu da həmin sualın cavabı! Mirsahiblə Ağayar çətənəni birlikdə əkiblər. Onlar imkan tapdıqca, tez-tez buraya baş çəkib bitkiyə qulluq edir, məhsulun yetişməsini gözləyirlər. Biz Ağayarla görüşdüyümüz gün o, yəqin ki, seyrəltmə ilə məşğul olubmuş. Sıx topalardan bir neçəsini yolub atdığı üçün əlində kanapilanın xarakterik qoxusu qalmışdı. Mirsahib də həmin gün axşamüstü burada yubanıbmış. Aydın məsələdir ki, o bunu müstəntiqə deyə bilməzdi. Yəqin, yaxşı bilirsiniz ki, bu bitkini əkib becərmək, xüsusilə də satış məqsədilə olarsa, necə ağır cinayət hesab olunur.



downloaded from KitabYurdu.org

Qulaq asanların hər üçü deməyə söz tapmır, pərəstişlə təcrübəli xəfiyyəyə baxırdılar.

Polkovnik sözünü bitirib buradan uzaqlaşmağı məsləhət gördü və onlar talanı keçib cığırla üzü yuxarı qalxmağa başladılar.

... Miriyevhələ də çıxıb getməmişdi. Həyətdə oturub Mehdixan kişi ilə söhbət edirdi. Elməddin atasını kənara çəkib tapıntıları barədə ona bildirdi. Təəccüblənmiş icra nümayəndəsi, öz növbəsində, məsələni Ağamurada açdı. Sahə müvəkkili dərhal gedib həmin yerə baxmaq istədi. Ancaq Mehdixan kişi məsləhət görmədi:

- Kim əkibsə, duyuq sala bilərik. Hamısını məhv edib izi itirərlər. Mütləq rəisə demək lazımdır.

Məsləhət Ağamuradm ürəyindən olmasa da, etiraz edə bilmədi. İcra nümayəndəsi polis şöbəsinə zəng vurub birbaş Xəlilovun özünə məlumat verdi. Bildirdi ki, onun qonaqları meşədə gəzərkən narkotik bitki əkilmiş sahə aşkar ediblər.

Sahə müvəkkilinin qanı qaralmışdı: Axı necə olmuşdu ki, onun bu işdən xəbəri olmamışdı?.. Kənddəki inanılmış adamlarının qarasına deyindi: «Kordurlar elə bil köpək uşağı! Vaxtında aşkar edib mənə bildirsəydilər, ya özüm ifşa edib ad qazanardım, ya da...»

İcra nümayəndəsinin zəngindən saat yarım keçmiş Əmirəliyev başda olmaqla, dörd polis işçisi kəndə gəldi. Mehdixan kişi Elməddini onlara bələdçi verdi. Meşədə əkilmiş 36 ədəd



downloaded from KitabYurdu.org

çətənə kolu kötüyündən çıxarılıb götürüldü. Bu barədə akt tərtib edildi və Elməddinlə Qiyas müəllim həmin akta şahid kimi imza etdilər.

Mayor Əmirəliyev Mehdixan kişiyə heç nə deməsə də, çətənənin kim tərəfindən əkildiyini o saat başa düşmüşdü. O, şübhə etmirdi ki, bunu edən Mirsahiblə Ağayardır. Ancaq o, Ağayarın adını Mirsahibin dilindən eşitmək istəyirdi.

Əməliyyat-axtarış bölməsinin rəisi, mayor Əmirəliyev meşədən tapılıb götürülmüş narkotik bitki ilə əlaqədar lazımi orqanlara məlumat verib, bəzi qeydiyyat işlərini qurtardıqdan sonra Mirsahibi kabinetə gətirməyi tapşırdı. Hər

şeydən xəbərsiz olan Mirsahib içəri girib təklif olunan stulda oturdu.

Mayor bacardığı qədər səbirli olmağa çalışırdısa da, alınmırdı. Bütün rayon bilirdi ki, o, narkotiklərin satışı ilə məşğul olanlara nifrət edir. Həmişə deyirdi ki, kişi pul qazananda kişi kimi qazanar, əclaf kimi yox. Bölmə rəisi belələrini millətin bir nömrəli düşməni sayır və deyirdi ki, bunlan azadlıqdan məhrum etmək yox, güllələmək lazımdır!

Prokurorun danlağından sonra çalışırdı ki, dindirdiyi adamla sakit danışsın. Elə indi də buna cəhd göstərdi:

- Hə, qəhrəman, deyirsən talada yarım saat oturub dincəlmisən?



downloaded from KitabYurdu.org

- Dedim də, rəis! - Mirsahib əllərini oynatdı. - Eyni sualı adama neçə dəfə verərlər?

- Lap min dəfə verərlər. Lazım gəlsə, adamın lap gözünü də çıxararlar!

Əmirəliyev bunu deməklə ürəyini soyuda bilmədi. Hər şeyi unudub ayağa qalxdı və Mirsahibə var qüvvəsi ilə bir sillə çəkdi:

- Əbləh oğlu əbləh! Əmirəliyevi ələ salırsan sən?!

Mirsahib əli ilə partlamış dodağının qanını silib mayora baxdı:

- Niyə vurursan, Telman müəllim, mən neyləmişəm?

- Zəhrimar eləmisən, çor eləmisən! Adə, deməli sən narkotik satışı ilə məşğulsan, hə? - mayor onun yaxasından yapışıb ayağa qaldırdı. - Meşədə əməlli-başlı plantasiya salmısan ki?! Sən öləsən sənə şampan şüşəsi vurduracam!

Mirsahib deməyə söz axtarır, gözaltı yaxasından yapışmış qüvvətli ələ baxırdı.

- Mən elə şeylə məşğul olmamışam, Telman müəllim!

- Ə, bura bax! - mayor onu bir az da yuxarı qaldırıb stula çırpdı. - Məni hövsələdən çıxartma! İzahatını yaz! Necə əkmişən, kiminlə əkmişən, hamısını göstər. Sənin yarım saat dincəlməyin məlum oldu! Ancaq geri qayıdanda Mahmudu da sən öldürmüsən! Ya düzünü boynuna almalısan, ya da belini sındıracam sənin!



downloaded from KitabYurdu.org

Mirsahib heç nə anlaya bilmirdi. Buna şübhə yox idi ki, gizli tala aşkar edilmişdi. Ancaq bunu kim etmiş olar, görəsən? Bilirdi ki, Ağayar onu satmaz. O, elə oğlan deyildi... «Bəs onda niyə məndən yapışıb bu əzazil köpək oğlu? Özü də elə yapışıb ki, boynuma almasam dediyini edəcək mənə. Bəlkə deyim təkcə özüm əkmişəm?...»

Uzun çək-çevirdən sonra Mirsahib meşədə hind çətənəsi əkib, ona qulluq etməsi barədə izahata qol çəkdi. Ancaq onu kiminlə birlikdə yetişdirdiyini boynuna almadı.

Əmirəliyev onu yenidən kameraya göndərdi: - Get, yaxşı-yaxşı fikirləş, yoldaşının adını desən, işini bir az yüngülləşdirərsən!

Polis əməkdaşı Mirsahibi aparandan sonra Əhlimanın gəldiyini xəbər verdilər. Mayor onu çox könülsüz qəbul etdi. Bu tərəfdən də Səfayənin axtarışında heç bir yenilik əldə edə bilməmişdilər. İndilərdə şəhərin kənarındakı göldə axtarış aparılmalı idi.

Əhliman kabinetə girib salam verdi:

- Eşitdim, qaynım atasıgilə gəlib. Mən də durub gəldim ki, ondan bir xəbər öyrənim. Sonra dedim, sizə də baş çəkim, görək təzə nə xəbər var...

- Nə deyir qaynın? - Əmirəliyev özünü soyuq aparırdı.



downloaded from KitabYurdu.org

- O, bacısını görməyib... - Əhliman belə cavab verdi və Allahyarla ciddi mübahisə

etdikləri, Zəlimxan kişinin araya girməyə məcbur olması barədə heç nə demədi.

- Bizdə də təzə xəbər yoxdur. - mayor darıxırmış kimi qalstukunu boşaldıb pəncərəyə baxdı. - Göldə axtarış aparılır. Nəticəsini gözləyirik. Çünki ehtimalımıza görə, arvadın intihar edib. Onu da deyim ki, ehtimalımız təsdiq olunsa, sənin üçün yaxşı olmayacaq.

- Bilmək olar nə üçün? - Əhliman kinayə ilə soruşdu.

- Ona görə ki, onu bu işə sən vadar etmisən!

- Əgər doğrudan da o intihar edibsə, onu mən yox, öz doğmaca atası vadar etmiş sayılır. Bunun üçün o cavab verməlidir!

- Əhliman! - mayor yenə əlini qalstukuna apardı. - Səni and verirəm balalarının canına, çıx get! Bir xəbər olanda özümüz sənə bildirərik!

Əhliman daha bir söz deməyib kabineti tərk etdi. Bir azdan sonra qanı bərk qaralmış Əmirəliyev də otaqdan çıxıb dəhlizin o biri başındakı istintaq otağında Bayəddini danışdıran müstəntiqin yanma getdi. Zeynalov sürücünün növbəti dindirilməsini yekunlaşdırmaq üzrə idi.

Otağa girən mayorun dilxor olduğunu başa düşüb:



downloaded from KitabYurdu.org

- Nə xəbər var? - deyə soruşdu.

- Mirsahibi danışdırdım. Kanapilanı əkməsini boynuna aldı. Ancaq yoldaşının adını demir. Guya təkbaşına əkib. Onsuz da bilirəm ki, o, Ağayarla əlbirdir. Mahmudun qardaşı ilə. Gözləyirəm ki, özü desin. Bəs bu nə deyir? - başı ilə büzüşüb oturmuş Bayəddini göstərdi.

- Bu yenə köhnə havanı çalır.

Əmirəliyev Bayəddinə tərs-tərs baxdı:

- Ay bədbəxt, niyə özünə yazığın gəlmir?

Bayəddin dinmədi. Mayor içəri girəndən

qıçları əsməyə başlamışdı. Müstəntiq Zeynalov düyməni basıb onu müvəqqəti saxlama kamerasına qaytarmaq barədə göstəriş verdi.

Bölmə rəisi müstəntiqlə bir qədər söhbət edib öz kabinetinə qayıtdı. Telefonun dəstəyini götürüb Mirsahibi yenidən yanma gətirməyi tapşırdı. Onu gətirib kabinetə salaraq geri qayıtdılar. Əmirəliyev üzünü yarım saat ərzində

xeyli yazıqlaşmış bu adama tutub sərt şəkildə dilləndi:

- Axırıncı dəfə soruşuram, həmin narkotik bitkini kiminlə əkmişən? Onsuz da özüm bilirəm. Məni aldada bilməyəcəksən!

Mirsahib artıq aşağıda nə isə düşünmüşdü:



downloaded from KitabYurdu.org

- Başına dönüm, Telman müəllim, Ağayarla əkmişəm. Məni də o yoldan çıxartdı.

- Səni ha?! - mayor istehza ilə güldü. - O ki sənin oğlun yaşındadır?!

- Ağlım yoxdur da mənim. Bir qələtdir eləmişəm...

- Özü də bilirsən nə boyda qələt eləmisən? Adam öldürmək bundan yüngül işdi, - mayor əlini hirslə stola vurdu. - Sən milləti bədbəxt eləmək istəyirsən, biqeyrət oğlu, biqeyrət!

Mirsahib söyüşü çox rahatlıqla qəbul edib boynunu burdu:

- Görün neyləyirsiniz, Telman müəllim, bir çarə eləyin, balalanm var...

- Yox əşi?! - Əmirəliyev onu dolamağa başladı. - Heç bilirsən nə danışırsan? Bilirsən kim aşkar edib sizin plantasiyanı? Bakıdan gəlmiş jurnalistlər! Rəis, prokuror, ümumiyyətlə, hamının xəbəri var bu işdən. Nazirliyə də məlumat vermişik.

- Bəs indi nə olacaq? - Mirsahib bir az da yazıqlaşdı.

- Deyim də, necə olacaq. İbtidai istintaq qurtaran kimi işi verəcəyik məhkəməyə. Məhkəmə də 234-cü maddə ilə sizi azadlıqdan məhrum edəcək. Nə az, nə çox, yeddi il!

- Biz ki, satmaq üçün əkməmişik?!



downloaded from KitabYurdu.org

- Kəs səsini! - Əmirəliyev əlini yellədi. - Mənim üçün qanun bilən olub! Siz çəkəni olsaydınız indiyəcən bilərdik. Rahat qazanc yeri tapmaq istəmisiniz özünüzə! Sizi daha heç kim xilas edə bilməz! Hələ bu işin bir tərəfidir. Nə qədər gec deyil, Mahmudu öldürməyini də boynuna al!

- Vallah, mən adam öldürməmişəm! - Mirsahib birdən uşaq kimi ağlamağa başladı. - Mənə niyə inanmırsınız, Telman müəllim?! Mən orada iki dəfə olmuşam. Bir də düşmək istəmirəm o cəhənnəmə!...

- Allaha and içmə, səni görən olub! Hövsələmizlə az oyna bizim. De görüm onu niyə öldürmüsən? Bu işdə də Ağayarla əlbir olmusanmı? Bəlkə o yazığın ev-eşiyinə, mal- qarasma sahib olmaq üçün eləmisiniz bunu?!

Əmirəliyev az qalırdı ki, tutub Mirsahibi boğsun:

- Get, fikirləş! Sabaha kimi vaxt verirəm. Hər şeyi boynuna almalısan!

Mirsahib heç nə demədən onu aparmağa gəlmiş polis leytenantının qabağına düşdü.

Elə bu vaxt telefon zəng çaldı. Zəng vuran kapitan Rəfail Vəliyev idi. Onun da səsində yorğunluq hiss olunurdu:

- Rəis, göldəki axtarış ehtimalımızı doğrultmadı. Burada heç bir meyit-filan yoxdur...



downloaded from KitabYurdu.org

Əmirəliyev dəstəyi yerinə qoydu. Heç özü də bilmirdi ki, bu xəbərə sevinmək lazımdır, yoxsa kədərlənmək...

Mehdixan kişinin həyətində bu gün bir qədər başqa əhval-ruhiyyə var idi. Bu gecə qonaqların kənddə keçirdikləri axırıncı gecə olacaqdı. Sabah, günortadan sonra Qasımlı, Mahir və Nemət Bakıya qayıtmalı idilər.

Odur ki, şam yeməyi əvvəlkilərdən dəbdəbəli olmuş, evdəki qadınlar da gəlib süfrə arxasında oturmuşdular. Yemək süfrəsi yığışdırılmış, süfrəyə mürəbbə ilə çay gəlmişdi. Stola və onun ətrafına evin qabağından asılmış elektrik lampasından gur işıq düşürdü. Bu işıqda Qasımlının sifətinə diqqətlə baxan olsaydı, onun söhbətlərə qulaq asmağına və hərdən gülümsədiyinə baxmayaraq, fikirli olduğunu görə bilərdi. Görəsən, məşhur xəfiyyə nə fikirləşirdi? Belə gözəl bir ailədən tezliklə ayrılacağına kədərlənirdi, yoxsa onu narahat edən başqa bir məsələ var idi? Bunu onun özündən başqa heç kəs bilmirdi.

- Sizi evimizdə həmişə qonaq görməyə şad olacağıq, - ev sahibi səmimiyyətlə bildirdi. - Nə

vaxt könlünüzə istirahət etmək düşdü, mütləq gəlin!

Qasımlı təbəssümlə ona minnətdarlığını bildirdi:

- Sağ olun, biz də sizdən çox razıyıq. Bir həftədən çox əziyyətimizi çəkdiniz.



downloaded from KitabYurdu.org

- O nə sözdür? Borcumuzdur! - Mehdixan kişi əlini sinəsinə qoydu: - Sizin kimi böyük insana qulluq etmək özü şərəfdir.

- Ancaq mən çox istəyərdim ki, biz buraya ov etməyə gələk! - Mahir dedi.

Bu arzu Elməddinin lap ürəyindən oldu:

- Payızın axınnda, ya qışda mən sizin qulluğunuzda hazır! Meşə, heyvanlar qanşıq qurbandır sizə!

- Deyəsən, vəzifəndən sui-istifadə edirsən əzizim, bu düz deyil!

Mahirin bu atmacasına hamı güldü. Polkovnik üzr istəyib ayağa qalxdı və stoldan aralanıb qaranlıq həyətə keçdi. Gündüzdən gövdəsində istirahət etdikləri heyva ağacının altında dayanıb bir siqaret yandırdı və çəkməyə başladı. Beynində dolaşan fikirləri sonuncu dəfə götür-qoy etmək üçün ona təklik və sakitlik lazım idi.

Bu vaxt Elməddinin iti qaranlıqda asta-asta ona yaxınlaşdı. Bir qədər yanında dayanıb təəccüblə üzünə baxandan sonra, gəldiyi kimi sakitcə uzaqlaşıb tövləyə tərəf getdi. Qasımlı itə fikir vermədi. Kim bilir, kənddəki bir həftəlik istirahətini başa vurduğu bir vaxtda nə düşünürdü o?.. İstirahətə gəlməyinə baxmayaraq, peşəsini burada da unutmamış, narkotik bitki yetişdirən iki adamı ifşa etmişdi. Bəlkə qonağı olduğu bu kənddə kimlərəsə pislik etdiyi üçün peşman idi polis



downloaded from KitabYurdu.org

polkovniki? Yox, o, peşman olan adama oxşamırdı. Nadir hallarda öz peşəsinin insanlara nə dərəcədə xeyir və ziyan gətirdiyi barədə düşüncələrə dalsa da, öz əqidəsində qəti idi. Qoy cinayətkar özünü haqlı bilsin, bu onun öz işidir. Ancaq Qanbay Qasımlı adlı bir nəfər də var ki, o, baş vermiş cinayəti açmaq qərarına gələ bilər. Bu qərara gəlmək üçün ona pul da təklif edə bilərlər, xahiş də edə bilərlər. Fərqi az idi bunun. Əsas o idi ki, polkovnik

Qasımlı bu işi boynuna götürsün. Əgər götürdümü, vay o cinayətkarın halına. Qoy bütün gücünü, biliyini, hiyləgərliyini işə salıb Qasımlının diqqətindən yayınmağa, onu azdırmağa çalışsın. Təki, axırda ifşa olunanda polkovniki qınamasın. Deməsin ki, bu işə niyə başını soxub? Qanbay Qasımlmm peşəsi bu idi və başqalarının nə düşünməyindən asılı olmayaraq, öz peşəsini dəyişmək fikrində deyildi.

Bu baxımdan, polkovnik bir çoxları üçün qorxulu düşmən olmuşdu və qorxulu düşmən olaraq qalırdı. O, bir cinayət işini boynuna götürəndə cinayəti törədən naməlum adam istər-istəməz onun rəqibinə çevrilirdi. Rəqibi ilə döyüşün son və həlledici anında Qasımlı öz ovunu görmüş pələngi xatırladırdı. Həmin anlarda onun sifətində bir az sonra edəcəyi qəti sıçrayışın nişanələri görünürdü.

Elə indinin özündə, zülmət qaranlıqda, heyva ağacının altında dayanıb siqaret çəkərkən, ona yaxından baxan olsaydı, siqareti



downloaded from KitabYurdu.org

sümürüb közərtdiyi anlarda üzünə düşən zəif işıqda o nişanələri sezə bilərdi.

Bəlkə bir həftə əvvəl kənddə baş vermiş qanlı cinayətin motivləri düşündürürdü onu? Bunu demək çox çətin idi. Çünki polkovnik həmin cinayət prosesi ilə demək olar ki, heç maraqlanmamışdı.

Qaşqabaqlı xəfiyyə nə barədəsə hey düşünür, düşünürdü. Nəhayət, deyəsən, bir qərara gəlib, evə tərəf çevrildi və siqaretin kötüyünü yerə atıb tapdadı. Yatmaq vaxtı keçirdi. Evin qarşısındakı stolun ətrafında təkcə ev sahibi və Nemət qalmışdı. Onlar nə barədəsə ikilikdə söhbət edirdilər. Polis kapitanı Mahir Talıbov isə heyva ağacına tərəf gəlirdi...

... Bir azdan Nemət onları səslədi:

- Yatmaq istəmirsiniz?

Qasımlı ilə Mahir yuxarı qalxaraq, evin qarşısındakı əlüzyuyanda yuyunub, dişlərini təmizlədilər və yatmaq üçün evə çıxdılar. Artıq saat 12-ni keçmişdi. Onların kənddə keçirdikləri axınncı gün başlanırdı.

Gecədən xeyli keçmişdi. Ayın kəndin üzərinə səpələdiyi işığı kəndə sirli və çox qəmli bir görkəm verirdi. Bomboş küçələrdə bir ölüm sakitliyi hökm sürürdü. Bu ölüm sükutunu, haradasa, kəndin yuxan hissələrindən gələn it səsi pozdu. Başqa bir it onun səsinə səs verdi. Sonra sakitlik yenidən kəndi öz qoynuna aldı.



downloaded from KitabYurdu.org

Hamının şirin yuxuda olduğu bir vaxtda, kəndin küçəsində tək bir adam nəzərə çarpırdı. O da ay işığında təsadüfən yuxusu ərşə çəkilmiş bir kimsənin gözünə görünməmək üçün, küçədəki elektrik dirəyinə söykənib səmaya baxırdı. Ay işığına qərq olmuş səmada yalnız üç qara bulud topası üzürdü. Onlardan birinin Aya çatıb, onun işığını öz qara gövdəsində udmağına az qalmışdı.

Naməlum adam da elə bunu gözləyirdi. Axır ki, qara bulud Aya çatıb onun qabağını kəsdi və bütün kənd, birdən-birə, qorxunc bir zülmətə qərq oldu. Naməlum adam həmin dəqiqə hərəkətə gəlib küçə ilə addımlamağa başladı. Qaranlıqda nəyəsə toxunub yıxılmamaq üçün ehtiyatla irəliləyirdi. Yalnız bəzi evlərin pəncərəsindən küçəyə zəif işıq düşürdü. O, bir də Əhlimanın darvazası qarşısında dayandı.

Küçədə qurulmuş yasxananın çox kədərli görkəmi var idi. Əhlimanın darvazası içəridən bağlı idi. Naməlum adam iki metr hündürlüyündə olan hasara yaxınlaşdı. Çevrilib arxaya baxanda nə gördüsə, yerindəcə donub qaldı. Rəhmətlik Mahmudun pəncərəsi küçəyə

baxan otağında zəif işıq yanırdı. Bu elektrik lampasının işığı deyildi. Çox güman ki, otaqda neft lampası yandırılmışdı. Lampa pəncərənin aşağı hissəsini daha çox işıqlandırırdı. Kürəyini Əhlimanın hasanna söykəmiş naməlum adamın üzündə kiçik tər damcıları göründü.



downloaded from KitabYurdu.org

- Lənət şeytana! Bu ola bilməz!..

Mahmudun ağzı üstə sərilmiş meyiti

gözlərinin qabağına gəldi. Hətta döşəməyə yayılmış qan gölməçəsi də...

- Bəlkə...

Naməlum adam birdən aldandığını başa düşüb hirslə yerə tüpürdü. Mahmudun otağında heç bir işıq yanmırmış. Əhlimanın ikinci mərtəbəyə qalxan pilləkəninin başında yanan

elektrik lampasının işığı pəncərəyə düşdüyü üçün belə görünürmüş.

O, vaxt itirmədən çevrilib pişik cəldliyi ilə hasarın üstündən aşdı. Həyətə düşüb bir neçə saniyə yerində dayandı. Ətrafda tam sakitlik hökm sürürdü. Ehtiyatla evin böyründən sovuşub arxaya keçdi və həyətin aşağısına doğru irəlilədi. Tövləyə çatanda bir daha ətrafa boylanıb qapıya yaxınlaşdı. Tövlənin qapısından iri bir qıfıl asılmışdı.

Artıq, oğurluğa gəldiyinə heç bir şübhə qalmayan bu adam dodağının altında söyüş söyüb tövlənin ətrafına hərlənməyə başladı. Nəhayət, əlində dəmir ling yenidən qapıya yaxınlaşdı. Lingi qıfılı özündə saxlayan halqalardan birinə keçirib, onu yerindən çıxartdı və qapını açıb içəri daxil oldu. Tövlədə iyirmiyə yaxın qoyun-quzu və tək bir inək var idi. Naməlum



downloaded from KitabYurdu.org

adam cibində gətirdiyi kiçik elektrik fənərini çıxarıb yandırdı. Qoyunlar ürküb tövlənin bir tərəfinə sıxlaşdılar. Onlar yad adamı tam görməsələr də, işığa tərəf dəli kimi baxırdılar. Gözləri az qalırdı ki, hədəqəsindən çıxsın. Adam fənərin işığını aşağı saldı. Tövlənin döşəməsinə yastı çay daşlan döşənmişdi. Aşağı əyilib qəribə yerişlə qoyunlara tərəf getməyə başladı. Sol əlini bir neçə dəfə döşəmə daşlannm arasındakı palçığa vurduğu üçün əli torpağa və peyinə bulaşmışdı. Qoyunlara çatanda onlar cəld sıçrayıb bu adamın sağ-solundan atıldılar və inəyin bağlandığı küncə toplaşdılar. Onlar elə sıxlaşmışdılar ki, sanki bir-birinin içinə keçmişdilər. Naməlum adam yenə də yanoturmuş vəziyyətdə, yavaş-yavaş onlara tərəf getdi. Bilərəkdən işığı onların üstünə yox, döşəməyə salırdı. Nəhayət onlara çatmağa az qalmış işığı qoyunların üzünə saldı və bir kök quzunu gözaltı elədi. İşıqdan bir az da qorxuya düşmüş qoyunların ürəkləri partlamaq dərəcəsinə gəlirdi. Onlar bir də sıçrayıb tövlənin o biri başına qaçmaq istəyəndə adam cəld atılıb quzunun yunundan yapışdı. Quzu çapalasa da onun qüvvətli əlindən çıxa bilmədi.

Naməlum adam quzunu tövlədən çıxarıb qapını örtdü və onu qucağına alıb sürətlə evin

yanından keçdi. Darvazaya çatıb cəld cəftəni çəkdi və qapını açıb küçəyə çıxdı.



downloaded from KitabYurdu.org

... Ay hələ də onu qoynuna almış qara buludun əlindən qurtara bilməmişdi. Kəndin üstündə hakimiyyət hələ də zülmət qaranlığın əlində idi. Ancaq buludun Ayı azadlığa buraxmağına lap az qalmışdı. Bir azdan Ay yenə öz əsrarəngiz işığını kəndin üstünə səpəcəkdi. Bunu başa düşən adam kəndin küçəsi ilə, qollarını yelləyə-yelləyə sürətlə addımlayırdı...

Kişilər yenə həyətdəki stolun arxasında toplaşmışdılar. Ev sahibi Qanbay Qasımlıya kəndin qışı haqqında danışırdı. Ancaq polkovnik ona diqqətlə qulaq asa bilmirdi. Gecə rahat yatmasına baxmayaraq, nədənsə narahat görünürdü. Elməddin kənarda samovara od atır, Nuridə süfrəyə qab-qacaq daşıyırdı. Qonaqlar üçün kənddəki axırıncı səhər yeməyinə hazırlıq görülürdü. Nemət stoldan bir qədər aralı oturub, oğlu İlhamla söhbət edirdi. Atasının bu gün Bakıya qayıdacağını bilən uşaq ondan əl çəkmirdi. Elə yuxudan da ona görə tez durmuşdu. Təkcə Mahir gözə dəymirdi. Mehdixan kişi söhbətini qurtarıb Elməddinə baxdı:

- Mahir durmayıb hələ?

- Yox! Gedim oyadım? - Elməddin evə çıxmaq istədi.

- Lazım deyil! Nə vaxt istəsə, o vaxt qalxar. Sən tapşır, Qanbay müəllimə çay versinlər.

Bu vaxt darvaza açıldı və Əhliman həyətə daxil oldu. Elə qaş-qabaqlı və həyəcanlı vəziyyətdə idi ki, deyərdin, qabağına



downloaded from KitabYurdu.org

çıxan adamı bu saat vurub öldürəcək. Qonaqlara ağızucu salam verib, birbaş Mehdixan kişiyə yaxınlaşdı. Ev sahibinin göstərdiyi stulda oturmaq istəməyib:

- Sağ ol. Sözümü deyib gedirəm! - dedi. - Mən başa düşə bilmirəm ki, bu necə kənddir? Elə bil yiyəsi yoxdur, dərəbəylikdir!

- Nə olub, ay Əhliman? - Mehdixan kişi sualedici baxışlarını onun üzünə dikdi.

- Daha nə olacaq? Bu gecə tövləmə oğru girib! Cəftəni yerindən çıxarıb, bir kök quzunu apanb.

- Nə danışırsan? - İcra nümayəndəsi təəccübləndi.

Ancaq Qasımlı, deyəsən, ondan da çox təəccüblənmişdi. Əhlimana tərəf əyilib:

- Quzunu apanblar? - deyə soruşdu.

- Hə! - Əhliman ona tərəf çevrildi. - Bir halqa qapıya, bir halqa da çərçivəyə vurub qıfılı həmin halqalara keçirmişdim. Ling ilə halqaların birini yerindən qoparıb. Mənə sataşan indiyə qədər olmamışdı. Özü də belə!

- İşə düşmədik? - Mehdixan kişi dilxor oldu. - İşin birindən qurtarmamış, o birinə düşürük. Qoyun oğrusu, narkoman, qatil, nə istəsən var bu xarabada!..

- Mən başa düşə bilmirəm, bu necə adamdır? - Əhliman əl-qolunu ölçə-ölçə deyinməyə başladı. - Qurd ürəyi yeyib elə



downloaded from KitabYurdu.org

bil. O hündürlükdə hasarı aşasan, evin düz qabağından keçib, həyətin ayağında tövləni yarasan! Sonra da elə ağır quzunu götürüb aparasan! Bu, ancaq təcrübəli oğruların işi ola bilər!

- Niyə it saxlamırsınız həyətdə? - Nemət maraqlandı.

- Ay başına dönüm, heç yatanda yuxuma da girməzdi ki, kimsə mənə sataşmaq fikrinə düşə bilər.

- Bu sataşmaq deyil ki?.. Sadəcə, oğurluqdur! - Nemət təskinlik vermək istədi.

- Mənim üçün sataşmaqdır! - Əhliman əlini sinəsinə vurub, yenə icra nümayəndəsinə üz tutdu. - Xahiş edirəm, ağsaqqal, çalış ki, tezliklə tapılsın bu adam!

- Əyləş, bizimlə çay iç, Əhliman! - Ev sahibi əli ilə bir də stulu göstərdi.

- Yox, getməliyəm, çox sağ ol! Bu gün o rəhmətliyin yasını yola verməliyik.

- Onda get, arxayın ol. Ağamurada deyərəm, axtarar.

Əhliman həyətdən çıxdı. Onun arxasınca baxan ev sahibi hirslə əlini dizinə çırpdı:

- Bu bir həftədə sakit bir günümüz olmadı, ay kişilər, belə dərd olar? A köpək oğlu, acsan, gəl de ki, acam, ölürəm, daha oğurluq niyə eləyirsən?!



downloaded from KitabYurdu.org

Qasımlı bir söz demədən astaca başını buladı. Bilmirdi bu işə qəzəblənsin, yoxsa gülsün...

Elməddin samovarı qaynadıb arvadını səslədi. Nuridə aşağı düşüb çay dəmlədi. Mahir də ayılmışdı. Tənbəl-tənbəl həyətə düşüb əl- üzünü yudu. Nuridənin verdiyi dəsmalla qurulanıb süfrənin arxasında oturdu. Salam vermək, deyəsən, yadından çıxmışdı. Yuxulu gözləri ilə qarşısındakıları süzürdü.

- Sabahın xeyir, Mahir müəllim! - Nemət dostuna sataşdı.

- Hə, bağışlayın, sabahınız xeyir! - deyə Mahir üzünü Nemətə yox, ev sahibinə tutdu. - Axşam çox yediyimə görə, narahat yatmışam, ona görə gec ayıldım.

- Canın sağ olsun! - Mehdixan kişi bunu deyib əlini çörəyə uzatdı.

O birilər də ona baxıb, əllərini çörəyə uzatdılar. Süfrədə təzə sağılmış camış südündən tutmuş, beçə balına qədər, səhər yeməyi süfrəsini zənginləşdirə bilən hər şey var idi. Səhər yeməyi sakit və şən keçdi. Heç kəs qanqaraldıcı hadisələrdən söhbət salmadı.

Səhər yeməyini təzəcə qurtarmışdılar ki, darvazanın qabağında bir maşın dayandı.

- Allah xeyir eləsin! - deyə ev sahibi gözünü darvazaya dikdi. Maşının qapıları bərk çırpıldı. Elə o saat da darvaza açıldı və sahə müvəkkili iki gənc polis əməkdaşı ilə həyətə



downloaded from KitabYurdu.org

daxil oldular. Polis işçilərindən birinin çiynindən avtomat asılmışdı. O birini isə qonaqlar artıq tanıyırdılar. Şöbəyə məxsus UAZ-ı sürürdü.

İcra nümayəndəsi qalxıb gələnlərlə görüşdü və onları stol arxasına dəvət etdi. Ağamurad stol arxasında əyləşənləri ciddi nəzərlərlə süzüb sonra Mehdixan kişiyə baxdı və səsini bir qədər alçaltdı:

- Ağayan aparmağa gəlmişik!

Mehdixan kişi bir söz deməyib, təəccüblə başını yellədi. Sonra birdən yadına düşmüş kimi, Miriyevi kənara çəkib dedi:

- Bu gün qardaşının dəfninin yeddinci günüdür. Üçünə gələ bilməyənlər də bu gün gələcək. Bəlkə gözləyib, sabah aparaydınız?..

- Yox, ağsaqqal, - Miriyev başını buladı. - Sənin sözün mənim üçün qanundur, ancaq bizi rəis özü göndərib! Ağayar hökmən bu gün getməlidir!

- Nə deyirəm?.. - İcra nümayəndəsi çiyinlərini çəkdi. - Onda keçin əyləşin, bir stəkan çay için!

Sonra Mehdixan kişi Əhlimanın tövləsindəki oğurluq barədə sahə müvəkkilinə xəbər verdi.

- Elə bircə quzu apanblar? - Ağamurad təəccüblə soruşdu.

- Hə, ən kökünü seçib aparıblar...



downloaded from KitabYurdu.org

Ağamurad özü ilə gətirdiyi polis

əməkdaşlarına işarə etdi:

- İcazə verin, bunlar burada gözləsinlər, mən bir az kəndi gəzib gələcəyəm.

O bunu deyib həyətdən çıxdı. Ev sahibi polis işçilərini süfrəyə dəvət edib, onlar üçün çay gətiz¬dirdi.

Bu zaman Ağamurad küçələri gəzə-gəzə gəlib Əhlimangilin küçəsinə çıxdı. Küçədə qurulmuş yasxanaya haradansa əlavə stullar daşıyırdılar. Əhliman rəhbərlik edir, üç-dörd yeniyetmə oğlan isə işləyirdi. Sahə müvəkkili Əhlimanı yanma çağınb onunla həyətə girdi. Bir daha hadisənin necə olduğu ilə maraqlandı. Aşağı enib tövləyə baxdılar. Ağamurad diqqətlə tövləyə, onun qapısına, çıxarılmış halqalara göz gəzdirdi. Sonra yenə geriyə qayıdıb, yasxananm yanma gəldilər.

Miriyev Əhlimana:

- Sən işinlə məşğul ol! - deyib Mahmudun həyətinə girdi. Ağayar xörək bişirmək üçün müvəqqəti qurulmuş açıq mətbəxdə iki qadınla söhbət edirdi. Onlardan biri, başına qara yaylıq örtmüş kədərli qadın, yəqin ki, bacısı idi.

Miriyev ucadan:

- Allah ehsanınızı qəbul eləsin! - dedi.

Sonra Ağayarla görüşüb, birlikdə həyətdə



downloaded from KitabYurdu.org

gəzərək söhbət etməyə başladılar. Kəsilib

yanmçıq hamamın divan dibinə atılmış üç qoyun başı sahə müvəkkilinin diqqətindən yayınmadı.

- Qoyun-quzunu örüşə buraxmısan? - deyə soruşdu.

- Hamısını öz həyətimə aparmışam. - Ağayar cavab verdi. - Burada yiyəsiz qoymaq olmazdı axı!?

Sahə müvəkkili qabaqda, Ağayar isə onun arxasınca tövləyə tərəf getdilər. Miriyev tövlənin qapısını açıb içəri girdi. Orada bir kök quzu var idi. Quzu qapının açıldığını görüb bərkdən mələdi və tövlədən çıxmağa çalışdı. Miriyev ona imkan verməyib qapını örtdü və:

- Bu kimindir? - deyə Ağayardan soruşdu.

Ağayar özünü itirmişdi.

- Mənim bundan xəbərim yoxdur...

- Zarafatını saxla! - Miriyev istehza etdi. - Gedək, Mehdixan kişigildə söhbət edərik.

- Ağamurad! - Ağayar həmişəki kimi ona adı ilə müraciət etdi. - Sən öl, mənim bu quzudan xəbərim yoxdur! Mən öz evimdə olmuşam.

- Mən sənə nə deyirəm ki? - Ağamurad güldü. - Deyirəm gedək, beş-on dəqiqə nümayəndənin evində söhbət edək. O, məni gözləyir. Çay süfrəsini yarımçıq qoyub gəlmişəm.



downloaded from KitabYurdu.org

- Yaxşı... Gedək... - Ağayar bu adamı tanıya bilmirdi. Guya hər həftə onunla araq süfrəsində oturan Miriyev deyildi bu...

Onlar həyətə girəndə Mehdixan kişi qalxıb hər ikisini süfrəyə dəvət etdi. Miriyev razılaşmadı:

- Biz getməliyik, ağsaqqal, rəis bizi gözləyir. - Sonra Ağayara tərəf döndü: - Sən də keç otur maşında!

- Niyə?! - Ağayar sanki qulaqlarına inanmadı.

- Rəis söhbət eləmək istəyir səninlə!

Ağayarın boğazı bir andaca qurudu:

- Ağamurad müəllim, sənə qurban olum, mən nə etmişəm ki? Həm də bu gün qardaşımın yeddisidir axı?!

Sahə müvəkkili bir söz deməyib çiynindən avtomat sallanmış polis əməkdaşına baxdı. O da həmin dəqiqə yaxınlaşıb Ağayann qolundan tutdu və aparıb maşının arxa hissəsindəki qapalı yerdə otuzdurdu. Qapını arxadan bağlayıb özü də maşına mindi. Ağamurad sürücünün yanında əyləşəndə Mehdixan kişi ondan oğurlanmış quzu barədə soruşdu.

- Mahmudun tövləsindədi. Ağayar oğurlayıb onu. Əhlimana deyin, gedib aparsın! - deyə Miriyev cavab verdi və maşının qapısını çırpdı. Maşın şəhərə yola düşdü.

Saat on bir olmuşdu. Qonaqlar nahardan sonra yığışıb Bakıya gedəcəkdilər. Artıq müəyyən hazırlıq işləri də görülmüşdü.



downloaded from KitabYurdu.org

Hətta Nemət «Qaz- 24»-ün üstündən örtüyü götürmüş, təmizləyərək işə salıb yoxlamışdı. Qabaq şüşəsinə «PRESS» yazılmış lövhə yapışdırılan Volqa süfrə açılmış stolun yanındaca üzü darvazaya dayanmışdı. Stolun arxasında Nemətlə üzbəüz oturmuş Mehdixan kişi çay gətizdirdi. Heyva ağacının altında söhbət edən Qasımlı ilə Mahiri də çay içməyə dəvət etdi. Onlar da gəlib süfrənin arxasında oturdular.

Artıq yağlı bir quzunu kəsib, ətini doğramış Elməddin də əlini yuyub çay içmək üçün onlann yanma gəldi.

- Deməli, gedirsiniz?... - deyə ev sahibi mehribanlıqla, sadə görünməyinə baxmayaraq, Nemətdən eşitdiklərinə görə qeyri-adi insan hesab etdiyi Qasımlıya müraciət etdi.

- Bəli! Sizdən çox razıyıq, Mehdixan əmi! - Qasımlı düşüncəli tərzdə dilləndi. - Bizim üçün çox zəhmət çəkdiniz.

- Heç bir zəhməti - filanı yoxdur. Bu bizim borcumuzdur.

- Biz bir neçə saatdan sonra buradan gedəcəyik. Ona görə də istəyirəm, sizə kiçik də olsa, öz xidmətimi göstərim. - Qasımlı dedi.

- Nə barədə? - Mehdixan kişi maraqla soruşdu.

- Mən bir həftə əvvəl baş vermiş cinayət haqqında danışıram. Bilirəm ki, bu hadisə siz də daxil olmaqla, bir çoxlarının yuxusunu ərşə çəkib.



downloaded from KitabYurdu.org

- Sizin bu hadisə barədə bildiyiniz bir şey var? - Mehdixan kişi özündən asılı olmayaraq həyəcanlandı.

- Bəli...

- Onda xahiş edirəm, köməyinizi əsirgəməyin!

Nemət fəxrlə, bir az da məzəmmətlə qonşusuna baxdı:

- Deməli, siz burada da işlə məşğul olmusunuz?! Ancaq mənim bundan heç xəbərim olmayıb.

- Yox! - Qasımlı etiraz etdi. - Mən heç bir işlə məşğul olmamışam. Əlbəttə, hərdənbir düşünməyi iş hesab etməsək.

- Elə sizin işiniz düşünməkdi də!.. - Nemət gülümsədi.

- Qoy Qanbay müəllim öz fikrini desin! - icra nümayəndəsi artıq söhbəti kəsmək istədi.

Qanbay Qasımlı stulunu qabağa çəkib danışmağa başladı:

- Buraya istirahətə gəldiyimiz üçün baş vermiş cinayət hadisəsinə qarışmaq fikrim qətiyyən yox idi. Mahirin xahişi ilə biz hadisə yerində olduq və mən orada doğrusu, elə bir qeyri-adi şey görmədim. Əlbəttə, çox xırda detalları nəzərə almasaq. Və keçən iki gün ərzində hadisə barədə heç nə düşünmək istəmədim.

Mayın 22-də, sahə müvəkkili burada olanda pəncərədə görünən kölgə haqqında ilk dəfə onun dilindən eşitdim. Əhliman deyibmiş ki, həmin gecə Mahmudun otağının



downloaded from KitabYurdu.org

pəncərəsində yad adamın kölgəsini görüb. Eyni zamanda, qeyd edib ki, bu arıq və uzun adamın kölgəsi imiş. Həmin söhbəti eşidən kimi mən Əhlimanın özündən şübhələndim. Bu şübhəm o qədər güclü və aydın idi ki, hətta mən, Əhlimanın bu cinayətdə əli olmağına qəti inandım.

- Bu heç kəsin ağlına gəlməyən bir şeydir! - Mahir dözməyib onun sözünü kəsdi. - Axı siz ondan nəyə əsasən şübhələndiniz?

- Bunu icazə versəniz, axırda deyərəm... - polkovnik bir siqaret yandırıb söhbətinə davam etdi:

- Hadisələrin gedişinə diqqətlə fikir verəndə, mən daha başqa şübhəli məqamlar da aşkar etdim. Məsələn, uşaq danışırdı ki, həmin gün Mahmud onların həyətinə gəlib və çəkic istəyib. Həmin vaxt Əhliman həyətin o biri tərəfində, tövlədə imiş. Mahmud özü birbaş tövləyə gedib və o saat əlində çəkic, Əhlimanla birlikdə geri qayıdıb. Bu hadisə günortadan sonra olub. Deyək ki, saat üç radələrində. Biz özümüz günortaya yaxın gəzintidən qayıdanda Mahmudu görmüşdük. O, küçədən daş aparıb, həyətdə hamam tikirdi. Açıq darvazadan yarımçıq tikinti görünürdü. Mahmud onda hamamın divarını beş sıra çəkmişdi. Səhəri gün biz orada olanda isə, mən gördüm ki, əlavə olaraq, cəmi iki sıra daş çəkilib. Həm də hazırlanmış sement palçığının çox hissəsi bərkiyib zay olmuşdu. Bu onu göstərirdi ki, Mahmud Əhlimangildən



downloaded from KitabYurdu.org

çıxandan sonra işləməyib. Evdə də, stolun üstündə bir araq şüşəsi və yansı yeyilmiş duzlu xiyar gördük. Ekspertiza göstərmişdi ki, Mahmud şam yeməyi yeməyib. Arağı da özü içib. Əslində, sizin deməyinizə görə, içki həvəskarı olmayan Mahmud yeməksiz ancaq xiyarla araq içib. Bütün bunlar onun saat üçdən sonra həyəcanlı, daha doğrusu güclü stress vəziyyətində olduğunu göstərirdi. Mən belə qərara gəldim ki, əslində, bəzi etika qaydalarını pozan Mahmud tövlənin qapısını birbaşa açıb və orada qeyri-adi bir şey görüb...

- Nə?! - Nemət səbirsizlik göstərdi.

- Elə bir qeyri-adi şey ki, ona görə öz həyatından məhrum olub! - Qasımlı təmkinlə davam etdi. - Mahmudun tövlənin qapısını açıb orada nəyisə görməyindən özü qədər Əhliman da həyəcanlanıb və özünü itirib. Yadınızdadırım, uşaq deyirdi ki, atam onu darvazaya qədər ötürdü. Mənə belə gəlir ki, Mahmudu ötürmək lazım deyildi. Çünki o, həmin həyətə tez-tez gəlib-gedən adam idi. Özünü tamamilə itirən Əhliman nə edəcəyini bilmədiyi üçün onu qapıya qədər ötürmüşdü.

- Axı nə görüb Mahmud? - Bu dəfə Mehdixan kişi sual verdi.

- Elə məni də bu sual düşündürürdü. - Polkovnik ona maraq və diqqətlə qulaq asanlara ani olaraq göz gəzdirib davam etdi: - Ayın 18-də, gecə Bayəddin adlı sürücü kimisə kəndə gətirmişdi. Kəndə deyəndə ki, Əhlimanın darvazası qarşısına.



downloaded from KitabYurdu.org

Çünki onun darvazasının qarşısı ilə, Mahmudun darvazasının qarşısı eyni bir yerdir. Bəs Bayəddin həmin gecə öz maşınında oraya kimi gətirə bilərdi? Əlbəttə, mən artıq Əhlimana inanmadığım üçün düşündüm ki, çoxları üçün naməlum olan bu sərnişin onun öz arvadı Səfayə olub!

Mehdixan kişi dəhşətlə irəli əyildi. Elə bil polkovnikin ağzından çıxan sözləri itirməkdən

qorxurdu. Elməddin isə özündən asılı olmayaraq «Ay Allah!» - deyə səsləndi.

Qanbay Qasımlı onların reaksiyasına fikir vermədən söhbətini davam etdirdi:

- Bayəddinin maşınını meşə yolunun başlanğıcında görən şahid deyibmiş ki, sürücünün arxasındakı qapı açıq idi və kimsə onu örtdü. Adətən həmin yerdə maşına tək minmiş qadınlar oturur ki, sürücünün gözlərinə çox tuş gəlməsinlər. Səfayə necə olub ki, Bayəddinin maşınına minib, bunu dəqiq deyə bilmərəm, ancaq o istəməzdi ki, onu yad kişinin maşınında görsünlər. Ona görə də, həmin adamın maşını yaxınlaşanda Səfayə aşağı əyilib

ki, onu görməsinlər. Sözsüz ki, qapını örtən də qadın özü olub.

Onun oğlu burada danışanda fikir verdinizmi? O, əvvəlcə maşın səsi eşidib, ayılıb. Elə o saat da, onu yenidən yuxu aparıb. Uşaq qorxulu yuxu görüb. Yuxuda anasının boğularkən onu səslədiyini eşidib ayılıb. Yəqin ki, bir az



downloaded from KitabYurdu.org

sonra, yəni o, tam özünə gələndən sonra atası içəri girib və uşaq soruşub ki, maşınla gələn kimdir? O, elə bilib ki, maşının səsini atası otağa daxil olandan bir-iki dəqiqə əvvəl eşidib. Ancaq bu mümkün deyil. Çünki uşaq maşının qapısı çırpılandan sonra, maşının o saat işə salındığını, yoxsa bir az vaxt keçdiyini xatırlaya bilmədi. Çünki onu həmin vaxt yuxu tutmuşdu. Ancaq görürsünüzmü, atasına verdiyi sualı və onun cavabını dəqiq xatırlayırdı. Deməli, atası, uşaq yuxunu görüb ayılandan sonra, yəni ki, maşın gəlib-gedəndən xeyli sonra evə çıxıb. Bu arada ən azı iyirmi dəqiqə, bəlkə də bir saat vaxt keçib. Bəs həmin vaxt ərzində Əhliman həyətdə neyləyirmiş? - Təcrübəli ekspert siqaretini axınncı dəfə sümürüb kənara atdı və öz sualına özü cavab verdi:

- Əhliman həmin vaxt ərzində arvadını ya mübahisə zəminində, ya da bilərəkdən, düşünülmüş şəkildə öldürmüş və cəsədini aparıb tövlədə gizlətmişdir. Bu vaxt cəsədi görən qoyunlar elə dəhşətli qorxu keçirib ki, səhəri gün Əhlimanın oğlu onları açıb küçəyə çıxaranda

qaçıb meşəyə dağılıblar. Yadınızdadırsa, biz bunu həmin gün Elməddindən eşitdik.

Elməddin təsdiq əlaməti olaraq başını tərpətdi. O, həddindən artıq həyəcanlı vəziyyətdə idi. Mehdixan kişi yaranmış ani fasilədən istifadə edib onu maraqlandıran suala cavab almaq istədi:



downloaded from KitabYurdu.org

- Sözləriniz çox ağlabatandır, Qanbay müəllim! Ancaq bəs nəyə görə Bayəddin həmin gecə kəndə kimi gətirdiyini boynuna almaq istəmir?

- Mənim mülahizəmə görə, - Qasımlı üzünü ev sahibinə tutdu:

- Əhliman arvadını öldürüb, meyitini tövlədə gizlədəndən sonra, səhər tezdən durub şəhərə gedib. Orada Bayəddini tapıb, onu ölüm qorxusu ilə hədələyib. Tapşırıb ki, Səfayəni kəndə gətirdiyini boynuna almasın.

Kəndə qayıdan kimi, Əhliman buraya gəlmişdi və arvadının yox olduğunu sizə bildirdi. O, evə qayıdıb nahar edərək, tövləyə gedir və daş döşəməni söküb torpağı qazır. Meyiti gizlətdiyi yerdən götürüb qazdığı çuxura qoyur. Mənim fikrimcə, məhz elə bu vaxt Mahmud tövləyə girir. Çox güman ki, özünü görməməzliyə vurub tez də tövlədən çıxır. Nə üçün gəldiyini deyir və çəkici alıb gedir.

Bundan sonra Əhliman düşünür ki, Mahmud gec ya da tez onu satacaq. Ona görə də, qaranlıq düşəndən sonra gizlicə qonşusunun evinə gedib, onu öldürür. Mən, Mahmudun otağın qapısına yaxın, arxadan zərbə alaraq, ağzı üstə yıxıldığını görəndə təəccüblənmişdim. İndi isə başa düşürəm ki, darvazanı açan Mahmud Əhlimanı görüb, onu könülsüz içəri dəvət edib. Sonra isə həyəcanlı vəziyyətdə olduğu üçün onun qabağına düşüb, otağa qədər gedib. Hörmət əlaməti olaraq



downloaded from KitabYurdu.org

Əhlimanı qabağa vermək belə vəziyyətdə heç yada düşməzdi. Nəhayət otağa çatan kimi Əhliman özü ilə gətirdiyi bıçaqla Mahmudun kürəyindən zərbə endirib.

Bu danışdıqlarımı mən artıq dünən dəqiqləşdirmişdim. Mülahizələrimin düzgünlüyünə yüz faiz əmin olmaq üçün dostumuz kapitan Talıbovdan xahiş etdim ki, əgər razıdırsa, gecə Əhlimanın tövləsinə girib, döşəməyə baxsın və öyrənsin görək, orada yeni qazıntı əlaməti varmı? Talıbov yanm saat bundan əvvəl heyva ağacının altında mənə bildirdi ki, tövlədə doğrudan da bu yaxınlarda qazıntı işi aparılıb.

- Deməli, bu gecə Əhlimanın tövləsinə girən Mahir olub? - Mehdixan kişi bilmirdi ki, bu danışılanlara inansın, yoxsa yox.

- İcazə verin, mən özüm danışım. - Mahir söhbətə qarışdı. - Axşam heyva ağacının yanında söhbət edəndə Qanbay müəllim mənə dedi ki, Əhlimanın tövləsinə baxmaq lazımdır. Dəqiq deməsə də, başa düşdüm ki, polkovnik qadının orada basdırıldığından şübhələnir. Dedi ancaq elə etmək lazımdır ki, bundan heç kəs duyuq düşməsin. Mən razılaşdım. Gecə hamınız yatandan sonra yerimdən qalxıb, oraya getdim. Tövləyə çatanda gördüm ki, qapıda qıfıl var. Geri qayıtmaq istəmədim. Qanbay müəllimin xahişini yerinə yetirməliydim. Linglə halqanı çıxarıb tövləyə girdim. Diqqətlə baxanda gördüm ki, döşəmənin orta hissəsində, iki metr uzunluqda



downloaded from KitabYurdu.org

yerdə, döşənmiş daşların arasında peyindən başqa, təzə qazılmış qara torpaq da var. Başa düşdüm ki, orada doğrudan da qazıntı olub. Sonra fikirləşdim ki, beləcə geri qayıtsam, Əhliman halqanın qoparıldığını görüb duyuq düşər və meyitin yerini dəyişər. Ona görə də yaxşı bir quzunu seçib götürdüm. Onu buraya gətirəcəkdim. Ancaq özümü yormamaq üçün keçib Mahmudun tövləsinə saldım və evə qayıtdım... - Birdən üzünü Qasımlıya çevirdi. - Qanbay müəllim, yəni doğrudan, mən düz eləməmişəm?

- Bilmirəm... - Qasımlı güclə seziləcək tərzdə gülümsədi. - Ömrümdə ilk dəfədir ki, aydın bir hadisəyə qiymət verə bilmirəm. Əslində günah məndədir ki, sizi oraya göndərdim. Mən həmişə öz mülahizələrimə inanmışam və gərək bu dəfə də inanaydım. Tövləni yoxlatdırmamış hökm verəydim ki, orada meyit basdırılıb.

- Hər halda, bu mənim həyatımda etdiyim ilk oğurluq olduğu üçün çox ağır cəza verməzlər.

- Mahir gizlicə Nemətə göz vurdu.

- Yox, bir dəfə də bir qızın çantasını oğurlamısan, -deyə Nemət dilləndi.

Mahir əlini yelləyib ayağa qalxdı. Stoldan uzaqlaşıb həyətin aşağısına doğru getdi. Tövlənin qabağında gəzişən Alabaşı çağırıb onunla oynamağa başladı.



downloaded from KitabYurdu.org

İcra nümayəndəsi əllərini çənəsinə söykəyib fikrə getmişdi. Qaşlan elə düyünlənmişdi ki, elə bil bir daha açılmayacaqdı. «İnsan nə qədər hiyləgər olarmış, İlahi! - deyə Əhlimanın barəsində düşünürdü. - Gözlərimin içinə baxa- baxa məni necə aldadırdı bu ilan. Mən də elə bilirdim ki, adam tanıyıram. Bilməzdim ki, bu dərəcədə maskalana bilərmiş insan... Yox, Qanbay müəllim burada olmasaydı, heç vaxt

açılmayacaqdı bu işin üstü. Heç vaxt! Ancaq bu da qurd imiş. Nemət danışırdı bunun haqqında, amma mən belə təsəvvür etmirdim...»

Başını qaldırıb qarşısındakı adamı qibtə hissi ilə süzdü:

- Siz böyük iş gördünüz. Bütün kənd camaatının adından sizə «Sağ ol» deyirəm. İndi polis şöbəsinə zəng vurub məlumat verəcəm. Yəqin ki, axşamüstü gələrlər. O vaxta qədər Mahmudun yasına gələnlər də dağılışar. Orada indi işə rəhbərliyi Əhliman köpək oğlu özü eləyir. Həm də onlar gələnə kimi sizi rahat yola salaram.

- Özünüz necə məsləhət bilirsinizsə, elə də edin! - Qasımlı ayağa qalxdı. - Biz nahar edən kimi çıxacağıq!

Mehdixan kişi də ayağa qalxıb rayon mərkəzinə zəng vurmaq üçün evə çıxdı. Şöbəni çətinliklə ala bildi. Telefon, nədənsə, yaxşı işləmirdi. Dəstəkdə xırıltı var idi. Onu rəislə calaşdırmağı xahiş etdi. Xəlilova Əhlimanın tövləsində meyit olduğundan şübhələndiyini bildirdi və dəstəyi yerinə qoydu.



downloaded from KitabYurdu.org

İndi nə etmək lazım olduğunu polis rəisi özü müəyyən edəcəkdi.

Naharın vaxtı idi. Qadınlar əl-ayağa düşüb, süfrəni düzəldirdilər. Bu, əziz qonaqlar üçün açılan axınncı süfrə idi. Onlar nahardan sonra Bakıya yola düşməliydilər. Elməddin doğradığı quzu ətinin duzunu, istiotunu vurub hazır qoymuşdu. Yandırdığı tonqalın közə düşməyini gözləyirdi. Kişilər stolun arxasında oturub söhbət edirdilər.

- Adamın heç inanmağı gəlmir, Vallah! - Ev sahibi söhbəti yenə onun üçün qaranlıq qalmış cinayətin üstünə gətirdi. - Yazıq qadın hansı günahın sahibi imiş ki, bu insafsızın oğlu onu öldürüb?! Bədbəxtin iki balası yetim qaldı...

- Yəqin ki, hər şey aydın olacaq! - Qasımlı dedi.

- Məni dəhşətə gətirən bilirsiniz nədir? - Nemət dilləndi. - Əhlimanın ilan kimi soyuqqanlı olmağı. Mən and içə bilərəm ki, o, burada arvadının yoxa çıxmasından danışanda gözlərində zərrə qədər də olsun, həyəcandan,

qorxudan əsər yox idi. Adam deyil o, robotdur. Onun ürəyi yoxdur!

Mahirin yadına nə düşdüsə, cəld Qasımlıya tərəf çevrildi.

- Qanbay müəllim, siz demədiniz axı necə oldu ki, bu cür ustalıqla cildə girmiş adamdan şübhələndiniz?

Qasımlı başını yırğalayıb sözə başladı:



downloaded from KitabYurdu.org

- Doğrusu, bilmirəm, necə olub ki, bu Əmirəliyevin ağlına gəlməyib...

- Nə? - Mahir səbrini basa bilməyib sual verdi.

- Mən Mahmudun evində olanda...

Maşın siqnalının səsi polkovnikin sözünü

ağzında qoydu. Mehdixan kişi cəld qalxıb qapıya çıxdı. Küçədə üç maşın dayanmışdı. Ağ rəngli «Niva» və qapılan üzərində «Polis» sözü yazılmış iki UAZ.

İcra nümayəndəsi «Nə tez çatdırdılar özlərini?..» deyə düşünüb «Niva»ya yaxınlaşdı. Arxa oturacaqda yanaşı əyləşmiş rayon prokuroru və polis şöbəsinin rəisi ilə görüşdü.

Polkovnik-leytenant Xəlilov:

- Keç əyləş! - deyə sürücünün sağındakı boş oturacağı göstərdi.

- Bəlkə əvvəlcə düşüb qonağım olasınız?..

- Yox! - Prokuror cavab verdi. Vaxtımız azdır.

Mehdixan kişi:

- Onda bir dəqiqə gözləyin! - deyib həyətə girdi. Qonaqlara görə pərt olmuşdu. Şöbəyə zəng vurmaqda tələsdiyi üçün özünü danlayırdı. Məsələni qonaqlara anlatdı.

- Biz də gəlib baxmaq istəyirik! - deyə Nemət cəld dilləndi. Mahirlə Elməddin də onun fikrinə şərik oldu.



downloaded from KitabYurdu.org

- Özünüz bilərsiniz! - deyib Mehdixan kişi həyətdən çıxdı.

Maşınlar hərəkətə gəldilər. Mahirgil həyətdən çıxanda, dönüb Qasımlıya baxdılar.

- Getmək istəyirsiniz, gedin! - Qasımlı stulda yerini rahatlayıb siqaret yandırdı. - Mən burada qalacam.

- Onda mən də qalıram. - deyə Elməddin geri qayıtdı.

Mahirlə Nemət həyətdən çıxıb Əhlimangilə tərəf getdilər.

Yas mərasimində çaşqınlıq hökm sürürdü. Ağayar tutulub aparıldığı üçün mərasimin ağsaqqalı Əhliman, bir də Mahmudun bacısının əri hesab olunurdu ki, onu da çoxları heç tanımırdı. Yasa gələnlərin əksəriyyəti bilmirdi ki, başsağlığını kimə versin...

Maşınlar gəlib yasxananm yanında dayandılar. Kapitan Vəliyev başda olmaqla beş nəfər silahlı polis əməkdaşı, tibb eksperti və videooperator maşınlardan düşüb Əhlimanın həyətinə girdilər. «Niva»dakılar da maşından çıxdılar. Müstəntiq Zeynalovla mayor Əmirəliyev, nəyə görəsə gəlməmişdilər.

Yasa gələnlərin çoxu yasxananm içində idi. Amma küçədə dayananlar da az deyildi. Onlardan biri qaçıb Mahmudun həyətinə girdi və orada xörəyin yasxanaya daşınmasına nəzarət edən Əhlimana yaxınlaşdı:



downloaded from KitabYurdu.org

- Əhliman, üç maşın dolusu polis gəlib. Sənin həyətinə girdilər...

- Nə danışırsan? - Əhliman karıxmış soruşdu.

- Hə! Rəislə prokuror da gəliblər.

- Sən get oraya, gəlirəm!

Əhliman dodaqlarını gəmirib, qəfəsə düşmüş canavar kimi ətrafına boylandı. Ani olaraq nə edəcəyini düşünməyə başladı. Birdən fikrini qətiləşdirib əks tərəfə yüyürdü. Alçaq çəpəri aşıb qonşu həyətə keçdi və sıra ilə əkilmiş qarğıdalı ləklərinin arasında gözdən itdi.

Mehdixan kişi yasxananm içinə göz gəzdirib Əhlimanı görmədi və Mahmudun həyətinə girdi. Oradakılar Əhlimanın qaçıb çəpəri aşdığını ona çatdırdılar.

Xəlilov bundan xəbər tutan kimi:

- Heç yana qaça bilməz! - deyib silahlı polis əməkdaşlarına Əhlimanı axtarmaq göstərişi verdi. Sonra Əhlimanın həyətinə girdilər. Cavidlə Təhminə pilləkənin yanında dayanıb matdım-

matdım onlara baxırdılar. Deyəsən, baş verən hadisədən heç nə anlaya bilmirdilər.

Prokuror icra nümayəndəsinə san dönüb uşaqlan göstərdi:



downloaded from KitabYurdu.org

- Bunları həyətdən apann! Qoy meyit çıxanlanda onu görməsinlər...

Mehdixan kişi küçəyə çıxıb Əhlimana qohumluğu çatan bir kişini çağırdı və tapşırdı ki, uşaqlan götürüb öz evinə aparsın. Həyətə qayıdanda prokuror bir də xahiş etdi ki, iki nəfər orta yaşlı adam tapıb gətirsin. Onlar həm tövlənin döşəməsini söküb meyiti çıxarmalı, həm də hal şahidi kimi tərtib ediləcək protokola imza etməli idilər.

Hər şey hazır olandan sonra birlikdə tövləyə tərəf getdilər. Tövlənin içi alaqaranlıq idi. Videooperator çəkiliş üçün özünə münasib yer seçib kameranı işə saldı. Mehdixan kişinin gətirdiyi adamlar polis rəisinin göstərişi ilə ling götürüb göstərilən yerdə döşənmiş daşları sökdülər. Daha sonra əllərinə bel alıb torpağı ehtiyatla qazmağa başladılar.

Qanbay Qasımlı həyətdə, kabab üçün qalanmış tonqalın yanında, stulda oturub, sönməkdə olan tonqala baxır, əlindəki şişlə kösövləri qurdalayırdı. Elməddin isə ondan bir qədər kənarda bardaş qurub doğranmış ət tikələrini şişə çəkirdi. Heç biri danışmırdı. İkisi də başa düşürdü ki, qonaqlann yola salınma mərasimi şən keçməyəcək və bu mümkün də deyildi. Kəndin o biri başında, Əhlimanın həyətində bu saat dəhşətli anlar yaşanırdı. Qadınlar da nahar süfrəsini könülsüz hazırlayırdılar. Sanki hamının üstünə su ələnmişdi.



downloaded from KitabYurdu.org

Darvaza açıldı və bir nəfər həyətə daxil oldu. Bu, kəndin sürücüsü Sabir idi. Elməddini görüb ucadan dilləndi:

- Mehdixan əmi haradadı?

- Əhlimangilin həyətindədi. Nə olub?

Sabir həyəcanla danışmağa başladı:

- Evin qabağında maşını yuyub təmizləyirdim. Birdən Əhliman gəlib maşının açarını istədi. Vermək istəmədiyimə görə üstümə bıçaq çəkdi. Açan alıb maşına oturdu və sürüb getdi.

- Haraya getdi? - Elməddin başını itirmiş halda sual verdi.

Sabirin baş verənlərdən xəbəri yox idi. Ona görə də bu hadisə ona qəribə gəlirdi.

- Bilmirəm. Mənə bu barədə heç nə demədi...

- Sürücü Bayəddinin evi haradadır? - Qasımlı birdən ayağa qalxıb Sabirdən soruşdu.

Sabir tanımadığı bu adama heyrətlə baxdı:

- Şəhərə girən kimi birinci tindən sağa dönüb gedirsən, solda üçüncü, ya dördüncü evdir. Damından sarmaşıq gülü sallanıb.

Küçədən görünür.

Qasımlı üzünü Elməddinə tutdu:



downloaded from KitabYurdu.org

- Polis şöbəsinə zəng vur, qoy Bayəddingilə adam göndərsinlər! Təcili!

Sabir həyətdən çıxdı. Elməddin cəld evə qalxıb şöbəyə zəng vurmağa çalışdı. Telefon yaxşı işləmirdi. Növbətçi polis işçisinin səsini eşidən kimi əlaqə kəsildi. Növbəti cəhd də bir nəticə vermədi. Əlaqə alınmırdı ki, alınmırdı...

UAZ-ın sükanı arxasında oturmuş Əhliman artıq kənddən xeyli uzaqlaşmışdı. Rayon mərkəzinə gedən asfalt yoldan burulub maşını başqa yola saldı. Bu torpaq yol bir qədər dolayı olsa da, onun bu yolla gedəcəyi heç kəsin ağlına gəlməzdi. Yol başqa tərəfdən şəhərə girib, birdaş Bayəddingilin küçəsinə çıxacaqdı.

Sükandan bərk-bərk yapışmış Əhliman, dişlərini qıcayıb kiminsə qarasına söyüşlər yağdırırdı:

- Səni yandıracağam. Satqın oğraş! Görəcəksən ki, mən dediyimi eləyən adamam. Yetimçənin başını cücə başı kimi üzüb arvadının əlinə verəcəm.

Qabaqda bir kənd görünürdü. Bu kəndin içindən keçib yoluna davam etməli idi.

Uşaqlarını fikirləşdi. «Görəsən biləndə nə deyəcəklər mənim haqqımda? Söyəcəklər məni... Əşi, cəhənnəm olsunlar! Görəsən meyiti tapıblarını? Şübhələnib gəliblərsə, deməli, tapacaqlar! İt kimi iy bilirlər köpəkuşağı. Mən onların əlinə



downloaded from KitabYurdu.org

heç bir əsas verməmişəm ki, məndən şübhələnsinlər. Satıb məni ti oğlu, it! Mələdiblər orada, dözməyib satıb! İndi mən balasının başını kəsəndə lap bərkdən mələyəcək.»

Yol üstündəki kəndə çatdığı üçün sürəti bir qədər azaltdı...

Qanbay Qasımlı qəti qərara gəlib, «QAZ- 24»-ün qapısını açdı. Açar maşının üstündə idi. Çevrilib pilləkəndə dayanmış Elməddinə baxdı:

- Darvazanı aç!

Elməddin bu qətiyyətli səsə kor-koranə tabe olub darvazanı taybatay açdı. Yalnız bundan

sonra polkovnikin məqsədini başa düşüb ona mane olmağa çalışdı:

- Getməyin, Qanbay müəllim, indi onun gözünü qan tutub! Alçağın biridir o!

Qasımlı Bakıdan çıxanda tapançasını götürmədiyinə peşman olmuşdu. Ancaq daha fikirləşməyə vaxt yox idi. Maşına əyləşib onu işə saldı. «QAZ-24» nərildəyib həyətdən çıxdı və küçədə toz-duman yaradaraq gözdən itdi.

Torpağı qazıyanlar belin nəsə yumşaq bir şeyə toxunduğunu hiss edib, torpağı daha ehtiyatla kənara atmağa başladılar.

Nəhayət, meyit aşkara çıxdı. Bu, rayon polis şöbəsinin bir həftədən bəri hər yerdə axtardığı



downloaded from KitabYurdu.org

Səfayənin meyiti idi. Əhliman onu heç nəyə bükmədən, paltarlı vəziyyətdə basdırmışdı. Sifəti, paltarı torpağa bulaşmışdı.

Meyiti həyətə çıxartdılar. Ətrafı üfunətli qoxu bürüdü. Xəlilovla prokurorun yanında dayanmış Mehdixan kişi cib dəsmalı ilə bumunu tutdu.

Həyətə başqa adam buraxmırdılar. Hamı küçəyə, ya da evin qabağına yığışmışdı. Hamının üzündən zəhrimar tökülürdü.

Tibb eksperti yaxınlaşıb meyitə baxdı. Əli ilə meyitin üstündəki torpağı təmizləməyə başladı. Səfayənin sol qolu onun gözünə birtəhər göründü. Yoxlayıb prokurora tərəf döndü:

- Sol qolu biləkdən qırılıb!

Prokuror dillənmədi. Ekspertin gözü Səfayənin başındakı yara yerinə sataşdı. Öz- özünə danışırmış kimi:

- Küt alətlə başından vurublar! - dedi. Sonra ayağa qalxıb prokurordan soruşdu:

- Şəhərə aparacağıq?

- Mütləq! - prokuror cavab verdi.

- Atası yəqin ki, şəhər qəbiristanlığında dəfn edəcək onu. - Mehdixan kişi söhbətə qanşdı. - Burada dəfn etməyə razı olmaz. Ona görə də apanlsa yaxşıdır.



downloaded from KitabYurdu.org

Maşın dalınca adam göndərdilər. Tibb eksperti bir də meyitin üstünə əyildi. Nəyə görəsə, əlini Səfayənin sinəsinə sürtdü. Sonra donun yaxalığını qaldırıb meyitin sinəsindən bir fotoşəkil çıxartdı və onu prokurora göstərdi. Bu, Cavidlə Təhminənin birlikdə çəkdirdikləri fotoşəkil idi.

Əhliman yolun üstündəki kəndi arxada qoyub rayon mərkəzinə üz tutmuşdu. Əli sükanda, gözü yolda olsa da, fikri başqa yerdə idi.

“Məni Bayəddin satıb! Buna heç bir şübhə ola bilməz! Görəsən, buraxıblar alçağı? Buraxıblarsa özünü də öldürəcəm, uşağını da! Hamısını bıçaqdan keçirəcəm! Buraxmayıblarsa da, dediyimi edəcəm. Kəsəcəm gədəsinin başını! Arvadının da başına hər cür pislik açacam! Daha mənimki keçib. Sonra Bakıya qaçaram. Oradan

da Rusiyaya! Nə olar, olar! Qaradan artıq rəng yoxdur...”

Sürəti bir az da artırdı. Şəhərə çatmağa az qalırdı.

Ağ rəngli bir “QAZ-24” rayon mərkəzinə gedən asfalt yolda yüksək sürətlə şütüyürdü.

Meyiti maşına qoydular. Əhlimanı axtaran polis işçiləri onu tapa bilməyərək qayıdıb gəlmişdilər. Bu vaxt Sabir gəlib Əhlimanın maşınla kənddən çıxdığını xəbər verdi. Xəlilov cib telefonu ilə şöbəyə zəng vurmaq istəsə də, heç nə alınmadı. Onun əmri ilə hamı maşınlara doluşdu və tələsik yola düşdülər.



downloaded from KitabYurdu.org

Həyət tamamilə boşaldı. Mahmudun ehsan mərasimi dağılmışdı. Hamı küçədə beş-beş, on- on yığışıb bu hadisəni müzakirə edirdi. Camaat nə baş verdiyini hələ də tam mənası ilə anlamırdı. Tövlədən Səfayənin meyiti tapılıb... Əhliman qaçıb... Deməli Səfayəni öz əri öldürüb. Bəs Mahmud? Bəs onu kim öldürüb? Onu da yəqin Əhliman öldürüb. Nə üçün? Nə səbəbə?

Müxtəlif fikirlər səslənirdi bu barədə... ağlabatan, ağlabatmaz... Qara-qura fikirlər gəlirdi çoxunun beyninə...

Mehdixan kişi Mahirgili də götürüb evə qayıtdı. Həyətə girən kimi Elməddin məsələni atasına anlatdı. Mehdixan kişi Qasımlının məqsədini başa düşüb cəld evə çıxdı və telefonu götürüb şəhərə zəng vurdu. Birtəhər şöbəni ala bildi. Əhlimanın qaçdığını bildirib xahiş etdi ki, Bayəddinin evinə polis göndərsinlər.

Bu saat burada elə bir adam yoxdur. - deyə növbətçi cavab verdi. - Ancaq Əmirəliyev indi şöbəyə gəlməlidir, ona deyərəm...

Qanbay Qasımlı maşını Sabirin nişan verdiyi küçəyə döndərən kimi, dam örtüyündən sarmaşıq gülü sallanan ev diqqətini cəlb etdi. Evə çatmamış maşını əylədi. Düşüb təmkinlə darvazaya yaxınlaşdı. Darvaza bağlı deyildi. Onu itələyib açdı və həyətə daxil oldu. Bu kiçik və sadə bir həyət idi. Həyətin bir küncündə yığılmış maşın hissələri nəzərə



downloaded from KitabYurdu.org

alınmazsa, hər yerdə səliqə-sahman hökm sürürdü. Birmərtəbəli, kürsülü evin tinində əkilmiş sarmaşıq gül kolu qıvrıla-qıvrıla dama qalxmış, evin şifer damının lap başına çataraq, oradan üzü aşağı sallanmışdı. Çəhrayı rəngli gözəl güllər evin dam örtüyünə xüsusi yaraşıq verirdi. Gül kolu təkcə yaraşığına görə yox, gözəl ətrinə görə də Qasımlının xoşuna gəlmişdi. Bu ətir o qədər tünd və aydın idi ki, küçədən keçənləri də özünə cəlb edə bilərdi.

Gənc bir qadın evdən çıxdı. Qəmgin ala gözləri, sanki bu saat ağlayacağından xəbər verən kövrək dodaqları olan bu qadın Bayəddinin həyat yoldaşı Çinarə idi. Əyninə geydiyi yaşıl rəngli, sadə ev xalatı onsuz da qəşəng olan görünüşünə əlavə bir məhrəmlik gətirirdi. O, tanımadığı adamı həyətdə görüb təəccübləndi:

- Kimi istəyirsən, ay qardaş?

Qasımlı nəzərlərini sarmaşıq gülündən çəkib Çinarəyə baxdı:

- Bayəddinin dostuyam. Gəldim, sizə baş çəkim...

- Allah köməyiniz olsun!

Çinarə Qasımlımn iti nəzərləri qarşısında baxışlarını yayındırmağa çalışdı. Görkəmindən rayon adamına oxşamayan, son dərəcə qətiyyətli görünməyinə baxmayaraq, onunla səmimi və mehriban danışan bu şəxs ilk baxışdan Çinarədə xoş təsir oyatmışdı. O, ərinin belə bir dostu



downloaded from KitabYurdu.org

olduğunu bilmirdi. Sanki, qəlbinin hər yerinə ümid qığılcımları səpələndi.

Ramal gəlib anasının ayaqlarını qucaqladı. Qorxurmuş kimi sifətini xalata söykəyib, Qasımlıdan gizlətdi. Sonra çevrilib oğrun-oğrun yad qonağa baxmağa başladı. Əyninə boz şalvar, göy zolaqlı köynək, köynəyin üstündən göy rəngli nazik idman gödəkcəsi geymiş bu adam nədənsə ona çox doğma göründü.

- Sən kimsən? - deyə mehribanlıqla soruşdu.

- Atanın dostudur, - anası Qasımlının əvəzinə dilləndi.

- Əmisən? - uşaq anasının qıçlarını buraxıb sevincək soruşdu.

- Hə, əmiyəm...

- Atam niyə gəlmir bəs?

- Gələcək... Sabah gələcək!

- Sən də gələcəksən?

- Gələcəm...

- Mənim üçün nə alacaqsan?

- Nə alım?

- Tapança!



downloaded from KitabYurdu.org

Qasımlı cavab verməyə imkan tapmadı. Darvaza zərblə açıldı və gözləri az qala hədəqəsindən çıxmağa hazır olan Əhliman həyətə daxil oldu. Qasımlmı görüb bircə anlığa duruxdu. Onu harada gördüyünü xatırlamağa çalışdı və tez də tapdı. Bu, Mehdixan kişigildə gördüyü qonaqlardan biri idi. Nemətin dostu...

Fikirləşməyə vaxtı yox idi. Sağ əlində tutduğu, poladdan düzəlmiş uzun tiyəli bıçağı yuxarı qaldırıb birbaş evin qapısına tərəf getdi. Ona dəhşətli nəzərlərlə baxıb yerlərində donmuş Çinarənin və altı yaşlı uşağın üstünə!..

Polkovnik yan yolda onun qabağına keçib əlini qaldırdı:

- Dayan!

O bunu o qədər sakit və təmkinli səslə dedi ki, Əhliman bu səsin son dərəcə sakitliyindən üşürgələndi və dayandı.

- Bıçağı sal aşağı! - Qasımlı hökm etdi.

- Çəkil qarşımdan! - Əhliman bıçağın dəstəyini bərk-bərk sıxıb onu bir az da yuxarı qaldırdı. - Mən satqınlığı bağışlamıram!

Əhlimanın heç ağlına da gəlmirdi ki, cinayətinin sirrini açan, həmin bu, qarşısında dayanmış adamdır.

- Səni Bayəddin satmayıb. Ver mənə bıçağı! - Həyatının on beş ilindən çoxu Rusiyanın cinayət aləmində hər cür qatı



downloaded from KitabYurdu.org

cinayətkarlarla, qəddar manyaklarla mübarizədə keçmiş polkovnik bir daha sakit şəkildə tələb etdi.

Əhliman onun qırpılmayan gözlərinə, bircə əzələsi də tərpənməyən qətiyyətli sifətinə baxıb az qalırdı dəli olsun.

«Bu adam niyə bu dərəcədə sakitdir?! Axı mən onu bu saat vura bilərəm?! Bax, bıçaq mənim əlimdə, onun sinəsindən ikicə qanş məsafədədir. Bıçağı dəstəyinə qədər onun ürəyinə saplamağıma bircə saniyə lazımdır. O mənə nə edə bilər ki? Əlbəttə, heç nə! Mən ondan güclüyəm, ondan hündürəm. Silah da mənim əlimdədir. Bəs o, niyə belə arxaymdır? Onun gözlərində, lap iynə ucu boyda olsun, qorxu əlaməti yoxdur. Əksinə, istehza var bu baxışlarda. Həm də özünə arxayınlıq. Yəni, zərbədən yayınıb, bıçağı əlimdən ala bilər? Yox! Bəlkə artıq məni haradansa nişan alıblar? Lənət sənə kor şeytan! Bu niyə belə sakit baxır? Bunu da vuracağam! Cəhənnəmə ki! Mənin üçün daha heç nəyin fərqi yoxdur. Vurum, yoxsa...»

- Çəkil qabağımdan, yazıqsan!

Əhliman bunu dedisə də, hiss edirdi ki, qətiyyəti azalıb. Dəhşətli an hökm sürürdü. Nə

Çinarənin, nə də Ramalın danışmağa heyi yox idi. Ananın qorxudan gözləri geniş açılmış, sifəti ağappaq ağarmışdı. Uşağın isə həyəcandan ağzı açıq qalmışdı.

- Ver bıçağı, dedim sənə!



downloaded from KitabYurdu.org

Qasımlı bu dəfə elə hökmlə əmr etdi və gözlərində elə soyuq qığılcımlar oynadı ki, əlində bıçaq tutmuş adama bu şəkildə hökmü ancaq əlində avtomat silah tutmuş adam verə bilərdi. Ancaq Qasımlının başqa heç bir əlacı yox idi. O, nəyin bahasına olursa-olsun qalib gəlməliydi və ... qalib gəldi!

Əhliman əlini yavaş-yavaş aşağı endirdi. Polkovnik bundan istifadə edərək, əlini uzadıb

onun boşalmış əlindən bıçağı aldı. Sanki hipnoz olmuş qatil dayanıb nifrətlə Qasımlıya baxırdı.

Elə bu vaxt darvazanın düz qabağında basılmış əyləcin kəskin səsi eşidildi. Dayanmış maşının qapıları bərk çırpıldı. Bunu eşidən kimi, sürətlə çevrilib darvazaya tərəf qaçan Əhliman, qapını açıb həyətə girən mayor Əmirəliyevlə üz- üzə gəldi. O, həmin anda mayoru yolundan kənarlaşdırıb, həyətdən çıxmaq istədi. Hətta Əmirəliyevi itələdi də! Cinayət-axtarış bölməsinin rəisi buna bəndmiş kimi, onun çənəsinə yumruqla güclü zərbə vurdu. Həmin an tutaşdılar. Möhkəm bədənli, kifayət qədər güclü olan mayor tezliklə üstün gəldi və Əhlimanı döşəməyə yıxdı.

Bu zaman gənc bir polis işçisi də həyətə girdi. Əvvəlcə bıçağı əlində tutmuş Qasımlıya, sonra isə dizini Əhlimanın sinəsinə qoymuş mayora nəzər salıb yerində dayandı. Qasımlı yaxınlaşıb bıçağı ona uzatdı. Polis əməkdaşı təəccüblə bıçağı alıb yenə Əmirəliyevə baxdı.



downloaded from KitabYurdu.org

Mayor yerə yıxdığı caninin sinəsindən qalxıb onu bütün qüvvəsi ilə təpikləməyə başladı. Əhliman isə onu iyrənc söyüşlərlə söyür, əlləri ilə bədənini qorumağa çalışırdı.

Darvazaya tərəf addımlayan Qanbay Qasımlı çevrilib onlara baxdı. Əmirəliyev neçə gündən bəri çəkdiyi əziyyətlərin, Əhlimanın ona qaytardığı kobud və özündən razı cavablarının heyfini çıxır, getdikcə bir az da qızışırdı.

Qasımlı başını qaldıranda gözü yenə də damda qıvrılan sarmaşığa sataşdı. «Necə də gözəldir! - deyə düşündü. - Düşünərək belə bir gözəlliyi yaratmaq olmazdı. Görəsən, bunun toxumundan apanb həyətdə əksəm, balkonuma çıxar?...»

Sonuncu dəfə, heyrətindən hələ də özünə gəlməmiş Çinarə ilə oğluna nəzər yetirib həyətdən çıxdı. Bu zaman arxadan Əhlimanın naləsini eşitdi:

- Ay Allah, öldüm!

Cibindən siqaret çıxarıb yandırdı. Darvazanın önündə dayanmış polis maşınının yanından ötüb bir qədər kənarda saxladığı Volqaya yaxınlaşdı. Təmkinlə qapını açıb maşına əyləşdi və onu işə saldı. Döngəni burulub əsas yola çıxdı və bundan sonra sürəti artırdı. Kənddə onu gözləyirdilər. Yığışıb Balaya getmək lazım idi.

Həmin gün axşam rayonun prokuroru Bayəddini öz kabinetinə gətizdirdi. Əhlimanın həbs olunduğunu sürücü ilk dəfə onun



downloaded from KitabYurdu.org

dilindən eşitdi. Prokurorun səmimiyyətinə inanan və onun sözlərinə görə Əhlimanın bir də heç vaxt bu dünyada azad insan kimi gəzə bilməyəcəyinə əmin olan Bayəddin həmin axşam bunlan danışdı:

«Mayın 18-də, axşamüstü, şəhərin gölə baxan kənarında emalatxanası olan tanış karbürator ustasının yanına getmişdim. Son günlər məni tez-tez sərnişinlərin yanında üzüqara edən karbüratoru ona göstərmək istəyirdim. Usta işini qurtaranda saat, təxminən, səkkiz olardı. Maşına minib evə getmək istəyirdim ki, bir qadın mənə yaxınlaşdı.

- Qardaş, məni Göydağa apararsan? - dedi.

Bu qadını birinci dəfə idi ki, görürdüm. Əvvəlcə, istədim razılaşmayım. Yorğun idim.

Həm də tək qadınla axşam vaxtı uzaq yola çıxmaq istəməzdim. Rayon yeridir, mən də həmişə söz-söhbətdən qorxmuşam. Amma həmin gün qazancım az olmuşdu. Əlimə düşən bir-iki manat pulu da ustaya vermişdim. Qadın özü də çox abırlı, təmiz qadına oxşayırdı. Odur ki, bir az fikirləşib razılaşdım. Arxa qapını açıb onu maşına dəvət etdim və Göydağa yola düşdük.

Şəhərdən çıxana kimi küçələrə göz gəzdirirdim. Arzu edirdim ki, o tərəflərə gedən bir adama rast gəlim və onu da maşına götürüm. Ancaq heç bir tanış sifətə rast gəlmədim. Küçələrdə



downloaded from KitabYurdu.org

adamlar seyrəlmişdi. Havanın qaralmağına bir saatdan da az vaxt qalırdı. Şəhərdən çıxan kimi sürəti artırdım.

Meşə yoluna çataçatda maşın zəhrimar birdən-birə dayandı. Yenə karbüratordan şübhələndim və düşüb onu sökərək üzərində qurdalanmağa başladım. Belə işlərdə bir elə də səriştəm yoxdur. Odur ki, əlimdən gələni edib, üstəlik Allaha yalvanrdım ki, tanış, təcrübəli sürücülərdən birini bizə yetirsin.

Bu vaxt gördüm ki, Cavanşirin maşını şəhərdən gəlir. Çoxdan olmuş söz-söhbətə görə onunla danışmırdıq. Həm də onun maşın barədə bildiyi mənimkindən də az idi. Buna baxmayaraq, küsülü olmasaydıq, onu saxlayıb bədbəxt qadını kəndlərinə aparmağı xahiş edərdim. Onun daha mənə pulu da lazım deyildi. Təki düşdüyüm narahatçılıqdan qurtara biləydim.

Cavanşir yanımızdan ötüb keçdi. Daha başqa maşının gələcəyinə ümidim də yox idi. Bütün qüvvəmi toplayıb karbüratorla əlləşməyə başladım.

Artıq hava qaralmışdı. Kiçik elektrik lampasını akkumulyatora qoşub, onun işığında işləyirdim. Bu vaxta qədər səsini çıxarmayan qadın maşından düşüb yanıma gəldi. Mən onun necə həyəcan keçirdiyini açıq-aşkar duyurdum.

- Qardaş, əgər düzəlmirsə, mən piyada gedim - dedi.



downloaded from KitabYurdu.org

Əlimi saxlayıb ona baxdım. Hələ mənim yanımda ətraf qaranlığa necə qorxa-qorxa baxdığını görürdüm.

- Nə danışırsan, bacı? - dedim. - Guya bilmirsən, qabaqda iki yerdə köç var?!

Qadın mənim nə demək istədiyimi başa düşdü. Qabaqda iki yerdə, düz yolun kənannda qoyun sürüləri var idi. Bu sürüləri azman qoyun itləri qoruyurdu. Belə bir vaxtda o itlərin əlinə yad adam düşsəydi, onu parça-parça edə bilərdilər. Bədbəxtçilikdən belə köçün birini də arxada qoyub gəlmişdik. Yəni şəhər tərəfə də piyada getmək qorxulu idi. Özü də elə bir qadın üçün! Görünüşündən açıq hiss olunurdu ki, çöl- bayır görməyib. Hətta şəhərli qızma daha çox oxşayırdı.

- Kimin yoldaşısan? - deyə ondan soruşdum.

- Əhlimanın... - dedi və elə bil başıma qaynar su tökdülər.

Mən onun necə əzazil, necə qansız bir adam olduğunu bilirdim. Qadını maşına götürməyimə həddindən artıq peşman olmuşdum. Ancaq

neyləmək olardı? Maşını düzəldib onu kəndə aparmalıydım. Gecəni meşədə keçirmək daha pis nəticə verərdi. Az qaldı acığımı onun üstünə tökəm:

- Bir az ertə çıxa bilməzdin yola?!

Qadın heç nə demədi. Arxaya çevrildi və

birdən ağlamağa başladı.



downloaded from KitabYurdu.org

- Yaxşı, ağlama! - dedim. - Bu saat maşını düzəldərəm, yola düşərik.

Başını maşının qapısına söykəyib xeyli ağladı. Sonra sakitcə girib maşında, öz yerində oturdu və qapını örtdü. Bir neçə dəfə əlimdəki işi yekunlaşdırıb maşını işə salmağa çalışdımsa da, alınmadı. Nəhayət, çox gec başa düşdüm ki, karbüratorda günah yox imiş. Benzin nasosunun

içinə nə isə düşübmüş. Onu açıb təmizlədim və yerinə qoyub maşını işə saldım.

Gözləyirdim ki, qadın da mənim kimi sevinəcək. Ancaq o, heykəl kimi arxada oturub dinmir, elə hey nəyinsə barəsində düşünürdü.

- Darıxma bacım, bu saat çatacağıq! - dedim və maşına bacardığım qədər sürət verdim.

Nəhayət, gedib kəndə çatdıq. Həmin vaxt saat neçə olduğunu dəqiq deyə bilmərəm, ancaq onu xatırlayıram ki, bütün evlərdə işıqlar söndürülmüşdü. Tək-tək həyətlərdə gecə lampaları yanırdı. Maşını Əhlimanın darvazasının qarşısında saxladım. Özünü itirmiş qadın dəstəyin yerini heç cür tapa bilmədiyinə görə, düşüb qapını açdım. Qadın maşından düşərək içəridən bağlanmış darvazanı itələdi. Deyəsən, yol haqqı barədə danışmağı da unutmuşdu. Darvaza açıldı və Əhliman qapıda göründü. O, qəribə nəzərlərlə mənə baxırdı. Qadın həyətə girdi.



downloaded from KitabYurdu.org

Doğrusunu deyim ki, mən özümü tamamilə itirmişdim. Başımla Əhlimana salam verdim. O, salamımı almadan darvazanı örtdü. Mən maşını döndərib geriyə qayıtdım.

Səhər maşını işə salıb, dayanacağa getmək üçün həyətdən çıxdım. Bir az kənarda Əhliman əl işarəsilə maşını saxlatdırdı. İçəri girib qapını örtdü və buz kimi soyuq baxışlarla gözlərimə baxdı:

- Canına yazığın gəlirsə, de görüm, bu gecə meşədə neyləmisiniz?

Onun gözlərindəki ifadədən ölümün nə qədər yaxında olduğunu başa düşüb hər şeyi unutdum.

- Əhliman, sən nə danışırsan? - dedim. - O mənim bacımdır!

- Düzünü de, oğraş! - əlini uzadıb yaxamdan yapışdı.

- Vallah, heç onun üzünə də əməlli baxmamışam. - deyə özümü xilas etmək üçün sürətlə danışmağa başladım. - Karbürator xarab olmuşdu. Onu düzəldənə qədər gecəyə düşdük. O bir oğlumun canına and olsun ki, düz deyirəm...

- Bir oğlun var? - deyə yaxamı buraxıb sakit səslə soruşdu.

- Hə... - dedim. - Altı yaşında. Allah səninkiləri də saxlasın.

- Mənimkilərlə işin yoxdu. - dedi. - Ancaq əgər mənim arvadımı bu gecə kəndə gətirməyini, ya ümumiyyətlə onu



downloaded from KitabYurdu.org

gördüyünü bir yerdə ağzından qaçırsan, oğlunun başını cücə başı kimi üzəcəyəm. Eşitdin?

- Hə... - dedim. - Eşitdim...

- Ola bilsin ki, səni tutub bu gecə kəndə kimi aparmağını soruşacaqlar. Bax ha, mən dediyimi eləyən adamam! Harada gizlətsən də tapıb kəsəcəm başını oğlunun!

O bunu deyib maşından düşdü. Mən onun arxasınca baxıb uzun müddət özümə gələ bilmədim. Onunla əsgərlikdə olan qardaşımın danışdıqlarından bilirdim ki, onun əlindən hər cür alçaq iş gələ bilər. O gecə, demək olar ki, qorxulu fikirlərin əlindən yata bilmədim.

Səhəri gün dayanacaqda sürücülərdən eşitdim ki, Göydağlı Mahmudu gecə ikən evində öldürüblər. Bir şey anlaya bilməsəm də, Əhlimandan şübhələndim. Sonra qərara gəldim ki, əgər məni tutub o gecə kəndə nə üçün getdiyimi soruşsalar, Mahmudgilə getdiyimi deyim. Çünki onun tək yaşadığını bilirdim və düşünürdüm ki, mənim yalanımı üzə çıxaran şahid olmayacaq...»

... Prokuror elə həmin axşam Bayəddini maşını ilə birlikdə evə buraxdırdı. Onun evə qayıtmağı kiçik ailədə əsl bayrama çevrildi. Ramalın isə sevincinin qədərini təsəvvür etmək belə mümkün deyildi. Sevimli atası evə qayıtmışdı. Özü də tapança ilə.



downloaded from KitabYurdu.org

Gecədən xeyli keçmiş, oğlunu birtəhər yatızdıran Çinarə yenidən stolun arxasında əri ilə üzbəüz oturanda, onun adını öyrənə bilmədiyi dostunun gəlişi haqqında danışdı. Bayəddin istəkli arvadını və canından artıq sevdiyi oğlunu ölümdən xilas edən adamın kim olduğunu anlaya bilmədi. Gözlərinin dolduğunu arvadından gizlətmək üçün üzünü yana çevirib astadan dilləndi:

- Orada çox yalvarmışdım Allaha! Yəqin, o göndərib həmin adamı...

Əhlimanı da prokuror özü danışdırdı. Ancaq bu dəfə istintaqda müstəntiq Zeynalov və polis şöbəsinin rəisi Xəlilov da iştirak edirdi. Əhlimanın etdiyi cinayətləri boynuna almaqdan başqa çarəsi qalmamışdı. Odur ki, hər şeyi, necə olmuşdusa, eləcə də danışmağı qərara aldı:

«Mayın 18-də, səhər tezdən qoyunları sürüyə qoşub geri qayıdanda Səfayəni evdə görmədim. Əvvəlcə, su gətirmək üçün bulağa getdiyini düşündüm. Sonra gördüm ki, səhəng evdədir. Vaxt keçdikcə şübhələnməyə başladım. Nəhayət başa düşdüm ki, bir gün əvvəl onu söydüyüm və vurduğum üçün evdən gedib. Günorta Sabir şəhərdən qayıdanda gedib ondan soruşdum və ağlıma gələn fikir təsdiq olundu. Fikirləşib qərara gəldim ki, dalınca getməyəcəm. Qoy bir-iki gün atasının evində qalıb düşünsün. Bilirdim ki, axırda atası özü gətirib barışıq yaradacaq. Ancaq hərdən onu da arzu edirdim



downloaded from KitabYurdu.org

ki, kaş heç qayıtmayaydı. Elə olsaydı, ayrılardıq və mən də başqası ilə evlənərdim. Düzdür, Səfayə gözəl olmaqla bərabər, üzüyola, təmizkar bir qadın idi. Uşaqlanna da, mənə də yaxşı baxırdı. Lakin onun asta tərpənməsi, dilsiz-ağızsız olması məni tez-tez əsəbiləşdirib özümdən çıxarırdı.

Gecə saat 12-də maşın səsini eşidib küçəyə çıxdım. Gələn Səfayə idi. Onu öz maşınında

Bayəddin gətirmişdi. Özü də tək. Hirsimdən bilmirdim ki, neyləyim... Səfayə həyətə girdi. Mən darvazanı örtdüm və Bayəddin o saat geri qayıtdı.

- Hansı cəhənnəmdə idin? - deyə Səfayəni zirzəmiyə çəkib soruşdum. Biz uşaqlar yatan otağın altında idik.

- Burax... - o, yaxasından yapışdığım əlimi kənarlaşdırmaq istədi.

- Səninləyəm! - dedim. - Haraya getmişdin? Getmişdinsə daha niyə qayıdırdın? Gecənin bu vaxtında yad kişi ilə haradan gəlirsən? Deməli, belə işlərin də var imiş sənin?

Bu sözlərimin qarşısında o, məzəmmət və kin dolu baxışlarla mənə baxdı. Həyəcan və qorxudan sinəsi qalxıb-enir, ancaq bircə kəlmə də danışmırdı. Elə bil dodaqları kilidlənmişdi. Nəhayət, nə isə demək lazım olduğunu başa düşüb:

- Maşın xarab olmuşdu. - dedi.

Əslində, ona inansam da, bugünkü hərəkəti



downloaded from KitabYurdu.org

üçün acığımı çıxmalıydım. Ona görə də:

- Yalan deyirsən, qancığın balası! - deyə onu söydüm və üzünə dalbadal bir neçə sillə vurdum.

Səfayə əli ilə yanağını tutub, nifrətlə dilləndi:

- Anamı söymə, sənin də anan olub!

O, çox astadan danışırdı. Başa düşdüm ki, uşaqların səsimizə oyanacaqlarından çəkinir.

- Sən hələ bir onu de görüm, evdən niyə getmişdin? - deyə mən də səsimi alçaltdım. - Nə vaxta qədər mənim səbrimlə oynayacaqsan? Özünü fikirləşmirsən, heç olmasa uşaqlarını fikirləş.

- Elə uşaqlara görə gəldim. - deyib burnundan axan qanı əlinin dalı ilə sildi.

- Deməli, məni adam hesab etmirsən? - onu bir də vurdum. - Dizləri üstə yerə çöküb başını tutdu.

- Sən məni istəməmisən! - dedi. - Heç vaxt istəməmisən. Mən qulluqçu olmuşam sənin üçün!

Onu təpiklə vurub qışqırdım:

- İstəməsəydim, səni özüm rədd edərdim, gedərdin atanın xarabasına!

- Qışqırma! - deyə boğula-boğula dilləndi.



downloaded from KitabYurdu.org

- Sabah özüm çıxıb gedəcəm. Ancaq qoy bu gecə bu zirzəmidə qalım!

Hirsimdən başım xarab oldu. Kiçik rəfdə gözümə sataşan 50-60 santimetr uzunluqda qalın dəmir parçasını götürüb onun kürəyinə və qıçlarına vurmağa başladım. Mən onu vurduqca inildəyir, boğulan adamlar kimi səs çıxarır, ancaq qışqırmırdı. Əgər qışqırıb ağlasaydı, ya yalvarmağa başlasaydı, bəlkə dayanardım. İndi isə getdikcə qızışırdım.

Birdən bütün qüvvəmlə sol qoluna necə vurdumsa, bərk xırçıltı eşidildi. Qolunun biləkdən qırıldığını başa düşdüm. Onun sonsuz dəhşət ifadə edən, iriləşmiş, az qala yerindən çıxmaq istəyən gözlərinə baxanda özümü də qorxunc bir hiss bürüdü. Birdən-birə mənə elə gəldi ki, onu öldürməsəm, daha dəhşətli anlar baş verə bilər. Başa düşdüm ki, bu baxışların vahiməsi qarşısında çox dayana bilməyəcəyəm.

Əlimdəki dəmir parçasını yuxarı qaldıranda, sanki məqsədimi başa düşübmüş kimi, bayaqdan uşaqları oyatmaq istəməyən Səfayə var səsilə:

- Cavid! - deyə çığırdı.

Həmin anda da zərbəni başına endirdim. Bircə saniyə yerində donub, döşəməyə sərildi. Onun öldüyünü başa düşəndə, nə edəcəyimi bilməyib, bir müddət ətrafı dinlədim. Sakitlik idi.

Ancaq bu sakitlikdə, başımın üstündə çarpayı cırıltısını eşidəndə, həyəcanlandım. Bu, Cavidin çarpayısının səsi idi...



downloaded from KitabYurdu.org

Tez həyətə çıxdım. Həyət sakit və qaranlıq idi. Geriyə qayıdıb zirzəminin də işığını söndürdüm. Pilləkənlə qalxıb evə girdim. Mən dəhlizin o başındakı otaqda yatırdım. Solda birinci otaq isə uşaqlann otağı idi. Qapını açıb içəri girəndə məni vahimə bürüdü. Cavid oyaq idi. O, gözlərini geniş açaraq mənə baxırdı.

- Kim idi gələn, ata? - deyə soruşdu.

Əvvəlcə özümü itirdim. Sonra tez də başa düşdüm ki, o, yəqin, yalnız maşının səsini eşidib. Və çox güman ki, sonra yenidən yuxuya gedib. Yoxsa bizim danışığımızı və anasının çığırtısını eşitməyə bilməzdi. Ancaq o, hər halda, anasının səsinə ayılıbmış.

- Kimsə Mahmud əmingilə gəlmişdi, - deyib öz otağıma keçdim. Lakin mən meyiti zirzəmidə qoya bilməzdim. Ona görə də otağın pəncərəsindən xəlvətcə həyətə düşüb zirzəmiyə getdim. Meyiti qucağıma götürüb tövləyə tərəf apardım. Qapını açıb içəri girdim. Qoyunlar bir küncə sıxlaşıb qəribə nəzərlərlə mənə baxırdılar. Əsasən qışda işlədilən, indi isə içinə taxta və dəmir-dümür yığılan axuru boşaldıb Səfayənin meyitini oraya qoydum və üstünü yenə də götürdüyüm əşyalarla və quru otla örtdüm.

Yalnız bundan sonra tövləni bağlayıb evə tərəf getdim və pəncərədən otağıma girdim. Səhərə



downloaded from KitabYurdu.org

qədər yatmayıb fikirləşdim. Olan olmuşdu. İndi ancaq özümü qorumaq, polisin şübhəsindən yayınmaq barədə düşünürdüm.

Səhər durub şəhərə gəldim. Bayəddini tapıb başa saldım ki, onların bir-neçə saat bir yerdə olmağından onsuz da şübhəliyəm. Əgər istəmirsə, özünü də, ailəsini də məhv edim, Səfayəni kəndə gətirməsini heç yerdə dilinə gətirməsin. Ona dedim ki, ola bilsin, səni görüb satan olar və səni tutub, kəndə kimi apardığını soruşarlar. Əgər desən, oğlunun başını kəsəcəyəm. Sonra qaymatam-gilə də baş çəkdim. Artıq mən müəyyən planlar qurmuşdum və bilirdim ki, adamlan şübhələndirməmək üçün özümü günahkar kimi aparmamalıyam. Ona görə

də Səfayənin ata-anasını söyüb, təhqir edib evdən çıxdım. Kəndə qayıdan kimi icra nümayəndəsinə də məlumat verdim. Sonra evə gedib nahar etdim. Bir az dincəlib meyiti basdırmaq üçün tövləyə yollandım. Mən bilirdim ki, uşaqlar tövləyə gəlməyəcəklər. Lazım olanda, onlar məni evin yanından çağırırdılar. Döşəməni söküb, dar xəndək qazdım. Meyiti axurdan götürüb, xəndəyə qoydum. Üstünü torpaqla örtmək istəyəndə qapı açıldı və heç gözləmədiyim halda Mahmud başını içəri uzatdı:

- Əhliman, burdasan? - deyə soruşdu.



downloaded from KitabYurdu.org

Bircə anda sifətinin dəyişdiyi gözümdən qaçmadı. Tez onun üstünə getdim. O, geri çəkildi. Mən tövlədən çıxdım. Mahmud əlini

uzadıb mənimlə görüşmək istədi. Buna ehtiyac olmasa da, onun əlini sıxdım. İkimiz də özümüzü itirmişdik. Nəhayət, o dilləndi:

- Böyük çəkicini verərsən? Daş sındırıram. Mən tövlənin yanındakı qalaqdan çəkici götürüb ona verdim. Sonra, onu darvazaya qədər ötürüb, geri qayıtdım.

Heç nə fikirləşmədən başladığım işi sona yetirdim. Meyiti basdırıb, yastı daşları yerinə qoydum. Sonra onları tapdalayıb bərkitdim. Artıq qalan torpağı təmizləyib tövlənin arxasındakı peyin qalağında gizlətdim. Sonra tövlənin döşəməsinə bir az quru ot qalıqları töküb, bir də tapdaladım.

Bu işi görüb qurtarandan sonra evə çıxıb Mahmud barədə düşünməyə başladım. Artıq mənim üçün az fərq eləyirdi. Onsuz da cinayət törətmişdim. Bilirdim ki, ifşa olunsam, məni ağır cəza gözləyir. Ona görə də, Mahmudu aradan götürmək qərarına gəldim. Lap yəqin bilirdim ki, o meyiti gördü. O gün olmasa da, nə vaxtsa bunu ağzından qaçıracaqdı.

Havanın qaralmasmı gözləyib küçəyə çıxdım. Bu vaxt məni heç kəs görmədi. Heç öz uşaqlarım da!.. Darvazanı açan Mahmuda «Gəldim, bir nərd oynayaq!» - dedim. Biz tez-tez ya mənim, ya da onun evində oturub nərd oynayardıq. Bunu



downloaded from KitabYurdu.org

çoxları bilirdi. Mahmud heç nə deməyib, çox könülsüz qabağa düşdü. Gözümə birtəhər dəyirdi. Elə bil günortadan sonra keçən müddət ərzində beli bükülmüşdü. Dəhlizdə düşündüm ki, otağa çatan kimi nərdi götürəcək. Nərd taxtasını stolun üstündə görsəydilər, məndən şübhələnə bilərdilər. Mən isə otaqda heç nəyə əl vurmaq istəmirdim. Ona görə də Mahmud otağa girən kimi, əlimdə hazır tutduğum bıçaqla kürəyinə zərbə endirdim. O ağzı üstə yıxıldı. Otaqda gur neft lampası yanırdı. Kölgəmin küçədən görünməsindən ehtiyatlanıb otağa girmədim və tez geriyə qayıtdım.

Darvazaya çatanda, küçədə ayaq tappıltısı eşitdim. Ehtiyatla qapını aralayıb baxdım və Dərəçaya tərəf gedən Mirsahibi gördüm. O, keçib gedəndən sonra darvazanı açıb çıxdım və öz həyətimə getdim.

Həmin vaxt, pəncərədə görünən kölgə söhbətini uydurmaq ağlıma gəldi. Mən bilirdim ki, siz gec-tez Mirsahibin o kəndə gəldiyini biləcəksiniz. Ona görə də, guya pəncərədə gördüyüm kölgəni Mirsahibin formasına uyğun təsvir etdim.

Mən Bayəddinin də o gecə kəndə gəlməsinin polisdən gizlin qalmayacağını başa düşürdüm. Ona görə də onun kəndə gəlməsini ilk dəfə müstəntiqə və Əmirəliyevə özüm bildirdim. Beləliklə, mən özümü şübhələrdən uzaqlaşdırmaq istəyirdim.

Bütün bunlara baxmayaraq, mən ifşa olundum. İfşa olunduğumu görən kimi Bayəddindən şübhələndim və maşın



downloaded from KitabYurdu.org

ələ keçirib onun evinə tələsdim. İndi mənim üçün onsuz da heç nəyin fərqi yoxdur. Ancaq mən onun oğlunun başını doğrudan da kəsəcəkdim. Hələ arvadı haqqında da iyrənc planlarım var idi. Mən bunların hamısını edəcəkdim. Artıq buna tam hazır idim və beynimdə başqa heç bir fikir yox idi. Qabağımı saxlayan o jurnalist oldu.

Mehdixan kişinin qonağı. O, jurnalist də olsa qeyri-adi bir adam imiş. Məni o anda heç kəs saxlaya bilməzdi, o saxladı. Ömrümdə ilk dəfə iradəcə özümdən güclü adama rast gəlmişdim. Mən indi ona çox minnətdaram. Çünki tutulandan sonra keçən bu üç gün ərzində dəqiq inandım ki, məni Bayəddin satmayıb. Deməli mən günahsız yerə öldürəcəkdim o uşağı... Sonra bunu özümə çətin bağışlayardım».

Əhliman bütün bunları danışdığı müddətdə qarşısında əyləşmiş üç nəfərin heç biri onun sözünü kəsməmişdi. Sakitcə oturub ona diqqət kəsilmişdilər. Əhliman danışıb qurtardıqdan sonra da heç biri dillənmədi. Sanki danışmağa sözləri yox idi. Yaranmış qısa sükutu yenə Əhliman özü pozdu:

- Ancaq mən bir şeyi anlaya bilmirəm. Hərəkətlərimdə hansı səhvi buraxmışam ki, həmin səhvin ucbatından ifşa olundum? Əgər siz bunu mənə desəniz sizə çox minnətdar olaram.

Prokuror istehza ilə başını bulayıb Əhlimana cavab verdi:

- Sənin buraxdığın səhvin nədən ibarət olduğunu, doğrusu, biz özümüz də bilmirik. Özünü elə aparmısan ki, səndən heç



downloaded from KitabYurdu.org

kəs şübhələnməyib. Ya sən şeytanın özüsən, ya da ki, onun şagirdi olmusan. O ki qaldı ifşa olunmağına, səni ifşa edən həmin minnətdar olduğun adamdır!

- O jurnalist? - Əhliman özündən asılı olmayaraq ayağa qalxdı.

- O, jurnalist deyil! - Prokuror başını yellədi. - İstefada olan polis polkovnikidir!

- Deməli belə... - Əhliman yavaş-yavaş stula çökdü. - Hər halda mənim nəsə bir səhvim olub.

Niyə demirsiniz bunu mənə?

- Dedim ki, bilmirik! - Prokuror acıqla cavab verdi və canini apartdırmaq üçün stolun üstündəki düyməni basdı.

Xəlilov üzünü Əhlimana tutub onu başdan ayağa süzdü:

- Sənin səhvin o olub ki, cinayət etmisən və ömrünün axınna kimi onun əzabını çəkəcəksən!

Otağa daxil olan polis əməkdaşı prokurorun işarəsi ilə əllərinə qandal vurulmuş Əhlimanı qabağına qatıb apardı.

Polkovnik Qasımlı rayondan qayıtdığı iki həftə müddətində, təhqiqat işi ilə əlaqədar heç bir sifarişi olmadığı üçün vaxtını elmi əsərlərin mütaliəsi ilə keçirirdi. Elə indi də axşamüstü, mənzilindəki kreslosunda oturub kitab oxuyurdu. Qapının zəngi çalmanda kitabı stolun üstünə qoyub ayağa qalxdı.



downloaded from KitabYurdu.org

Gələnlər Nemət, Mahir və bir də Elməddin idi. Ev sahibi onları görəndə çox sevindi və hər birini mehribanlıqla içəri dəvət etdi. Hamı içəri keçib əyləşəndən sonra üzünü Elməddinə tutdu:

- Sən hara, bura hara? Salamatlıqdırmı?

Onun əvəzinə Nemət cavab verdi:

- Elməddin bizə qonaq gəlib. Mən də Mahirə zəng vurub çağırdım ki, birlikdə sizə baş çəkək.

- Lap yaxşı eləmisiniz! - deyən Qasımlı yenə Elməddinə baxdı:

- Ailəniz necədir?

- Yaxşıdırlar. Hamısının sizə salamı var!

- Çox sağ olsunlar. Məndən də onlara salam apararsınız! Bəs o uşaqlar necədirlər? Əhlimanın uşaqları...

Ortalığa ani sükut çökdü. Hamı yenə kənddə baş vermiş o qanlı cinayəti xatırladı.

Elməddin köksünü ötürüb cavab verdi:

- Hamı gözləyirdi ki, rəhmətlik Səfayənin atası uşaqları öz evinə aparacaq. Ancaq aparmadı. Deyib ki, düşmənimin balalarını evimdə saxlamayacam ki?!

- Qəribədir! - Qasımlı başını buladı.

- İndi uşaqlar özləri birtəhər dolanır.



downloaded from KitabYurdu.org

Hərdən atam da baş çəkib hal-əhval tutur onlardan...

- Bəs bizim atıcı dostumuz necədir? - Mahir sual verdi. - Sahə müvəkkilini deyirəm.

- Hə?.. Miriyev atamdan inciyib. Deyir məni niyə aldatdın ki, qonaqların jurnalistdir? Kim olduqlarını bilmədiyim üçün onların yanında, o ki var, lovğalanmışam. Bir də atamdan soruşdu ki, sənin qonağın necə açdı bu sirrin üstünü? Atam dedi ki, bilmirəm, eləcə Əhlimandan şübhələnib. O da atama inanmadı. Dedi ki, Əhlimanda şübhələnməli bir şey yox idi. Burada nəsə başqa iş var.

Mahir birdən onun sözünü kəsib Qasımlıya üz tutdu:

- Qanbay müəllim, yeri gəlmişkən, siz heç demədiniz axı, Əhlimandan niyə şübhələnmişdiniz?

- Mən sizə dedim axı, - Qasımlı cavab verdi. -Əhlimanın hərəkətlərində şübhəli məqamlar az deyildi. Ancaq gərək ona xüsusi diqqət yetiriləydi.

- Yaxşı, necə oldu ki, siz ona xüsusi diqqət yetirdiniz? - Mahir bu dəfə sualı başqa cür verdi.

- Mən Mahmudun evində olanda, - Qasımlı izah etməyə başladı. - gördüm ki, neft lampası stolun üstündədir. Stol isə pəncərəyə bitişik vəziyyətdə idi. Belə bir halda otaqda olan heç bir kəsin kölgəsi pəncərəyə düşə bilməzdi. - Qasımlı sözünə ara verib qulaq asanlann üzlərinə göz gəzdirdi. -



downloaded from KitabYurdu.org

Pəncərəyə o adamın kölgəsi düşə bilər ki, o adam pəncərə ilə lampanın arasında

dayansın. Həmin otaqda isə bu mümkün deyildi. İndi başa düşdünüz?

- Başa düşdük. - hamıdan əvvəl Elməddin cavab verdi. - Əhliman isə demişdi ki, pəncərədə yad adamın kölgəsini görüb.

- Bəli! - Qasımlı başı ilə təsdiq etdi. - Kölgə görməyini deməsi azmış kimi, hətta onun ölçülərini də təsvir edirmiş!

- Deməli belə! - Mahir mənalı tərzdə səsini uzatdı. - Əhlimanın yeganə səhvi o olub ki, pəncərə ilə lampanın arasına girib!

- Azadlıqla ölümün arasına! - Nemət öz fikrini bildirdi. - Elə özünün indi düşdüyü yer də elə bir yerdir!

- Bəli! İndisə gəlin, başqa şeylərdən danışaq!

Qanbay Qasımlı bunu deyib ayağa qalxdı və qonaqlara qəhvə hazırlamaq üçün mətbəxə keçdi.

## EPİLOQ

Həmin uğursuz gün - mayın 18-də Səfayə şəhər kənarındakı gölün sahilində dayanıb, özünü sakit sulann qoynunda qərq etməyə hazırlaşmışdı. Özünü göldə boğmaq, canını ağrıdan həyatdan əbədi olaraq uzaqlaşmaq istəmişdi. Fikri qəti idi!



downloaded from KitabYurdu.org

Son anda yaxasmdakı şəkli çıxarıb uşaqlarına baxmışdı. Şəkli öpüb ağlamışdı... və birdən başa düşmüşdü ki, ölsə də, ruhu rahatlıq tapa bilməyəcək. Başa düşmüşdü ki, ruhu əzab çəkəcək onlarsız. Görmək istəyəcək onlan, görə bilməyəcək. Ruhun görən gözləri olmur... Səslərini eşitmək istəyəcək, eşidə bilməyəcək. Ruhlar eşidə bilmir... Bağrına basmaq istəyəcək

uşaqlarını, basmayacaq. Ruhun qolları olmur... Təksə duya biləcək ruhu onları. Duyacaq, ayrılıq əzabı çəkəcək həmişə!

Başa düşmüşdü ki, həyatı əzablarla dolu olsa da, yaşamalıdır. Cavid üçün, Təhminə üçün yaşamalıdır. Başa düşmüşdü ki, analıq borcunu yerinə yetirməlidir. Uşaqlarını yetim qoymamalı, onları böyüdüb, boya-başa çatdırmalıdır.

Birdən-birə darıxmışdı uşaqları üçün. Elə darıxmışdı ki, az qalmışdı, dəli kimi, var qüvvəsilə qaçsın, özünü kəndə yetirsin. Ona elə gəlmişdi ki, özünü tezliklə canından çox sevdiyi balalarına çatdırmasa, onları bir daha görə bilməyəcək...

Uşaqlann şəklini yenidən yaxasında gizlədib, geriyə qayıtmışdı, şəhərə tərəf... Asfalta çıxan kimi, öz maşınının yanında dayanmış Bayəddini görüb tanımışdı. Neçə dəfə kəndlərinə gəlib-getmişdi bu adam. Bir neçə dəfə Əhlimanı da gətirmişdi evə. Bir qədər tərəddüddən sonra Bayəddinə yaxınlaşıb, onu kəndə aparmağı xahiş etmişdi. Maşına oturub,



downloaded from KitabYurdu.org

balalarını tezliklə görmək ümidilə, ürəyi çırpma-çırpına yola düşmüşdü. Taleyin onun üçün nəzərdə tutduğu faciəli sonluğa doğru...

... Cavidlə Təhminə analarının başına gələni biləndə çox ağlamışdılar, çox xiffət çəkmişdilər. Ürəyi yananlar ürək-dirək vermişdilər onlara. Üzlərinə demişdilər ki, «Ölənlə ölmürlər, ay bala, bu dünyanın işidir. Hamımız öləcəyik!». Arxalarınca isə başqa söz demişdilər: «Torpağm üzü soyuqdur. Bir azdan analarını elə unudacaqlar ki, heç yadlarına da düşməyəcək! Yaşayacaqlar, böyüyəcəklər, xoşbəxt ömür sürəcəklər!» Bu əlbəttə, belədir! Amma... Dünyada hər bir işin bir əmması olur axı!?

Sizə danışdığım bu əhvalat olmuşlar idi. Ancaq olmuşlarla bitmir zamanın işi... Olmuşların bir olacaqlan da olur həmişə. Elə bu danışdığım olmuşlar da nə vaxtsa olacaqlar olub həmin adamlar üçün. Necə ki, indi danışacağım olacaqlar da bir vaxt olmuş olacaq!

Olacaq, mütləq olacaq bu dediklərim! Cavid də, Təhminə də yarıac, yarıtox böyüyəcək. Cavid bacısına həm qardaş, həm də ata olacaq. Elə Təhminə də analıq edəcək ona, yeri gələndə. Cavid özü işdən-gücdən baş açıb oxuya bilməsə də Təhminəni oxudacaq. Sonra onu tələbəlik illərində sevib-seçdiyi oğlana ərə verəcək. Yaxşı cehiz qoşub, toy eləyib Bakıya gəlin köçürəcək. Bundan sonra özü də bir halal süd əmmişlə



downloaded from KitabYurdu.org

evlənib, ailə quracaq. Təhminənin bir oğlu və bir qızı, özününsə tək bir qızı olacaq. Qızının adını Səfayə qoyacaq...

Xoşbəxt yaşayacaqlar... Onların uşaqlıqlarını xatırlayan qoca kənd sakinləri arasında hərdən, belə söhbət də olacaq:

- Görürsünüz, o vaxt deyirdik ki, dözməzlər analarının yoxluğuna. Cavid anasını elə istəyirdi ki, deyirdik ürəyi partlayacaq uşağın! Ancaq torpağın üzü doğrudan da soyuq imiş... Heyif ölənin canından! Qalan qalır, yaşayır! Atası, deyirlər, bu yaxınlarda türmədə ölüb, heç maraqlanmır. Heç anası da yadına düşmür. Bəxtəvər yaşayır özü üçün! Burdan-bura şəhərə gedib anasının qəbrinə də baş çəkmir! Kim nə deyir desin, unudulur hər şey!

... Çox şeylər olacaq, çox şeylər deyiləcək. Amma...

Bir gün Cavid itmiş qoyunlarını meşədə axtarıb tapanda, artıq qaranlıq düşəcək. Qoyunları gətirib həyətə salanda başını qaldırıb evinə baxacaq və ikinci mərtəbədə gur işıq yanan pəncərələrin birində... anasının kölgəsini görəcək.

O qədər aydın görünəcək ki, bu kölgə, Cavid əvvəlcə heyrətindən yerində quruyub qalacaq. Görəcək ki, bu xəyal deyil, anasının kölgəsidir. Tərpənir, gəzir... həminki asta, təmkinli, kövrək hərəkətləri ilə...

Hər şeyi unudub var gücü ilə evə yüyürəcək. Pilləkənləri necə sürətlə çıxdığından özünün də xəbəri olmayacaq.



downloaded from KitabYurdu.org

Qapını taybatay açıb dəli kimi evə girəndə Bakıdan xəbərsiz qonaq gəlmiş bacısı ilə rastlaşacaq. Və məlum olacaq ki, pəncərədə görünən kölgə anasının yox, Təhminənin olubmuş...

Təhminə:

- Xoş gördük, ay qardaş! - deyib onu qucaqlayacaq, o üzündən, bu üzündən öpəcək. Sonra onun donub durduğunu görərək:

- Nə olub sənə, bacı qurban? - deyə soruşacaq.

Cavid:

- Heç nə! - deyib, bacısı uşaqları ilə də görüşəcək və cəld dönüb boş otaqlardan birinə keçəcək.

Pərt halda yerində quruyub qalan Təhminə birdən həmin otaqdan yanıqlı hıçqırıq səsləri eşidəcək və başa düşəcək ki, qardaşı yenə də anası üçün ağlayır...

Olacaq... Bunlann hamısı olacaq...

SON

Bakı, mart-iyun, 2005



downloaded from KitabYurdu.org